60. Məşədi Məmmədəli Hacı İbrahim oğlu
61. Allahverdi Məşədi Məmməd oğlu
62. Əhməd Nəzər oğlu
Oğlanları – Məmmədqulu (oğlanları – Murtuzaqulu, Səfər), Əliqulu, Oruc
63. Kərbəlayı Cəfər Nurməmməd oğlu
Oğlanları – Kərbəlayı Həsən, Paşa, Cabbar
64. İmamqulu Məşədi Məsih oğlu
Qardaşı oğlanları – Fərrux, Ağa, Paşa
65. Məmməd Məşədi Hüseyn oğlu
Oğlanları – Hüseyn, İbrahim
Qardaşları – Əbdülkərim (oğlanları – Cəlil, Firudun), Murtuza, Nəsir
66. Mustafa Məşədi Abış oğlu
Oğlanları – Nəsir, Səməd, Məmməd, Zülfüqar
Qardaşı – (Cabbarın) oğlanları – Əbdülhüseyn, Paşa
67. Kərbəlayı Əli Məmməd oğlu
68. Hüseyn Əliqulu oğlu
Qardaşları – Paşa, İskəndər
69. İmamqulu Məşədi Məmməd oğlu
Qardaşı – Mütəllim
Oğlu – Məmmədhəsən
70. Ağa Məşədi Məmmədcəfər oğlu
Oğlanları – Məmmədcəfər, Yusif, Fərəməz, Cahangir
71. Məşədi Hüseyn Əbdüləzim oğlu
Oğlanları – Ələkbər, Əbdüləzim, Ələsgər
72. Yusif Məşədi Ağakişi oğlu
Qardaşı – (Süleymanın) oğlanları – Əli, Dadaş, Həsən
73. Kərbəlayı Kərim Məmməd oğlu
Oğlu – Zülfüqar
Qardaşları – Qara, Dadaş
74. Kərbəlayı Qulu Məşədi Hacı oğlu



Qardaşları – Həşim, Yəhya (oğlu – Salman)
Qardaşı – (Məmmədəlinin) oğlanları – Mehdi, Məmməd
75. Rəhim Hacı Məmmədəli oğlu
Oğlanları – Əliyar, Məmməd, Əsəd, Məmmədəli, Kərim, Səlim
Qardaşı – Hacı Abbas
Oğlu – Qulu
76. Mehralı Məşədi Cam oğlu
Oğlanları – Müseyib, Zülfüqar, Heydər
77. Kərbəlayı Həsənqulu Kərbəlayı Məmməd oğlu
Oğlu – Bəşir
Qardaşı – Hüseyn
78. Məşədi Məmmədqulu Kərbəlayı Məmməd oğlu
79. Molla Zeynal Molla Abbas oğlu
Qardaşları – Abdin, Dadaş, Nəsir
80. Kərim Rəhim oğlu
Oğlu – Müseyib
Qardaşı – Məmmədqulu
Əmisi – Əsəd Baba oğlu
81. Məşədi Zeynal Hacı Səfər oğlu
Oğlu – Qasım
Qardaşı – İsmayıl
82. Əliqulu Əsgər oğlu
Qardaşları – İmamqulu, Murtuza
Məmməd Abbas oğlu
83. Şükür Məmmədbağır oğlu
Qardaşı – Məmmədqulu
84. Molla Sadıq Qasım oğlu
Oğlanları – Muxtar, Cabbar, Həsənəli, Baxşalı
85. Şükür Məşədi Şəfi oğlu
Oğlanları– Əli, Aslan, Məmməd
86. İbrahim Kərbəlayı Əbdürrəhim oğlu
Oğlanları – Həmid, Əhməd
Qardaşı – Məmməd
87. Əbdüləzim Məşədi Canı oğlu

Oğlanları – İsmayıl, Hüseyn
88. Kazım Məşədi Şəfi oğlu
Oğlanları – Nağı, Sərdar, Hüseyn
Qardaşı – (Mirzənin) oğlu – Mirzə
89. Hacı Əkbər Məşədi Qafur oğlu
Oğlanları – Cabbar, Əbdürəhim, Ələsgər
90. Kərbəlayı Kazım Zaman oğlu
Oğlanları – Məmmədtağı, Məcid
91. Teymur Məşədi Sadıq oğlu
Qardaşları – Əli, Nasir
92. Kərbəlayı Ələsgər Məşədi Hüseyn oğlu
Oğlanları – Səlim, Hüsü
Qardaşları – Bağır, Məşədi Əkbər, Əsəd
93. Kərbəlayı Həşim Ağaməmməd oğlu
Oğlanları – Süleyman, Dadaş, Məmməd, Salman
Qardaşları – Zeynal, Fərrux
94. Məmməd Bağır oğlu
Oğlanları – Ağa, Əsəd, Kərim, Rəhim
95. Kərbəlayı Abdulla Məşədi Pənci oğlu
Oğlanları – Əsəd, Səməd, Əhməd, İbad, Səfi
96. Məmmədcəfər Abdin oğlu
Oğlu – Qulu
97. Məşədi Qasım Məşədi Zeynal oğlu
Oğlanları – Teymur, Zeynal
Qardaşı – Əsəd
98. Fərəc Abdulla oğlu
Qardaşı – Mehdi
99. Məşədi Əlikişi Hacı Hüseyn oğlu
Oğlanları – Muxtar, Salman, Ağa, Əhməd
100. Məşədi İsmayıl Hacı Hüseyn oğlu
Oğlanları – Hüseyn, Əbdülhəsən, Ələkbər
Qardaşı – Babakişi
Oğlanları – İbrahim, Xanlar
101. Əsəd Kərbəlayı İman oğlu
Oğlanları – Ağalar, Bəylər



102. Şükür Hacı Əzim oğlu
Oğlanları – Məmməd, Əsəd
Qardaşları – Nəsir, Aslan, Fərəməz, Əfrasiyab
103. İbrahim Abdulla oğlu
Oğlanları – Süleyman, Həşim, Əli
104. Salman Kərbəlayı Dadaş oğlu
Qardaşı – Ağa
105. Məşədi Nağı Molla Qulu oğlu
Oğlanları – Həşim, Məmməd
Qardaşları – Məşədi Abış, Kərbəlayı İsmayıl (oğlanları – Mahmud, Ələkbər, Həbib), Kərbəlayı Sadıq
106. Kərbəlayı Mehdi Molla Qulu oğlu
Oğlanları – Əbdülhüseyn, Əbdüləli, Əzim, Rza
107. Cəfərqulu Hacı oğlu
Qardaşı – Kərbəlayı Dadaş
108. Abbas Şahbaz oğlu
Oğlanları – Hidayət, Fərəc, Şirin, Mövsüm
109. Abbas Mirzə oğlu
Oğlu – Məmmədəli
110. Cəfər Musa oğlu
Oğlanları – Hüseyn, Muxtar
111. Abbasqulu Kərbəlayı Məmmədəli oğlu
112. Kərbəlayı Allahverən Həsən oğlu
Oğlu – Əsəd
Qardaşları – Allahverdi, Allahyar
113. Hüseyn Əli Məşədi Məmməd oğlu
Qulu Kərbəlayı Hüseyn oğlu
114. Əbdürrəhim Məşədi Məmməd oğlu
115. İsmayıl Kərbəlayı Həsən oğlu
116. Məhərrəm Kərbəlayı Həsən oğlu
Oğlu – Müseyib
Qardaşı – Ələkbər
117. Qara Hacı oğlu
Qardaşları – Dadaş, Novruz, Süleyman
118. Mehdiqulu Ceyran Ələsgər oğlu

Oğlu – Aslan
119. Mustafa Məşədi Ələsgər oğlu
Qardaşları – Məmmədqulu (oğlu – Salman), Qasım, Hüseyn
120. Məmmədbağır Məşədi Əbdül oğlu
121. Fərəc Məşədi Şəfi oğlu
Oğlu – Salman
122. Məmmədbağır Rza oğlu
Oğlanları – Həbib, Fərhad, Cümşüd
123. Kərbəlayı Nəcəf Hüseyn oğlu
Oğlanları – Əhməd, Abdin, Həmzə
124. Hüseynəli Allahverdi oğlu
Oğlanları – Yusif, Həşim
Qardaşları – Tağı, Nağı, Əliqulu, Mikayıl (oğlanları – Yusif, Həşim)
125. İsmayıl Fətəli oğlu
Oğlanları – Əli, Əbil, Cəlil
Qardaşı – (Ələsgərin) oğlu – Firidun
126. Məmməd Məşədi İsmayıl oğlu
Oğlu – İbiş
Qardaşları – Əbdürrəhim, Mahmud
127. Həsənəli Məşədi Məmmədəli oğlu
Oğlanları – Məmmədəli, Həbib, Abbasqulu
128. Kəlbəli Məşədi Məmmədəli oğlu
Oğlanları – Mahmud, Teymur, Əmir, Cavad
129. Cabbar Məşədi Məmmədəli oğlu
130. Şükür Feyzulla oğlu
Oğlanları – Ağa, Aslan, Əli
Qardaşı – (Məmmədtağının) oğlu – Yusif
Qardaşı – Məşədi Əsəd
Oğlanları – Kostan, Muxtar
131. Məşədi Ələkbər Mirzə Haqverdi oğlu
Oğlanları – Yusif, Hüseyn
Qardaşları – Ələsgər, Səməd
132. Mustafa Kərbəlayı Həsən oğlu
Qardaşları – Muxtar, Şirin



133. Əli Məmmədtağı oğlu
Qardaşları – Hüseyn (oğlanları – Nəsir, Süleyman), Zeynal
134. Qulu Məşədi İbrahim oğlu
Qardaşları – Rüstəm, Zeynalabdin, Qəhrəman
135. Əbdüləli Allahverdi oğlu
Qardaşları – Məmmədbağır, Əbdülhəmid
136. Rzaqulu Paşa oğlu
Qardaşı – Dadaş
137. Əkbər Nurməmməd oğlu
Oğlanları – Fərəc, Şükür, Allahverən, Səlim, Kərim
138. Muxtar Abbas oğlu
Qardaşı – Əhməd
139. Məşədi Həsən Kərbəlayı Hacı oğlu
Oğlanları – Məmməd, Hüseyn

## TƏBRİZLİ MƏHƏLLƏSİ ƏHALİSİNİN ŞƏCƏRƏLƏRİ

### İmanbəyovlar (Müqümovlar)

Təbrizli məhəlləsinin ünlü sakinlərinin içində İmanbəyov soyadlı bir ailə yaşayırdı. İmanbəyov soyunun bəzi nümayəndələri sonradan Müqümov soyadını qəbul etmişdilər.

Bu soy-sopun ulu babası Müqim ağadır. Müqim ağa XVIII yüzildə Şuşa şəhərində yaşamışdı. Mədrəsə təhsili almışdı. Məhəllələrinin dini işləri ilə ilgilənmişdi.

Molla Müqim ağanın İman ağa, Qurban ağa adlı oğlanları vardı.

İman ağa 1772-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra Təbriz şəhərində oxumuşdu. Tibb elmini gözəl bilirdi. Şuşa şəhərində dini işlərlə ilgilənirdi. Molla ünvanı daşıyırdı. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Molla İman ağa Mələknisə xanımla ailə qurmuşdu. Məhəmməd ağa, Xudaverdi ağa, Həsən ağa, Hüseyn ağa, Müqim bəy, Əmiraslan bəy, İbrahim bəy adlı oğlanları, Mehri xanım, Bədir xanım, Bacıxanım xanım, Bahar xanım və Gövhər xanım adlı qızları vardı.

Məhəmməd ağa 1792-ci ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini atasından almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-müşərrəfi ziyarət etmişdi.

Hacı Məhəmməd ağa 1844-cü ildə ailəsi ilə birlikdə Təbriz şəhərinə köçdü.

Hacı Məhəmməd ağa Mehri xanımla yaşam qurmuşdu. Qulu ağa adlı oğlu, Əzət xanım, Mələk xanım və Tükəz xanım adlı qızları vardı.

Məşədi Molla İman ağanın ikinci oğlu Xudaverdi ağa 1802-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. İbtidai təhsilini atasından almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi - müqəddəsi ziyarət etmişdi.



Məşədi Xudaverdi ağa 1844-cü ildə ailəsi ilə birlikdə Təbriz şəhərinə köçdü.

Məşədi Xudaverdi ağa Fatma xanımla həyat qurmuşdu. Zeynalabdin ağa adlı oğlu, Gövhər xanım adlı qızı vardı.

Məşədi Molla İman ağanın üçüncü oğlu Həsən ağa 1808-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı. İbtidai təhsilini atasından almışdı. Xırda ticarətlə məşğul idi.

Həsən ağa 1844-cü ildə ailəsi ilə birlikdə Təbriz şəhərinə köçdü.

Həsən ağa Əziz xanımla ailə qurmuşdu. Həşim ağa adlı oğlu vardı.

Məşədi Molla İman ağanın dördüncü oğlu Hüseyn ağa 1817-ci ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi. İbtidai təhsilini atasından almışdı. Xırda ticarətlə məşğul idi.

Hüseyn ağa 1844-cü ildə böyük qardaşları ilə birgə Təbriz şəhərinə köçdü.

Məşədi Molla İman ağanın beşinci oğlu Müqim bəy 1819-cu ildə Şuşa şəhərində dünyanı tanımışdı. İbtidai təhsilini atasından almışdı. Sonra Təbriz şəhərinə yollanmış, təhsilini davam etdirmişdi. Müqim bəy Təbrizdə ali tibbi təhsil almışdı. Mehdiqulu xanın şəxsi həkimlərindən biri idi. Bəyliyi də sonuncu Qarabağ xanından almışdı. Savadlı olduğundan dolayı mirzə ünvanı daşıyırdı. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Mirzə Müqim bəy Qasım bəy Zakirlə dost idi. Qasım bəy onun hikmətlərini və həkimliyini yüksək dəyərləndirirdi. Şeirlərinin birində Hacı Böyük bəy Nuru bəy oğlunu tənqid edərkən ondan misal çəkir:

**Bir deyən yoxdu Murada, ürəyim oldu dü nim,**
**Ey səfihü əzəlü əhməqü mərdudü ləim,**
**Ruhra, söhbəti nacins əzab əst əlim,**
**Sən de həmsirrinə, qurbanın olum, Mirzə Müqim,**
**«Bu tənakühdən a biçarə, sana varmı səmər?».**

Qasım bəy bəzən Hacı Mirzə Müqim bəyin nüsxələrinə ağız büzür, yersiz əməl adlandırırdı. Şair nəvəsi İbrahim bəy Azərə yazırdı:

**Dəstinə alma Müqimin məhz biyca nüsxəsin,**
**Əkbər oğlu Hacının bihudə əşya nüsxəsin;**
**Özlərin dana sanır, bilməz müdava nüsxəsin,**
**Görmüşəm mən küllühüm haziq ətibba nüsxəsin,**
**Eyləmişlər təcrübə, məqruni-sihhətdir dügi.**

Qasım bəy başqa bir şeirində, Mehdiqulu xan Sarıcalı-Cavanşirə yazdığı məktubda Şuşa həkimlərindən kənar olmasını xahiş edirdi. Bildirirdi ki, onlar kimin üstünə gedirlərsə, tez o dünyaya təşrif aparır. Zakir Mehdiqulu xana yazırdı:

**Bağır oğlu Məmməd, Məşədi Hacı,**
**Əliqulu, Müqim sərimin tacı.**
**Hər mərizə eyləsələr əlacı,**
**Ehtiyatın görün, tez olur məmat.**

Hacı Mirzə Müqim bəy 1872-ci il mayın 15-də Şuşa bəy komissiyasına ərizə ilə müraciət etmişdi. Həmin ilin dekabrın 18-də komissiya onun işinə baxmışdı. 364 nömrəli qərarla onun və qardaşlarının bəyliyi təsdiq edilmiş, müraciət edənlər İmanbəyov familiyasını almışdılar[1].

Hacı Mirzə Müqim bəy Zəhra xanımla evlənmişdi. Ağalar bəy, Məmmədhüseyn bəy, Şükür bəy adlı oğlanları, Ayna xanım və Püstə xanım adlı qızları vardı.

Ağalar bəy 1853-cü ildə Şuşa şəhərində dünyaya boy göstərmişdi. İbtidai təhsilini atasından almışdı.

Hacı Mirzə Müqim bəyin ikinci oğlu Məmmədhüseyn bəy 1856-cı ildə Şuşa şəhərində dünyaya təşrif gətirmişdi.

Hacı Mirzə Müqim bəyin üçüncü oğlu Şükür bəy 1859-cu ildə Şuşa şəhərində dünyaya təşrif buyurmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Vəkillik və həkimlik peşələri ilə məşğul olurdu. Savadlı olduğundan dolayı mirzə ünvanı daşıyırdı.

Mirzə Şükür bəyin Kübra xanım, Suqra xanım, Suraya xanım, Sitarə xanım adlı qızları vardı.

Kübra xanım Şuşa şəhərində doğulmuşdu.

[1] MDTA, fond 69, siyahı 1, səh. 401-406.





*Mirzə Şükür bəy Müqümov qızları ilə*

Kübra xanım Seyid Mir Musa ağa Mir Fəttah ağa oğlu ilə yaşam qurmuşdu. Ağa adlı oğlu, Rəfiqə xanım, Mərqufə xanım, Şərqiyə xanım, Rəqibə xanım adlı qızları var.

Məşədi Molla İman ağanın beşinci oğlu Əmiraslan bəy 1822-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı Əmiraslan bəy Xanım xanımla dünya evinə girmişdi. Məmmədəli bəy, Süleyman bəy, Cəfər bəy, Adışirin bəy adlı oğlanları vardı.

Məmmədəli bəy 1852-ci ildə Şuşa şəhərində doğulmuşdu.

Hacı Əmiraslan bəyin ikinci oğlu Süleyman bəy 1858-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. İbtidai təhsilini molla yanında almışdı. Ticarətlə məşğul idi.

Süleyman bəy Sayalı xanım Hacı İbrahim qızı ilə ailə qurmuşdu.

Hacı Əmiraslan bəyin üçüncü oğlu Cəfər bəy 1862-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı. İbtidai təhsilini molla yanında almışdı. Ticarətlə məşğul idi.

Hacı Əmiraslan bəyin dördüncü oğlu Adışirin bəy 1866-cı ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi. İbtidai təhsilini molla yanında almışdı. Ticarətlə məşğul idi.

Məşədi Molla İman ağanın beşinci oğlu İbrahim bəy 1828-ci ildə Şuşa şəhərində dünyanı tanımışdı. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-müşərrəfi ziyarət etmişdi.

Hacı İbrahim bəy Gülxanım xanımla ailə qurmuşdu. Mahmud bəy, Rza bəy, Lətif bəy, Muxtar bəy, Zülfüqar bəy, Məmmədcəfər bəy, Əbdürrəhim bəy adlı oğlanları vardı.


*Mahmud bəy Müqimov*

Mahmud bəy 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Ticarətlə məşğul idi. II gildiya tacir ünvanı almışdı. Mahmud bəy Müqimov xeyriyyəçi idi. Şuşa şəhərində və Ağcabədidə kasıb insanlara əl tutur, yardım paylayır, ac doyuzdururdu.

Mahmud bəy Xanım xanım Allahverdi qızıyla ailə qurmuşdu. Əhməd bəy, Məhəmməd bəy, Əhəd bəy adlı oğlanları, Aftab xanım, Teyhu xanım, Zəhra xanım adlı qızları vardı.

Əhməd bəy Şuşa şəhərində doğulmuşdu.

Əhməd bəy Səltənət xanım Səfiyeva ilə həyat qurmuşdu. Oqtay bəy, Arif bəy, Aydın bəy adlı oğlanları, Elmira xanım adlı qızı vardı.

Oqtay bəy Şuşa şəhərində dünyaya gəlmişdi. Orta məktəbi bitirəndən sonra ATİ-yə (Hazırkı ATU-ya) qəbul olunmuşdu. İnstitutu tamamlayandan sonra həkim işləmişdi.

Oqtay bəy Sona xanımla ailə qurmuşdu. Əhməd bəy adlı oğlu var.



Əhməd bəyin ikinci oğlu Arif bəy Bakı şəhərində anadan olmuşdu. Orta məktəbi bitirəndən sonra ali təhsil almışdı. Mühəndis işləyirdi.

Arif bəy Züleyxa xanımla ailə qurmuşdu. İki qızı var.

Əhməd bəyin üçüncü oğlu Aydın bəy Bakı şəhərində doğulmuşdu. Orta məktəbi bitirəndən sonra ali təhsil almışdı. Mühəndis işləyirdi.

Aydın bəy Elmina xanımla ailə qurub. Bir oğlu, bir qızı var.

Əhməd bəyin qızı Elmira xanım Bakı şəhərində dünyaya gəlib. Orta məktəbi bitirəndən sonra ali təhsil alıb. Mühəndis işləyir.

Elmira xanım Abbasla ailə qurub. Bir qızı var.

Mahmud bəyin ikinci oğlu Məhəmməd bəy Şuşa şəhərində anadan olmuşdu. ADU-nu (BDU-nu) bitirmişdi.

Məhəmməd bəy ailə qurmayıb, cavan rəhmətə gedib.

Mahmud bəyin üçüncü oğlu Əhəd bəy Şuşa şəhərində anadan olmuşdu. Orta məktəbi bitirəndən sonra ali təhsil almışdı. Kimyaçı idi. Uzun illər ANKİ-də müəllim kimi çalışmışdı.


*Əhəd bəy əmisi Rza bəylə*

Əhəd bəy Rəfiqə xanımla ailə qurmuşdu. Rauf bəy adlı oğlu, Gülşən xanım adlı qızı var.

Rauf bəy 1949-cu ildə Bakı şəhərində doğulub. Orta məktəbi bitirəndən sonra ali məktəbə daxil olub. İnstitutu tamamlayandan sonra mühəndis-menecer vəzifəsində çalışır.

Rauf bəy Natella xanımla ailə qurub. Bir oğlu, bir qızı var.

Əhəd bəyin qızı Gülşən xanım Bakı şəhərində dünyaya gəlib.

Gülşən xanım Bəhruz bəy Zülfüqar bəy oğlu

Səfərəliyevlə ailə qurub. Şəhla xanım adlı qızı var.

Mahmud bəyin qızı Aftab xanım Şuşa şəhərində anadan olmuşdu.

Aftab xanım öncə Məhəmmədlə ailə qurmuşdu. Bu nikahdan Həsən adlı oğlu, Sədaqət adlı qızı olub. Sonra Mahmudla yaşam qurmuşdu. Bu izdivacdan Tariyel, Yaşar adlı oğlanları, Adilə adlı qızı olub.

Tariyel ailə qurub, iki övladı olub.

Yaşarın Arzu, Aydın, Gültəkin adlı övladları var.

Adilə Tofiqlə ailə qurub, Cəlal, Aftab adlı övladları var.

Mahmud bəyin ikinci qızı Teyhu xanım Şuşa şəhərində doğulmuşdu.

Teyhu xanım Qəhrəman bəylə ailə qurmuşdu. Asim bəy, Əkbər bəy, Cabir bəy adlı oğlanları, Kamilə xanım adlı qızı var.



*Rauf Müqümov yaxınları ilə*

Asim II Dünya müharibəsinə getmiş, "qara kağız"ı gəlmişdi.

Əkbər Ağcəbədidə yaşayır, Mələmlə evlənib, üç uşağı var.

Cabir bəy Məhbubə ilə evlənib, üç uşağı (Cahangir, Asif, Teyhu) var.





*Rauf Müqümov ailəsi ilə*

Kamilə Vaqiflə ailə qurub, dörd uşağı – Namiq, Təranə, Gülnarə, Elmin – var.

Mahmud bəyin üçüncü qızı Zəhra xanım Şuşa şəhərində dünyaya gəlmişdi.

Zəhra xanım Cəlalla ailə qurmuşdu. Tofiq, Rafiq adlı oğlanları, Pakizə, Validə, Tamilla, Müzəyyəm, Maya, Rəna adlı qızları var.

Tofiq Adilə ilə ailə qurub, iki uşağı – Cəlal, Aftab – var.

Rafiq mühəndisdir. Tamella ilə ailə qurub, iki uşağı – İsmayıl, Gülnarə – var.

Pakizə xanım Ərəstunla ailə qurub, dörd uşağı – Rövşanə, Eldar, Azər, Aybəniz – var.

Validə xanım Cahangirlə ailə qurub, iki uşağı – Xəyal, Sevinc – var.

Tamilla xanım Kərimlə ailə qurub, dörd uşağı – İradə, Fəridə, Səbirə, Teymur – var.

Müzəyyəm Sahiblə ailə qurub, üç uşağı – Rahim, Yeganə, Elçin – var.

Maya xanım Hamletlə ailə qurub, üç uşağı – Gilə, Jalə, Süleyman – var.

Rəna xanım Fazillə ailə qurub, iki uşağı – Aytəkin, Aynur – var.

Hacı İbrahim bəyin ikinci oğlu Rza bəy 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. II gildiya tacir rütbəsi daşıyırdı. Xeyriyyəçiliklə məşğul olurdu.



*Müqümovlar*



Rza bəyin İskəndər bəy adlı oğlu, Şövkət xanım adlı qızı vardı.

İskəndər bəy Şuşa şəhərində doğulmuşdu.

İskəndər bəy subay vəfat edib.

Rza bəyin qızı Şövkət xanım Şuşa şəhərində dünyaya gəlmişdi.

Şövkət xanım Şəmillə ailə qurmuşdu. Ramiz, Arif adlı oğlanları, Firuzə adlı qızı var.

Hacı İbrahim bəyin üçüncü oğlu Lətif bəy 1868-ci ildə Şuşa şəhərində anadan olmuşdu.



*Rza bəy Müqümov*



*Rza bəy və Əhməd bəy*

Lətif bəyin İbrahim bəy adlı oğlu vardı.

İbrahim bəy Şuşa şəhərində doğulmuşdu.

İbrahim bəyin Mahmud bəy, Lətif bəy, Muxtar bəy adlı oğlanları, Həyat xanım adlı qızı var.

Hacı İbrahim bəyin dördüncü oğlu Muxtar bəy 1870-ci ildə Şuşa şəhərində anadan olmuşdu.

Muxtar bəy yeniyetmə yaşında vəfat edib.

Hacı İbrahim bəyin beşinci oğlu Zülfüqar bəy 1872-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Məktəb təhsili almışdı. Təxminən 20 yaşında evdən xəbərsiz çıxaraq Türkiyəyə getmişdi. Sonrakı taleyindən bilgimiz yoxdur.

Hacı İbrahim bəyin altıncı oğlu Məmmədcəfər bəy Şuşa şəhərində doğulmuşdu.

Məmmədcəfər subay vəfat edib.

Hacı İbrahim bəyin yeddinci oğlu Əbdürrəhim bəy Şuşa şəhərində dünyaya gəlmişdi.

Əbdürrəhim bəyin Hidayət bəy adlı oğlu vardı.

***

Molla Müqim ağanın ikinci oğlu Qurban ağa 1792-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Savadlı olduğundan dolayı mirzə ünvanı daşıyırdı.

Mirzə Qurban ağa Xeyrənsə xanımla ailə qurmuşdu. Abbas ağa, Əbdürrəhim ağa adlı oğlanları, Xədicə xanım, Ruqiyə xanım və Fatma xanım adlı qızları vardı.

Abbas ağa 1828-ci ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini əmisindən almışdı. Sonra mədrəsədə oxumuşdu. Savadlı olduğundan dolayı mirzə ünvanı daşıyırdı.

Mirzə Abbas ağanın Əbdül ağa, Ağacan ağa adlı oğlanları vardı.

Mirzə Qurban ağanın ikinci oğlu Əbdürrəhim ağa 1832-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. İbtidai təhsilini əmisindən almışdı. Mədrəsədə oxumuşdu. Savadlı olduğundan dolayı mirzə ünvanı daşıyırdı.

Məşədi Molla İman ağanın böyük qızı Mehri xanım Şuşa şəhərində anadan olmuşdu.

Məşədi Molla İman ağanın ikinci qızı Bədir xanım Şuşa şəhərində doğulmuşdu.



Məşədi Molla İman ağanın üçüncü qızı Bacıxanım xanım Şuşa şəhərində dünyaya zinət vermişdi. Ailə təlim-tərbiyəsi almışdı.

Bacıxanım xanım Məhəmmədhüseyn ağa Məhəmmədqulu xan oğlu Qaradaği ilə ailə qurmuşdu. Balaxanım xanım adlı qızı vardı.

Balaxanım xanım 1852-ci il iyul ayının 6-da Şuşa şəhərində dünyaya gəlib. Maraqlıdır ki, bu təvəllüdü təsdiqləmək üçün komissiya yaranmışdı. Komissiyaya Şuşa qəza qazısı Axund Molla Hüseyn Hacı Oruczadə başçılıq edirdi. Katib Mirzə İsmayıl Məşədi Qasım oğlu (şair Məhzun - Ə.Ç.), üzvlər isə şəhərin ünlülərindən olan Molla Abbasqulu, Molla Nuru, İbrahim Sadıq oğlu, Kərbəlayı Səfər bəy Nəcəfqulu bəy oğlu, Seyid Hüseyn Məşədi Seyid Həsən oğlu, Hacı Tağı Məmmədqulu oğlu, Məşədi Məmmədtağı Mirzə oğlu, Kərbəlayı İbrahim Məşədi Allahverdi oğlu, Hacı Abdulla Kərbəlayı Namaz oğlu, Məşədi Dadaş Kərbəlayı Abbas oğlu, Kərbəlayı Salman Kərbəlayı Abbas oğlu və Məşədi Teymur Kərbəlayı Sadıq oğlu idilər. Onlar şəhadət verib, tanıqlıq etmişdilər ki, Balaxanım xanım Məhəmmədhüseyn ağa qızı Xanqaradağski, həqiqətən, 1852-ci ildə Şuşa şəhərində doğulub.

Balaxanım xanım uşaqkən sarsıntı keçirmişdi. Başında pozğunluq vardı. Əmisi oğlu Həsənəli ağa ilə yaşam qurandan sonra xəstəliyi şiddətləndi. Ərindən boşanmalı oldu. Atasından ona xeyli mal-mülk qalmışdı. Dayısı oğlu Mirzə Şükür bəy Hacı Mirzə Müqim bəy oğlu və vəkili Mirzə Rəhim Mirzəyevin vasitəsilə təsərrüfatını idarə edirdi.

Məşədi Molla İman ağanın dördüncü qızı Bahar xanım 1844-cü ildə Şuşa şəhərində dünyaya göz açmışdı.

Məşədi Molla İman ağanın beşinci qızı Gövhər xanım 1848-ci ildə Şuşa şəhərində dünyanı tanımışdı.

## Müqümovlar soyu





















## Abdinbəyovlar

Təbrizli məhəlləsinin ünlü sakinlərindən biri də Zeynalabdin bəy idi. Zeynalabdin bəy XVIII yüzilin sonunda, XIX yüzilin önlərində yaşamışdı.

Zeynalabdin bəyin törəməsi Abdinbəyov soyadını daşıyırdı.

Zeynalabdin bəy Hacı Hüseynəli bəy Kəbirlinin qızı Zeynəb xanımla ailə qurmuşdu. Əhməd bəy, Qasım bəy adlı oğlanları, Tutu xanım adlı qızları vardı.

Əhməd bəy 1821-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Mülkədar idi, ana babasından qalma Mirzalıbəyli obasının və Bərdə kəndinin bir hissələrini idarə edirdi.

Əhməd bəyin Şuşa şəhərində xeyli dükanı vardı. Birini də qohumu Həsənəli bəy kavaler Əli bəy oğlundan almışdı.

Əhməd bəy Tubu bəyim Cavanşirlə yaşam qurmuşdu. Zeynalabdin bəy, Muxtar bəy, Məmməd bəy adlı oğlanları vardı.

Zeynalabdin bəy 1846-cı ildə Şuşa şəhərində doğulmuşdu.

Əhməd bəyin ikinci oğlu Muxtar bəy 1855-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi.

Əhməd bəyin üçüncü oğlu Məmməd bəy 1862-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı.

Zeynalabdin bəyin ikinci oğlu Qasım bəy 1828-ci ildə Şuşa şəhərində dünyanı tanımışdı.



## Ağabəyovlar

Bu soyun ulu babası Baba ağadır. Baba ağa XVIII yüzilin ikinci yarısında Şuşa şəhərində yaşamışdı. Müqəddəs Məkkəyi-müşərrəfi ziyarət etmişdi.

Hacı Baba ağanın Əlihüseyn ağa adlı oğlu vardı.

Əlihüseyn ağa Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. İbrahimxəlil xan Sarıcalı-Cavanşirə xidmət etmişdi.

Əlihüseyn ağanın Ağa bəy adlı oğlu vardı.

Ağa bəy 1778-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. İbrahimxəlil xana, sonra isə Mehdiqulu xana qulluq etmişdi.

Ağa bəyin törəmələri Ağabəyov, Ağayev soyadını daşıyırlar.

Ağa bəy Şahzeynəb xanımla ailə qurmuşdu. Baba bəy, Şəfi bəy, Ağadədə bəy, Rəsul bəy, Qulu bəy, Qasım bəy adlı oğlanları, Gövhər xanım, Səkinə xanım, Xanım xanım və Sona xanım adlı qızları vardı.

Baba bəy 1809-cu ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu.

Baba bəy Bacıxanım xanım və Şahxanım xanımla evlənmişdi. Əsəd bəy, Ağa bəy adlı oğlanları, Ruqiyyə xanım və Bədir xanım adlı qızları vardı.

Əsəd bəy 1839-cu ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Molla yanında təhsil almışdı.

Əsəd bəy yeniyetmə yaşında tələf olmuşdu.

Baba bəyin ikinci oğlu Ağa bəy 1867-ci ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi. Şuşa realnı məktəbində oxumuşdu.

Ağa bəy 1929-cu ildə vəfat edib.

Ağa bəy Soltan xanımla ailə qurmuşdu. Əyyub bəy adlı oğlu vardı.

Əyyub bəy 1890-cı ildə Şuşa şəhərində dünyaya boy göstərmişdi. Orta məktəbi bitirəndən sonra ali təhsil almışdı. Yüksək vəzifələrdə çalışmışdı. Laçın rayonunda hərbi komissar, Bakı şəhər milisinin rəisi vəzifələrində işləmişdi.

Əyyub bəyin polkovnik rütbəsi vardı.

***

Ağa bəyin ikinci oğlu Şəfi bəy 1811-ci ildə dünyam tanımışdı.

Şəfi bəy cavan vəfat etmişdi.

***

Ağa bəyin üçüncü oğlu Ağadədə bəy 1819-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Ağadədə bəy Anaxanım xanımla dünya evinə girmişdi. Abdulla bəy, Mustafa bəy, Murtuza bəy, İskəndər bəy adlı oğlanları, Qönçə xanım adlı qızı vardı.

Abdulla bəy 1839-cu ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu.

Abdulla bəy subay vəfat edib.

Ağadədə bəyin ikinci oğlu Mustafa bəy 1841-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Mustafa bəy Baba bəyin qızı Bədir xanımla evlənmişdi. Məhəmməd bəy, Rüstəm bəy, Həsən bəy, Cəlil bəy adlı oğlanları vardı.



Məhəmməd bəy 1873-cü ildə Şuşa şəhərində doğulmuşdu. Şuşa realnı məktəbini bitirmişdi. Öncə papaqçılıqla, sonra ticarətlə məşğul olmuşdu. Aşqabad, Məşhəd şəhərlərindən Şuşaya mal gətirirdi.

Məhəmməd bəy 1916-cı ildə Aşqabadda vəba xəstəliyindən vəfat edib.



Məhəmməd bəy Əbdül Hacı Rza oğlu Hacıməmmədlinin qızı Humay xanımla ailə qurmuşdu. Böyük bəy, Bala bəy, Xosrov bəy adlı oğlanları, Nəzirə xanım adlı qızı var.



Böyük bəy 1907-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Orta təhsilini Mirzə Xosrovun məktəbində bitirib, 1921-ci ildə Şuşa seminariyasına qəbul olmuşdu. Seminariyanı tamamlayandan sonra Şamaxı rayonunda müəllim kimi işə başlamışdı. Sonra maarif şöbəsində təlimatçı vəzifəsinə dəyişilmişdi.

Böyük bəy 1929-cu ildə Şamaxıdakı vəzifəsindən azad edilərək Qutqaşen (Qəbələ) rayon Maarif Şöbəsinə müdir təyin olundu. Öz vəzifəsinin öhdəsindən layiqincə gəldiyi və tapşırılan bütün işlərə vicdanla yanaşdağı üçün onun hökumət orqanları və əhali arasında böyük hörmət və nüfuzu var idi. 1932-1934-cü illərdə burda işləyən Böyük bəyi Qutqaşendən (Qəbələdən) Bakı şəhərinə daha məsul işə dəvət etdilər. Bakıda tibb institutunda Azərbaycan dilindən dərs deməyə başladı. O zaman ali təhsili olmayan bir şəxsə belə çox vacib bir işin tapşırılması onun yüksək erudisiyasından və bacarığından irəli gəlirdi.

Böyük bəy tibb institutunda dərs keçməklə yanaşı, burda oxumağa başlayır və 1941-ci ildə bu ali məktəbi bitirərək həkimlik diplomu alır. Həmin dövrdə müharibənin başlanması ilə əlaqədar o, hərbi qulluğa çağırılır və həkim və səhiyyə işçisi kimi İrana göndərilir.

1942-ci ildə həmin hərbi hissə İrandan geri çağırılır və Böyük bəy də Bakı şəhərinə qayıdır. O zaman Azərbaycanda malyariya xəstəliyi geniş yayılmışdı və əhaliyə çox əziyyət verirdi. Xüsusən, Kürdəmir rayonunda ağır vəziyyət yaranmışdı. Böyük bəyin böyük təşkilatçılıq qabiliyyətini və bacarığını nəzərə alaraq onu Kürdəmir rayonlararası malyariyaya qarşı mübarizə stansiyasının müdiri təyin etdilər. Yeni vəzifədə o, gecəsini

gündüzünə qataraq rayonda və ətraf bölgələrdə içməli suların dərmanlanıb təmizlənməsi və əhalinin sağlamlığının qorunması üçün bütün lazımi işləri görməyə çalışırdı. Gördüyü işlər rayon əhalisi tərəfindən yaxşı qarşılanır, Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı tərəfindən yüksək qiymətləndirilirdi.

1950-ci ildə Böyük bəyi Azərbaycan SSR Xalq Nəzarəti Komissarlığında səhiyyə işləri üzrə şöbənin müdiri vəzifəsinə təyin etdilər. Müharibə təzə qurtardığından ölkədə bir çox sahələrdə olduğu kimi səhiyyədə də çoxlu problemlər yığılıb qalmışdı. Burda da öz ənənəsinə sadiq qalaraq yenə biliyi, bacarığı və çalışqanlığı ilə diqqəti cəlb elədi. Nəticə isə çox da gözləməyə məcbur etmədi. 1956-ci ildə o, Azərbaycanın səhiyyə nazirinin müavini vəzifəsinə təyin olundu. O zaman səhiyyə obyektlərinin tikilməsinə, maddi-texniki bazanın genişləndirilməsinə böyük ehtiyac var idi. Böyük bəyin səyi nəticəsində bu illərdə bir çox xəstəxana, poliklinika binaları, digər səhiyyə obyektləri, o cümlədən, Kəlbəcər rayonunda İstusu sanatoriya binası tikildi.

1958-ci ildə Böyük bəyə daha böyük etimad göstərildi və o, Azərbaycan SSR Səhiyyə Naziri vəzifəsinə təyin olundu. Onun bu vəzifədə işlədiyi illərdə səhiyyə sahəsində böyük islahatlar aparılmış, tədrisin səviyyəsinin yüksəldilməsinə, bacarıqlı kadrların hazırlanmasına, yeni səhiyyə obyektlərinin tikintisinə xüsusi diqqət yetirilmiş, xüsusən, sağlamlıq və istirahət zonalarının salınmasına, sanitar-gigiyena mərkəzlərinin, xəstəxanaların, tibb məntəqələrinin açılmasına, ucqar rayonlardakı təcili tibbi yardım məntəqələrinin nəqliyyat vasitələri ilə təmin olunmasına xüsusi fikir verilmişdir. Bakı 1 nömrəli xəstəxanasının binası da onun dövründə tikilmişdir.



Böyük bəy SSRİ-nin səhiyyə sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsinin böyük tərəfdarı olmuşdur.



1960-ci illərin əvvəllərində o, Mali Respublikasına getmiş SSRİ nümayəndə heyətinə başçılıq etmişdir.

Nazir vəzifəsində işlədiyi dövrdə səhiyyə sahəsində qazandığı böyük nailiyyətlərə görə müxtəlif mükafatlara, o cümlədən, Lenin ordeninə layiq görülmüşdür.

Böyük bəy səhiyyə naziri vəzifəsində işləyərkən səhhətinin pisləşməsi ilə əlaqədar bir müddət müalicə olunmuş, sonra yenidən məsul vəzifəyə - Respublika Həkimləri Təkmilləşdirmə İnstitutuna direktor təyin olunmuşdur.

Böyük bəy tibb elmləri namizədi idi.

Böyük bəy bir çox çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdi.

Böyük bəy SSRİ-nin və Azərbaycan respublikasının bir çox orden və medalları ilə təltif olunmuşdu.

Böyük bəy 1965-ci ildə vəfat edib.

Böyük bəy Minurə xanım Sirac qızı Əfəndiyeva ilə yaşam qurmuşdu. Azər bəy adlı oğlu var.

Azər bəy 1937-ci ildə Bakı şəhərində dünyaya göz açıb. Orta məktəbi bitirəndən sonra AZNKİ-yə qəbul olub. İnstitutu tamamlayandan sonra səhiyyə nazirliyinin təcili yardım bazasının rəisi vəzifəsində çalışır.



Azər bəy Rəna xanım Yusif qızı Axundova ilə həyat qurub. Aysel xanım adlı qızı var.

Məhəmməd bəyin ikinci oğlu Bala bəy 1910-cu ildə Şuşa şəhərində dünyanı tanımışdı. Orta təhsilini bitirib, Şuşa seminariyasına qəbul olunmuşdu. Bir müddət Ağdam, Ağcabədi və Yevlax rayonlarında müəllim işləyəndən sonra Gəncə Kənd Təsərrüfatı İnstitutuna girmişdi. 1935-ci ildə institutu tamamlayıb çalışmağa başladı. 1935-ci ildən 1937-ci ilədək NKZ-də kimyəvi stansiyada işlədi. 1937-ci ildən 1941-ci ilədək SSRİ EA

Azərbaycan filalının aspiranturasında təhsilini davam etdirdi. Aspiranturanı tamamlayıb, EA-da böyük elmi işçi işlədi. 1942-ci ildən 1944-cü ilədək AZNİXİ NKZ-də direktor vəzifəsində çalışdı. 1944-cü ildən 1953-cü ilədək Gəncə (Kirovabad) Kənd Təsərrüfatı İnstitutunda rektor vəzifəsində işlədi. Eyni zamanda doğma təhsil ocağında müəllim, dosent, professor kimi çalışdı. Kafedra müdirindən rektorluğa qədər vəzifələr icra etdi. 1953-cü ildən 1960-cı ilədək Torpaqşünaslıq və Aqrokimya İnstitutunda labarotoriya müdiri, direktor müavini və direktor vəzifələrində işlədi. 1960-cı ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında baş elmi katib vəzifəsində çalışdı. 1961-ci ildə bu akademiya ləğv olunandan sonra Torpaqşünaslıq və Aqrokimya İnstitutuna qayıtdı. İnstitutun torpaq fizikası labarotoriyasına rəhbərlik etdi. 1962-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalı və hazırlığı üzrə nazir müavini vəzifəsinə irəli çəkildi. Eyni zamanda da Azərbaycan KP MK-nin büro üzvi və Baş Elmi İdarənin rəhbəri oldu.

Bala bəy 1970-ci ildən AZNİİQ-də şöbə müdiri vəzifəsində işləmişdir.

Bala bəy elmlər doktoru idi.

Bala bəy bir neçə çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdi.

Bala bəy SSRİ-nin və Azərbaycan respublikasının orden, medalları ilə ödüllənmişdi. O cümlədən, Lenin ordeni almışdı.

Bala bəy 1990-cı ildə vəfat edib.

Bala bəy Faina Aleksandrovna ilə dünya evinə girmişdi. Urfan bəy, Tamerlan bəy, Tərlan bəy adlı oğlanları var.

Urfan bəy 1939-cu ildə Gəncə şəhərində dünyaya pənah gətirib. Orta məktəbi bitirəndən sonra S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olub. İnstitutu tamamlayandan sonra müxtəlif yerlərdə çalışıb. Hazırda ABŞ-da yaşayır.

Urfan bəy elmlər namizədidir.

Urfan bəy Ala xanımla ailə qurub. Nailə xanım adlı qızları var.



Nailə xanım Gəncə şəhərində anadan olub. Orta məktəbi bitirəndən sonra Xarici Dillər İnstitutuna qəbul olunub. İnstitutu tamamlayandan sonra ABŞ-da çalışıb. İşgüzarlığı nəticəsində yüksək karyera əldə edib. Hazırda ABŞ-da yaşayır və çalışır.

Nailə xanım elmlər namizədidir.

Bala bəyin ikinci oğlu Tamerlan bəy 1941-ci ildə Gəncə şəhərində doğulub. Orta məktəbi bitirəndən sonra S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təssərrüfatı İnstitutuna daxil olub. İnstitutu tamamlayandan sonra Moskvaya köçüb. Rusiyada yaşayır və çalışır.

Tamerlan bəy Lida xanımla həyat qurub.

Bala bəyin üçüncü oğlu Tərlan bəy 1945-ci ildə Gəncə şəhərində dünyaya gəlib. Orta məktəbi bitirdikdən sonra texnikuma girib. Texnikumu tamamlayandan sonra Rusiyaya köçüb. Hazırda Sankt-Peterburq civarında çalışır.

Məhəmməd bəyin üçüncü oğlu Xosrov bəy 1912-ci ildə Şuşa şəhərində dünyaya göz açıb. 1920-ci ildə Şuşada açılmış yeni tipli məktəbin 1-ci sinfinə daxil olub, lakin ailə vəziyyətinin çətiliyi ilə əlaqədar 1922-ci ildən Gəncədə yaşayan qohumlarının yanına köçüb, tahsilini burda davam etdirərək 1925-ci ildə ibtiadi təhsilini başa vurub. 1927-ci ildə Şamaxıya, o zaman burda maarif şöbəsində işləyən böyük qaraşı Böyük bəyin yanına gedir və təhsilini 2-ci dərəcəli məktəbdə davam etdirir. 1930-cu ildə yenidən Gəncəyə qaıdır və şəhərdəki inşaat texnikumuna daxil olur.

1930-cu ildə komsomola qəbul edilən, 1931-ci ildə isə Gəncə İnşaat Texnikumunun komsomol təşkilatı katibi seçilən Xosrov bəy 1932-ci ilin ortalarına qədər təhsil almaqla yanaşı, həmin vəzifədə işləyib. Texnikumda təhsilini bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutuna daxil olub, lakin ordu sıralarına səfərbər edilməklə əlaqədar burda təhsilini davam etdirə bilməyib.

Hərbi xidmətini başa vurandan sonra Gəncəyə qayıdmıb, şəhər bədən tərbiyəsi komitəsində təlimatçı vəzifəsinə qəbul olunub, qısa müddətdən sonra Gəncə şəhər İcraiyyə Komitəsinin kənd təsərrüfatı şöbəsində inşaatçı-texnik vəzifəsinə keçirilib. 1937-ci ilin önlərində Gəncə şəhər İcraiyyə Komitəsinin

nəzdindəki Bədən Tərbiyəsi Komitəsinə sədr vəzifəsinə təyin olunub. Elə həmin ilin dekabr ayında onu Gəncə şəhər İcraiyyə Komitəsinin katibi kimi məsul bir vəzifəyə irəli çəkiblər.

İstər texnikumda təhsil aldığı illərdə, istərsə də sonralar həmişə biliyi, bacarığı, işgüzarlığı, çalışqanlığı ilə fərqlənən Xosrov bəy dörd il Gəncə şəhər İcraiyyə Komitəsinin məsul katibi vəzifəsində işləyib. 1941-ci ildə ilin may ayında Gəncə şəhər Komsomol Komitəsinin birinci katibi seçilmiş, bir müddət sonra respublika Komsomolunun Mərkəzi Komitəsində şöbə müdiri vəzifəsinə irəli çəkilmişdir.

Komsomol işində özünü yaxşı cəhətlərdən göstərən Xosrov bəy Böyük Vətən müharibəsi illərində "Hər şey vətən üçün, hər şey cəbhə üçün» çağırışına qoşulanların ilk sıralarında olmuş, bütün bilik və bacarığını kəndli gənclərin cəbhəyə və kənd təsərrüfatı işlərinə səfərbər edilməsinə, onların hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə yönəltmişdir.

Xosrov bəy 1944-cü ildə partiya işinə irəli çəkilib, öncə Maştağa rayon Partiya Komitəsinin ikinci, sonra birinci katibi təyin edilib. 1947-ci ildə Sabirabad rayon partiya komitəsinin birinci katibi seçilib.



Xosrov bəy 1952-ci ildə ölkədə aparılan struktur dəyişikliyi ilə bağlı Bakı vilayət Partiya Komitəsinin kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsinə təyin olunub. 1953-cü ildə vilayət komitəsi ləğv olunandan sonra Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsinə keçirilib.

Xosrov bəy 1954-cü ildə Bərdə rayon Partiya Komitəsinin birinci katibi seçilir. 1960-cı ilədək bu rayona rəhbərlik edir.

Xosrov bəy 1961-ci ilin əvvəlindən 1962-ci ilin mart ayına qədər Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin Pambıq



İstehsalı İdarəsinin rəisi vəzifəsində işləmiş, 1962-ci ilin mart ayında isə o zaman ölkədə aparılan struktur dəyişiklikləri ilə əlaqədar yeni yaradılmış Sabirabad rayon Kənd Təsərrüfatı Ərazi İstehsalat Birliyinin rəisi təyin edilmişdi.

1963-cü ildə Xosrov bəyi Ağdam rayonuna işləməyə göndərdilər. SSRİ-nin o zamankı rəhbəri N.S.Xruşovun kolxoz və sovxozların zona birləşmələri (istehsalat idarələri) yaratmaq eksperimenti öz mənfi təzahürlərini burda da göstərmişdi. Kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində tənəzzül artmaqda idi. İdarəetmə orqanları iflic vəziyyətinə düşmüşdü. Ağdam və Ağcabədi rayonları birləşdirilmişdi. Birləşmədən sonra bu zonada ağır vəziyyət yaranmışdı. Adamlar hər hansı problemin həlli üçün Ağcabədi və Ağdam rayonları arasındakı 50 km məsafəni qət etməli olurdular.

Belə mürəkkəb bir dövrdə Xosrov bəyin Ağdam rayon İstehsalat Birliyinin Partiya Komitəsinin katibi seçilməsi ona göstərilən böyük inamdan irəli gəlmişdi.

Xosrov bəyin 1966-1971-ci illərdə Azərbaycan Dövlət Üzümçülük və Şərabçılıq Komitəsi sədrinin birinci müavini işlədiyi dövrdə onun gözəl təsərrüfatçılıq qabiliyyəti, zəngin bilik və təcrübəsi özünü daha parlaq şəkildə biruzə vermiş, böyük nailiyyətlərin əldə edilməsi üçün imkanlar yaratmışdı.



Xosrov bəy 1971-73-cü illərdə Azərbaycan Dövlət Meyvəçilik Tərəvəzçilik Komitəsində idarə rəisi işləyib və burdan da təqaüdə çıxıb. Təqaüddə olduğu müddətdə də aktiv fəaliyyətdən kənarda qalmayıb, Elmi-Tədqiqat Meliorasiya və Su Təsərrüfatı İnstitutunda işləyib.

Xosrov bəy 1946-66-cı illərdə dörd çağırış Azərbaycan SSRİ Ali Sovetinin deputatı seçilib.

Xosrov bəyin bu xidmətləri

yüksək qiymətləndirilib, 1943-cü ildə vətən qarşısındakı xidmətlərinə görə «Şərəf nişanı» ordeni ildə təltif olunub. 1965-ci ildə Lenin ordeni ilə ödüllənib. Bunlardan başqa, bir çox medallar alıb.

Xosrov bəy Şəfiqə xanım Məmməd qızı ilə ailə qurub. Şahin bəy və Rövşən bəy adlı oğlanları var.

Şahin bəy 1947-ci ildə Bakı şəhərində doğulub. 23 nömrəli orta məktəbi bitirəndən sonra ADU-ya qəbul olub. Universitetin fizika-riyaziyyat fakültəsini tamamlayandan sonra EA-da işləyib. Hazırda Nazirlər Kabinetinin yanında «Orbita Servis» şirkətinin rəisidir.

Şahin bəy Rəfiqə xanım Mirzə qızı ilə yaşam qurub. Seymur bəy adlı oğlu var.

Seymur bəy 1977-ci ildə Bakı şəhərində dünyaya göz açıb. 6 nömrəli orta məktəbi bitirəndən sonra Azərbaycan Politexnik İnstitutuna daxil olub. İnstitutu tamamlayandan sonra neft sektorunda çalışır.

Xosrov bəyin ikinci oğlu Rövşən bəy 1949-cu ildə Bakı şəhərində dünyanı tanıyıb. 23 nömrəli orta məktəbi bitirəndən sonra AZNKİ-yə qəbul olub. Hazırda sonra Prezident Aparatında işləyir.

Rövşən bəy Elmira xanım Sultan qızı ilə həyat qurub. Leyla xanım adlı qızı var.

Kərbəlayı Mustafa bəyin ikinci oğlu Rüstəm bəy 1878-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Ticarətlə məşğul olmuşdu. Pəhləvanlığı vardı.

Rüstəm bəy 1949-cu ildə vəfat edib.

Rüstəm bəy ailə qurmayıb.

Kərbəlayı Mustafa bəyin üçüncü oğlu Həsən bəy 1875-ci ildə Şuşa şəhərində dünyanı tanımışdı.





Atasını itirdiyindən əmisi Kərbəlayı İskəndər bəyin himayəsində böyümüşdü. Ticarətlə məşğul olmuşdu.

Həsən bəy Sayalı xanım Mirzə Cavad bəy qızı Qayıbova ilə ailə qurmuşdu. Cəlal bəy, Nurəddin bəy adlı oğlanları, Simuzər xanım adlı qızı vardı.







*Gənc Ağabəyovlar*

Kərbəlayı Mustafa bəyin dördüncü oğlu Cəlil bəy 1880-ci ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi. Şəhər realnı məktəbini bitirmişdi. 1905-ci ildə Aşqabada köçmüşdü. Ali məktəbdə oxumuşdu. Türkmənistan SSR Xalq Daxili İşlər Komissarlığı orqanlarında çalışmışdı. Daxili işlər nazirinin müavini vəzifəsinədək yüksəlmişdi.

Ağadədə bəyin üçüncü oğlu Murtuza bəy 1843-cü ildə Şuşa şəhərində dünyaya təşrif buyurmuşdu. Ticarətlə məşğul olurdu. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Murtuza bəyin Əli bəy, Məhərrəm bəy adlı oğlanları vardı.

Əli bəy 1876-cı ildə Şuşa şəhərində dünyaya təşrif gətirmişdi.

Kərbəlayı Murtuza bəyin ikinci oğlu Məhərrəm bəy 1878-ci ildə Şuşa şəhərində anadan olmuşdu.

Ağadədə bəyin dördüncü oğlu İskəndər bəy 1855-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı İskəndər bəyin Şükür bəy, Allahverdi bəy, Rəşid bəy adlı oğlanları, Bəyim xanım adlı qızı vardı.

Şükür bəy Şuşa şəhərində dünyaya gəlmişdi. Məktəb təhsili almışdı. İpəkçiliklə məşğul idi.

Kərbəlayı İskəndər bəyin ikinci oğlu Allahverdi bəy Şuşa şəhərində dünyaya göz açmışdı. Məktəb təhsili almışdı. Ticarətlə məşğul idi.

Kərbəlayı İskəndər bəyin üçüncü oğlu Rəşid bəy Şuşa şəhərində dünyanı tanımışdı. Orta məktəbi bitirəndən sonra ali məktəbdə oxumuşdu. Uzun müddət yol mühəndisi işləmişdi.

Kərbəlayı İskəndər bəyin dördüncü oğlu Musa bəy Şuşa şəhərində dünyaya pənah gətirmişdi. Orta məktəbi bitirəndən sonra Azərbaycan Sənaye İnstitutuna daxil olmuşdu. İnstitutu tamamlayandan sonra neft sahəsində mühəndis və digər rəhbər vəzifələrdə işləmişdi. Bir müddət təhsil naziri olmuşdu.

Musa bəy 1965-ci ildə vəfat edib.



***



Ağa bəyin dördüncü oğlu Rəsul bəy 1821-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olmuşdu.

Rəsul bəy Anaxanım xanımla həyat qurmuşdu. Süleyman bəy, Salman bəy adlı oğlanları vardı.

Süleyman bəy 1850-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Süleyman bəyin Zülfüqar bəy, Umud bəy adlı oğlanları vardı.

Zülfüqar bəy 1880-ci ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi.

Süleyman bəyin ikinci oğlu Umud bəy 1880-ci ildə Şuşa şəhərində dünyanı tanmışdı.

Rəsul bəyin ikinci oğlu Salman bəy 1852-ci ildə Şuşa şəhərində dünyaya təşrif buyurmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Salman bəyin Adil bəy adlı oğlu vardı.

Adil bəy 1878-ci ildə Şuşa şəhərində dünyaya təşrif gətirmişdi.



*Nəzirə xanım*
*Məhəmməd bəy qızı*

## Hacı Baba bəy uşağı (İbrahimbəyovlar)

Şuşa şəhərinin Təbrizli məhəlləsinin tanınmış sakinlərindən biri də Baba bəydir. Baba bəy XVIII yüzilin sonlarında Şuşa şəhərində yaşamışdı. Ibrahimxəlil xan Sarıcalı-Cavanşirə xidmət etmişdi. Müqəddəs Məkkəyi-müəəzzəmi ziyarət etmişdi.

Hacı Baba bəyin Əliməhəmməd bəy adlı oğlu vardı.

Əliməhəmməd bəy 1787-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ibrahimxəlil xanın qulluğunda durmuşdu. Müqəddəs Məkkəyi-müəəzzəmi ziyarət etmişdi.

Hacı Əliməhəmməd bəy Bəyim xanımla ailə qurmuşdu. Ibrahim bəy, Həsən bəy adlı oğlanları, Bacıxanım xanım, Anaxanım xanım və Əziz xanım adlı qızları vardı.

İbrahim bəy Hacı Əliməhəmməd bəy oğlu 1818-ci ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi.

İbrahim bəyin törəmələri **İbrahimbəyov** soyadını daşıyırdılar.

İbrahim bəy Mehri xanımla ailə qurmuşdu. Hüseyn bəy, Ağa bəy, Bağır bəy, Qulu bəy, Əli bəy, Əbdüssəməd bəy və Məhəmməd adlı oğlanları vardı.

Hüseyn bəy İbrahim bəy oğlu 1842-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hüseyn bəyin Teymur bəy, İbrahim bəy adlı oğlanları vardı.

Teymur bəy 1868-ci ildə Şuşa şəhərində doğulmuşdu.

Hüseyn bəyin ikinci oglu İbrahim bəy 1871-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

***

İbrahim bəyin ikinci oglu Ağa bəy 1844-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.



Ağa bəyin Ələkbər bəy adlı oglu vardı.

Ələkbər bəy Ağa bəy oğlu 1863-cü ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

***



*Bağır bəy İbrahimbəyov*

İbrahim bəyin üçüncü oglu Bağır bəy 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. 1865-1868-ci illərdə Şuşa qəza məktəbində təhsil almışdı. Pedaqoji fəaliyyətlə məşğul olmuşdu.

Bağır bəy İbrahimbəyov Qarabağın bir çox məktəblərində müəllim olmuşdu.

Bağır bəyin İsfəndiyar bəy, Qamboy bəy, Teymur bəy, Adışirin bəy adlı oglanları, Füruzə xanım, Qütəvvər xanım adlı qızları vardı.

İbrahimbəyov İsfəndiyar bəy Bağır bəy oğlu (1892, Şuşa-Bakı) Azərbaycanın səhiyyə təşkilatçılarından biri, respublikanın əməkdar həkimi (1942), tibb elmləri namizədi (1952). Müəllim ailəsində anadan olmuş İsfəndiyar bəy İbrahimbəyov ibtidai təhsilini Şuşada almış, Tiflis şəhər gimnaziyasında oxumuş (1904-1912), oranı fərqlənmə diplomu ilə bitirmişdir. O, 1912-ci ildə Müqəddəs Vladmir adına Kiyev universitetinin tibb fakültəsinin daxil olmuşdir. Maddi cəhətdən çətinlik çəkən gənc tələbə, yaxın dostu Əli bəy Qayıbovla birlikdə müəllimlik etmiş, həm də universitetdə əla qiymətlərlə oxumuşdur. 1914-cü ildə, üçüncü kursda ikən o, universitetin zəmanəti ilə Kiyev yaxınlığındakı "Puşey Vodiça" 7

nömrəli qospitalında ordinator işləməyə başlamışdır. 1916-cı ildə ali təhsilini başa vurmuş, 1918-ci ilədək həmin qospitalda ordinator, 1920-ci ilə qədər isə isə Cənub Dəmiryol idarəsinin 19-cu tibb sahəsinin müdiri vəzifəsində işləmişdir. Azərbaycanda Sovet Hakimiyyəti qələbə çalandan sonra İsfəndiyar bəy İbrahimbəyov Bakıya dəvət olunmuş, Mərdəkan kənd xəstəxanasına baş həkim təyin olunmuşdur, ona yeni tipli xəstəxana yaratmaq tapşırılmışdı. Təşkilatçılıq qabiliyyəti olan gənc həkimi az bir müddətdə müasir tələblərə cavab verən xəstəxana təşkil etmişdir.


*İsfəndiyar bəy İbrahimbəyov*

İsfəndiyar bəy İbrahimbəyov 1921-ci ildə Əhmədli kəndindəki Lenin adına Toxuculuq Fabrikinə baş həkim təyin olunmuş, sonralar "Azneft" birliyinin Buzovnadakı istirahət evlərinin müdiri (1925-1926), Yesentuki şəhərindəki 8 nömrəli sonatoriyanın baş həkimi, Bakıda iki böyük poliklinikanın (Montin və Andreyev adına) təşkilatçısı və müdiri olmuşdur (1926-1931), Bakı şəhər səhiyyə şöbəsinə məsul işə (1931-ci ildə) dəvət edilmişdir.

İsfəndiyar bəy İbrahimbəyov ağır xəstəlik keçirdiyinə görə 1936-cı ildə dövlət onu Qara dənizin cənub sahillərinə müalicəyə göndərmiş, müalicə müddəti dövründə əvvəlcə 220 çarpalıyıq "Çelyuskinçilər" sonralar isə "Qruzinskiy çay" istirahət evlərinin baş həkimi vəzifəsində çalışmışdır. Uzunmüddətli müalicədən somra Bakıya qayıdan İsfəndiyar bəy İbrahimbəyov Şaumyan (İndiki Xətai) rayon səhiyyə şöbəsinin müdiri, 1939-cu ildən isə M. Əzizbəyov adına şəhər doğum evinin baş həkim olmuşdur.

1940-cı ildən qanköçürmə sahəsinə işə göndərilən İsfəndiyar bəy İbrahimbəyov Azərbaycan Respublikası Qanköçürmə



Stansiyasında geniş təşkilati və elmi-praktiki işlər aparmış, bunun da nəticəsində idarə yeni binaya köçmüş və sərbəst respublika idarəsi kimi formalaşmışdır. Böyük Vətən müharibəsi illərində bu stansiya hərbi dövrün bütün tələnlərini yürinə yetirmişdir, cəbhəni qanla təmin etmişdir. Respublikanın bir nömrəli donoru isə onun özü olmuşdur.

İsfəndiyar bəy İbrahimbəyovun səyi nəticəsində Geman-tologiya və Qanköçürmə Elm-Tədqiqat İnstitutunu yaradılmış və o, bu müəssisənin ilk direktoru olmuşdur. Bir çox elmi kadrlar, təcrübəli həkimlər dəstəsi yetişdirərək bacarıqlı həkim eyni zamanda N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnsitutunda pedaqoji fəalliyyətlə məşğul olmuşdur.

İsfəndiyar bəy Züleyxa xanım İmamqulu bəy qızı Vəlibəyova ilə ailə qurmuşdu.



Qamboy bəy Bağır bəy oğlu İbrahimbəyov 1894-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Şuşa Real məktəbini bitirmişdi. Qarabağ İnqilab komitəsinin üzvü olmuşdu.

Qamboy bəy Tamara xanımla ailə qurmuşdu. İsmətpaşa bəy, Rəfayıl bəy, Rasim bəy, Ramiz bəy, Stanislav bəy, Vaqif bəy adlı oğlanları var.

İsmətpaşa bəy Qamboy bəy oğlu 20 dekabr 1922-ci ildə Bakı şəhərində doğulmuşdu. Ailədə Nikolay çağırıldığından bu adla tanınmışdı. Orta məktəbi bitirəndən sonra 1940-1946-cı illərdə Sovet Ordusunda xidmət etmişdi. Ordudan tərxis olduqdan sonra, 1946-cı ildən 1949-cu ilədək peşə məktəbində bədən tərbiyəsi üzrə instruktor işləmişdi. 1949-cu ildən 1959-cu ilədək Bakı şəhərində və Cəbrayıl rayonunda orta məktəblərdə ingilis dili müəllimi kimi çalışmışdı. (Xarici Dillər İnstitutuna daxil olmuş, 1955-ci ildə ing ilis dili müəllimi ixtisası üzrə institutu tamamlamışdı).



Nikolay Qəmbərov 1961-ci ildən 1963-cü ilədək Hindistanda, "Ağırsənayeixrac" birliyi nümayəndəliyinin tərcüməçisi kimi işləmişdi. 1964-cü ildən Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunda (hazırkı Bakı Texniki Universitetində) müəllim kimi çalışmışdı.Sonra Misir Ərəb Respublikasında işləmişdi.

Nikolay bəy Sevil xanım İsrafil qızı Qiyasbəyova ilə ailə qurmuşdu. İsrafil bəy adlı oğlu, Nailə xanım adlı qızı var.

İsrafil 28 may 1961-ci ildə Hindistan respublikasının Dehli şəhərində dünyaya gəlib. 1968-ci ildə Misir Ərəb Respublikasında, Qahirə şəhərində birinci sinifə gedib. 1970-ci ildə Bakı şəhərində, 189 nömrəli məktəbdə təhsilini davam etdirmişdi. 1978-ci ildə orta məktəbi bitirib. 1980-ci ildə Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutuna (indiki ATU-ya) qəbul olub. 1987-ci ildə institututun peditariya fakültəsini tamamlayıb. Şəhər Uşaq xəstəxanasının reanimasiya şöbəsinə göndərilib. 1988-ci ildə Moskva şəhərində təkmilləşdirmə kursu keçib. Sonra həmin xəstəxanada işini davam etdirib.



İsrafil İbrahimov 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanıb. Ağdam şəhəri 1 nömrəli Hərbi-Səhra cərrahiyə hospitalında anestteziologiya və reanimasiya şöbəsinin rəisi vəzifəsində xidmət edib. Papravənd, Sırxavənd, Abdal-Gülablı, Şelli, Mahrızlı və başqa kəndlərdə hərbi əməliyyatlara qatılıb. Ağdamdan dönəndən sonra DİN daxili qoşunlarında xidmət edib. 17 mart 1992-ci ildən günümüzədək anestteziologiya və reanimasiya şöbəsinin rəis müavini vəzifəsində çalışır.





İsrafil İbrahimov Şəfəq xanım Tofiq qızı ilə ailə qurub. Nigar xanım (1989) və Sevil xanım (1992) adlı qızları var.

Rəfayıl bəy Qamboy bəy oğlu İbrahimov 1927-ci ildə Bakı şəhərində anadan olmuşdu. Orta məktəbi bitirəndən sonra AZNKİ-yə (indiki AZNKA-ya) qəbul olmuşdu. İnstitutu mühəndis ixtisası üzrə tamamlamışdı. "Azkəndenerji" birliyinin rayonlararası şöbəsində texniki rəhbər vəzifəsində çalışmışdı. Sonra müxtəlif təşkilatlarda baş mühəndis vəzifəsində işləmişdi.



Rəfayıl bəyin Emin bəy adlı oğlu var.

Emin Rəfayıl oğlu İbrahimov 4 noyabr 1968-ci ildə Bakı şəhərində doğulub. Orta məktəbi bitirəndən sonra Azərbaycan Politexnik İnstitutuna (hazırkı Bakı Texniki Universitetinə) daxil olub. 1994-cü ildə universitetin avtomexanika fakültəsini tamamlayıb. Statistika idarəsində çalışır.

Eminin Rəfayıl (2002) adlı oğlu var.

Rasim bəy Qamboy bəy oğlu İbrahimov 28 iyul 1930-cu ildə Bakı şəhərində anadan olmuşdu. Orta məktəbi bitirəndən sonra Hərbi Piyada məktəbinə daxil olmuşdu. 1955-ci ildə məktəbi leytenent rütbəsi ilə tamamlamışdı. 1956-cı ilədək milli diviziyada xidmət etmişdi. Bu diviziya buraxılandan sonra, 1957-ci ildə ADU-ya (indiki BDU-ya) daxil

olmuşdu. 1962-ci ildə universiteti tamamladıqdan sonra Abşeron rayonuna müstəntiq vəzifəsinə göndərilmişdi. 1972-ci linədək DİN orqanlarında çalışmışdı. Sonra təqaüdə çıxmışdı.



Rasim İbrahimov 2006-cı ildə vəfat edib.

Rasim bəyin Gündüz bəy, İlqar bəy adlı oğlanları var.

Gündüz Rasim oğlu İbrahimov 1958-ci ildə Bakı şəhərində doğulub. 4 nömrəli Bakı Texniki Peşə məktəbini bitirib. 1977-1979-cu illərdə hərbi xidmətdə olub. 1979-cu ildən 1988-ci ilədək Gəmiqayırma zavodunda və Bakı Yaşıllaşdırma idarəsində işləyib. 1988-ci ildən 1996-cı ilədək "Neftçıxarma və Elektromontaj" koperativinin sədri vəzifəsində çalışıb. 1996-cı ildən işsizdir.



Ailəlidir, 1 övladı var.

İlqar Rasim oğlu İbrahimov 1961-ci ildə Bakı şəhərində anadan olub. 150 nömrəli orta məktəbi bitirib. 1980-1982-ci illərdə hərbi xidmətdə olub. Bakı Zərgərlik zavodunda, Dam örtüyü kombinatında, tikinti şirkətində və digər müəssisələrdə çalışıb.

Ailəlidir, 2 övladı var.



Ramiz bəy Qamboy bəy oğlu İbrahimov 12 yanvar 1937-ci ildə Bakı şəhərində anadan olmuşdu. 1956-cı ildə Bakı Musiqi məktəbinin nəzəriyyə və bəstəkarlıq şöbəsini bitirmişdi. 1962-ci ildə Konservatoriyanın bəstəkarlıq fakültəsini (Qara Qarayev və Cövdət Hacıyevin sinifini) tamamlanışdı. 1964-1966-cı illərdə Moskva Konservatoriyasında Aram Xaçaturyanın rəhbərliyi altında aspranturanı bitirmişdi. 1966-cı ildə Kişiniyev İncəsənət İnstitutunun nəzəriyyə və bəstəkarlıq kafedrasında müəllim kimi çalışmışdı. 1970-ci ildən Moskva şəhərində yaşayıb yaradır.

Ramiz İbrahimov simfoniya (1962), simfonietta (1967), balet süitası (Gənclik, 1963), Yubley poeması (1970); skripka üçün orkestr konserti (1966), 2 simli kvartet (1963, 1967); fortopiano üçün sonata (1961), 2 sonatina (1963, 1965), Uşaq süitası (1969), uşaqlar üçün pyeslər (1962); skripka və fortopiano üçün sonata (1960), sonatina (1963), Nizami, Füzuli və başqa şairlərin sözlərinə yazılmış romansların müəllifidir.

Ramiz İbrahimov Yəmən respublikası himninin müəllifidir. Bu himnə görə Yəmən prezidentindən üstü yazılı saat mükafat alıb.

Stanislav bəy Qamboy bəy oğlu İbrahimov 6 iyun 1940-cı ildə Bakı şəhərində anadan olub. Orta məktəbi bitirəndən sonra, 1958-ci ildə ADU-ya (indiki BDU-ya) daxil olub. 1964-cü ildə universitetin fizika-riyaziyyat fakültəsini tamamlayıb. Sitalçay kəndində müəllim kimi çalışıb. 1968-ci ildə AMEA-nın aspiranturasına qəbul olub. Aspiranturanı tamamlayandan sonra günümüzədək akademiyanın fizika institutunda işləyir.



Stanislav İbrahimov 50-dən çox elmi məqalənin müəllifidir. Almaniya, Fransa, Rusiya, Ukrayna və başqa ölkələrdə elmi konfranslarda iştirak edib.

Stanislav İbrahimovun Vahid adlı oğlu, Tamara adlı qızı var.

Vahid Stanislav oğlu İbrahimov 6 yanvar 1976-cı ildə Bakı şəhərində doğulub. Sentyabr 1983-may 1991-ci il Bakı şəhəri 2 nömrəli orta məktəbdə təhsil alıb sentyabr 1991- may 1992-ci il 225 nömrəli orta məktəbdə təhsilini davam etdirib. Sentyabr 1996- iyun 2000-ci il Azərbaycan İnşaat Mühəndisləri Universitetinin Mühəndis iqtisadiyyatı-tikintinin iqtisadiyyatı və idarə edilməsi fakültəsini bitirib.



2000-2001-ci illərdə Tərtər (Marquşevan) N saylı hərbi hissədə hərbi xidmətdə olub.

Aprel 2004- oktyabr 2007 Cape İndustrial Services şirkətində Proyeck Loqistics Warehouse coordinatoru vəzifəsində çalışıb.

Oktyabr 2007- may 2008-ci il CİS LLC şirkətində Proyect coordinator vəzifəsində işləyib.

Setntyabr 2008-ci ildən hal-hazıra qədər Murhy Shipping &Commercial Setvices LTD Şirkətində Baza meneceri vəzifəsində çalışır.

Vahid İbrahimov Günay Akif qızı Şıxova ilə ailə qurub. Jasmin adlı qızı var.



Tamara xanım Stanislav qızı İbrahimova 5 avqust 1979-cu ildə Bakı şəhərində anadan olub. Orta məktəbi bitirəndən sonra Azərbaycan İqtisad Universitetinə qəbul olub. Universiteti tamamlayandan sonra bəzi müəssisələrdə işləyib. Hazırda "Siemens" şirkətində çalışır.

Vaqif bəy Qamboy bəy oğlu İbrahimov Bakı şəhərində anadan olmuşdu.

Teymur bəy Bağır bəy oğlu İbrahimov 1904-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Moskva Əlvan Metallar İnstitutunu bitirmişdi. 1949-cu ildən 1964-cü ilədək Tovuz Sement zavodunun direktoru vəzifəsində çalışmışdı.

Teymur bəy İbrahimov 1964-cü ildə vəfat edib.

Teymur bəyin Çingiz bəy adlı oğlu vardı.

Çingiz Teymur oğlu İbrahimov 1933-cü ildə Bakı şəhərində doğulmuşdu. Orta məktəbi bitirəndən sonra İnşaat Mühəndisləri İnstitutuna (indiki Memarlıq və İnşaat Universitetinə) daxil olmuşdu. NQÇ-də iş icraçısı vəzifəsində işləmişdi.



Çingiz İbrahimovun Teymur adlı oğlu var.

Teymur Çingiz oğlu İbrahimov 1961-ci ildə Bakı şəhərində dünyaya gəlib. 1981-ci ildən 2011-ci ilədək DİN əməkdaşı olub. Hazırda təqaüddədir.



Teymur İbrahimovun Ceyhun adlı oğlu, Nigar (1991) adlı qızı var.

Ceyhun Teymur oğlu İbrahimov 1988-ci ildə Bakı şəhərində dünyaya göz açıb.Avropa letseyində təhsil alıb. Moskvada yaşayır və dizayner kimi fəaliyyət göstərir.

Füruzə xanım Bağır bəy qızı İbrahimbəyova Şuşa şəhərində anadan olmuşdu.

Füruzə xanım Yusif Mustafayevlə ailə qurmuşdu. Kamil, Aydın adlı oğlanları, Teyhu, Bəyim, Nüşabə, Müzəyyəm, Mənzər, Zümrüd, Validə və Məleykə adlı qızları vardı.

***

İbrahim bəyin dördüncü oglu Qulu bəy 1852-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

***

İbrahim bəyin beşinci oglu Əli bəy 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

***

İbrahim bəyin altıncı oglu Əbdüssəməd bəy 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

***

İbrahim bəyin yeddinci oğlu Məhəmməd bəy 1863-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Sonra mədrəsədə təhsilini davam etdirmişdi. Savadlı olduğundan dolayı mirzə ünvanı daşıyırdı. Ticarətlə məşğul idi.

Mirzə Məhəmməd bəyin Şükür bəy adlı oğlu vardı.

Şükür bəy Mirzə Məhəmməd bəy oğlu İbrahimov 10 iyun 1912-ci ildə Tiflis şəhərində doğulmuşdu. Orta məktəbi bitirəndən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki AZNKA-nin) memarlıq-inşaat fakültəsinə qəbul olmuşdu. II Dünya Müharibəsində iştirak etmişdi. Ordudan mayor rütbəsində tərxis olunmuşdu. Bir çox döyüş orden və medalları ilə təltif edilmişdi.



Şükür İbrahimov müxtəlif illərdə Ağackəsmə zavodunda, Dəmir-Beton zavodunda, Azneftin nəzdindəki "Azneftkintimaterialları" birliyində rəis vəzifəsində çalışmışdı.



Şükür İbrahimov rəhbərliyi altında "Azərbaycan-İnturist" adlı çoxmərtəbəli mehmanxana tikilmişdi. Uzun illər həmin mehmanxananın direktoru vəzifəsində işləmişdi.

Şükür İbrahimov Şəfiqə xanım Musa qızı Mahmudova ilə ailə qurmuşdu. Məhəmməd bəy, Atif bəy adlı oğlanları, Əzizə xanım adlı qızı var.



Məhəmməd Şükür oğlu İbrahimov 22 fevral 1948-ci ildə Bakı şəhərində dünyaya gəlib. Bakı 1 nömrəli məktəbi bitirib. 1965-ci ildə Azərbaycan Politexnik İnstitutuna (hazırkı Bakı Texniki Universitetinə) daxil olub. 1970-ci ildə institutun elektrik mexaniki fakültəsini, mühəndis ixtisası üzrə tamamlayıb. 1963-cü ildən 1965-ci ilə kimi Kalinin adına zavodda elektromontojçı vəzifəsində çalışıb.

1973-cü ildən 1976-cı ilə qədər "Azərbaycan" VAO "İNTURİST" Mehmanxanasında baş usta vəzifəsində işləyib.

1976-cü ildən 1980-ci ilədək SSSR Xarici Ticarət Nazirliyinin yanında Azərbaycan SSR-in Nazirlər Sovetinin Müvəkkil İdarəsində Baş mühəndis vəzifəsində çalışıb.

1980-ci ildən 1983-cü ilə qədər "Soyux Vneş Trens" Birliyi Moskva, Baş mühəndis vəzifəsində işləyib.

1984-cü ildən 1989-ci ilə kimi İran İslam Respublikasında SSSR-nin Ticarət Nümayəndəliyində baş mühəndis vəzifəsində çalışıb.

1989-cu ildən 1991-ci ilədək SSSR-nin Xarici İqtisadi Əlaqədar Nazirliyi yanında Azərbaycan SSR-nin Nazirlər Kabinetinin Müvəkkil İdarəsi müvəkkil müavini vəzifəsində işləyib.

1991-ci ildən 1992-ci ilədək "AZərİncom VES" birliyində baş direktor müavini vəzifəsində çalışıb.

1992-ci ildən 1999-cü ilədək "İNTEGRAS" Azərbaycan-Almaniya-İrlandiya müştərək müəssisəsi, Kommersiya üzrə direktor işləyib.

1999-cü ildən 2006-cı ilədək "Sol-valyub" şirkəti məsləhətçisi vəzifəsində çalışıb.



Atif Şükür oğlu İbrahimov Bakı şəhərində anadan olub. Orta məktəbi bitirəndən sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (Azərbaycan İqtisad Universitetinə) qəbul olub. Sonra ADU-ya (indiki BDU-ya) daxil olub. Universiteti tamamlayandan sonra uzun illər hüquq və ədliyyə sahəsində çalışıb. Mayor rütbəsi ilə təqaüdə çıxıb. Hazırda ABŞ-da yaşayır.



Əzizə Şükür qızı İbrahimova 29 mart 1946-cı ildə Bakı şəhərində anadan olub. Orta məktəbi bitirəndən sonra Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutuna (indiki ATU-ya) qəbul olub. 1969-cu ildə institututun müalicə-proflaktika fakül-



təsini fərqlənmə ilə tamamlayıb. Sonra aspiranturaya daxil olub. 1977-ci ildə müdafiə edərək tibb elmləri namizədi adına layiq görülüb. 1977-ci ildə dosent elmi rütbəsini alıb. ATU-da çalışır.

Əzizə İbrahimova 100-dən çox elmi məqalənin, metadik və dərs vəsaitinin müəllifidir.

Əzizə İbrahimova ailəlidir. 2 övladı var.

***

Hacı Əliməhəmməd bəyin ikinci oğlu Həsən bəy 1820-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Həsən bəyin Hacı bəy adlı oğlu vardı.

Hacı bəy 1845-ci ildə Şuşa şəhərində doğulmuşdu. Ticarətlə məşğul idi.

## İbrahimbəyovlar soyu






















## Baba bəy uşağı

Təbrizli məhəlləsinin tanınmış sakinlərindən biri də Baba bəydir. Baba bəy XVIII yüzilin sonlarında, XIX yüzilin önlərində yaşamışdı. İbrahimxəlil xana xidmət etmişdi. Xanın səlahiyyətli səfiri kimi Tehranda, Fətəli şah Qovanlı-Qacarın sarayında olmuşdu. Şahdan bəylik fərmanı almışdı. Elçilik missiyasını əla yerinə yetirdiyinə görə Rusiya imperatorunun da bəylik fərmanına layiq görülmüşdü.

Baba bəyin Məmmədbağır bəy, Məmməd bəy, Əbdürrəhim bəy adlı oğlanları vardı.

Məmmədbağır bəy 1819-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Məmmədbağır bəyin Məmmədhəsən bəy, Salman bəy, Süleyman bəy, Mahmud bəy, Salah bəy, Talıb bəy və Səməd bəy adlı oğlanları vardı.

Məmmədhəsən bəy 1857-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi.

Məmmədbağır bəyin ikinci oğlu Salman bəy 1860-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məmmədbağır bəyin üçüncü oğlu Süleyman bəy 1862-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məmmədbağır bəyin dördüncü oğlu Mahmud bəy 1864-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məmmədbağır bəyin beşinci oğlu Salah bəy 1867-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məmmədbağır bəyin altıncı oğlu Talıb bəy 1868-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.



Məmmədbağır bəyin yeddinci oğlu Səməd bəy 1879-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Baba bəyin ikinci oğlu Məmməd bəy 1821-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Baba bəyin üçüncü oğlu Əbdürrəhim bəy 1825-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi.

Məşədi Əbdürrəhim bəyin Abdulla bəy, Zeynalabdin bəy adlı oğlanları vardı.

Abdulla bəy 1853-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi.

Məşədi Əbdürrəhim bəyin ikinci oğlu Zeynalabdin bəy 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Mirzə Baba uşağı

Şuşa şəhərinin Təbrizli məhəlləsinin ünlü sakinlərindən biri də Baba idi. Baba XVIII yüzilin sonlarında, XIX yüzilin önlərində yaşamışdı. Mükəmməl mədrəsə təhsili almışdı. İbrahimxəlil xana xidmət etmişdi. Savadlı olduğundan dolayı mirzə ünvanı daşıyırdı.

Mirzə Babanın Razi, Rəhim, Fətəli adlı oğlanları vardı.

Razi 1772-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Razi 1860-cı ildə vəfat edib.

Kərbəlayı Razi Nənəxanımla ailə qurmuşdu. Qulu, İmamqulu, Baba, Hüseynqulu adlı oğlanları vardı.

Qulu 1812-ci ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini babasından almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Qulu Xeyrənsə ilə yaşam qurmuşdu. Şükür, Ələsgər, Ələkbər adlı oğlanları, Əzət adlı qızı vardı.

Şükür 1850-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi.

Kərbəlayı Qulunun ikinci oğlu Ələsgər 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi.

Kərbəlayı Qulunun üçüncü oğlu Ələkbər 1860-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi.

Kərbəlayı Razinin ikinci oğlu İmamqulu 1812-cü ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini babasından almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını və Məkkəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı İmamqulu Əzətlə həyat qurmuşdu. Şükür, Məmmədəli adlı oğlanları vardı.

Şükür 1845-ci ildə Şuşa şəhərində doğulmuşdu.

Şükür 1856-cı ildə vəfat edib.

Hacı Qulunun ikinci oğlu Məmmədəli 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi.

Kərbəlayı Razinin üçüncü oğlu Baba 1825-ci ildə Şuşa şəhərində dünyaya təşrif buyurmuşdu. İbtidai təhsilini molla yanında almışdı.

Baba cavan vəfat etmişdi.

Kərbəlayı Razinin dördüncü oğlu Hüseynqulu 1831-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Hüseynqulunun İbrahim adlı oğlu vardı.

İbrahim 1856-cı ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi.

***



Mirzə Babanın ikinci oğlu Rəhim 1784-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Mehdiqulu xana xidmət edirdi. Xan ona məaf ünvanı vermişdi. Müqəddəs Xorasan torpağına pənah aparmış, fəxri Məşədi ünvanı qazanmışdı.

Məşədi Rəhim 1852-ci ildə vəfat etmişdi.

Məşədi Rəhim Səkinə xanımla ailə qurmuşdu. Mustafa, Yusif, Məmmədhüseyn adlı oğlanları, Şəkər xanım, Anaxanım xanım, Fatma xanım və Xədicə xanım adlı qızları vardı.

Mustafa 1814-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Mustafanın Həşim, Səlim, Rəhim, Kərim adlı oğlanları vardı.

Həşim 1844-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Xırda ticarətlə məşğul idi.

Kərbəlayı Mustafanın ikinci oğlu Səlim 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Xırda ticarətlə məşğul idi.

Kərbəlayı Mustafanın üçüncü oğlu Rəhim 1854-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Xırda ticarətlə məşğul idi.

Kərbəlayı Mustafanın dördüncü oğlu Kərim 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Xırda ticarətlə məşğul idi.

Məşədi Rəhimin ikinci oğlu Yusif 1835-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Yusifin Əbdürrəhim adlı oğlu vardı.

Əbdürrəhim 1865-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi.

Məşədi Rəhimin üçüncü oğlu Məmmədhüseyn 1839-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi.

***

Mirzə Babanın üçüncü oğlu Fətəli 1786-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Mehdiqulu

xana xidmət edirdi. Xanın tapşırığını yerinə yetirərkən həlak olmuşdu. Mehdiqulu xan onun ailəsinə məaf ünvanı vermişdi.

Fətəli Hüsnücahan xanımla evlənmişdi. Məmmədtağı adlı oğlu vardı.

Məmmədtağı 1819-cu ildə Şuşa şəhərində doğulmuşdu. Əmisi Məşədi Rəhim ağanın himayəsində böyümüşdü. Molla yanında təhsili almışdı. Yəhərçilik, sərraclıqla məşğul idi.

Məmmədtağı Nisə xanımla ailə qurmuşdu. Fətəli, Şükür adlı oğlanları, Əsmət, Mina adlı qızları vardı.

Fətəli 1853-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi.

Məmmədtağının ikinci oğlu Şükür 1858-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi.

### Hacı Baba uşağı

Təbrizli məhəlləsinin səsli sakinlərindən biri də Baba idi. Baba XVIII yüzilin sonlarında, XIX yüzilin önlərində Şuşa şəhərində yaşamışdı. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Babanın Abutalıb adlı oğlu vardı.

Abutalıb 1792-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-müşərrəfi ziyarət etmişdi.

Hacı Abutalıb Pəri xanımla ailə qurmuşdu. Əbdül adlı oğlu, Mehri, Nabat və Gilə adlı qızları vardı.

Əbdül 1827-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi

Məşədi Əbdülün Məmmədbağır adlı oğlu vardı.

Məmmədbağır 1857-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında ibtidai təhsil almışdı. Ticarətlə məşğul idi.



Hacı Əmir bəy uşağı (Sadıqovlar)

Təbrizli məhəlləsinin ünlü sakinlərindən biri də Əmir bəydir. Əmir bəy XVIII yüzilin ikinci yarısında Şuşa şəhərində yaşamışdı. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-müşərrəfi ziyarət etmişdi.

Hacı Əmir bəyin Əli bəy, Həsən bəy adlı oğlanları vardı.

Əli bəy 1765-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Əli bəyin Məmmədsadıq bəy adlı oğlu vardı.

Məmmədsadıq bəy 1826-cı ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məmmədsadıq bəyin törəmələri Sadıqov soyadını daşıyırdılar.

Məşədi Məmmədsadıq bəyin Əbdüləli bəy, Ağəli bəy, Məmmədəli bəy adlı oğlanları vardı.

Əbdüləli bəy 1858-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Ticarətlə məşğul idi.

Əbdüləli bəy Əzizə xanım Məşədi Əhməd qızı Həyatova (?-1942) ilə ailə qurmuşdu. Abdulla bəy, Murtuza bəy adlı oğlanları, Leyla xanım, Qəmər xanım, Südabə xanım və Dürdanə xanım adlı qızları vardı.

Abdulla bəy 1901-ci ildə Şuşa şəhərində dünyanı tanımışdı.

Abdulla bəy 1926-cı ildə vəfat edib.

Əbdüləli bəyin ikinci oglu Murtuza bəy Şuşa şəhərində anadan olmuşdu.

Əbdüləli bəyin böyük qızı Leyla xanım Şuşa şəhərində anadan olmuşdu.

Leyla xanım Dadaşovla ailə qurmuşdu.

Əbdüləli bəyin ikinci qızı Qəmər xanım Şuşa şəhərində anadan olmuşdu.

Əbdüləli bəyin üçüncü qızı Südabə xanım 1911-ci ildə Şuşa şəhərində anadan olmuşdu.

Südabə xanım 1994-cü ildə vəfat edib.

Südabə xanım Şamilovla ailə qurmuşdu.

Əbdüləli bəyin dördüncü qızı Dürdanə xanım 1913-cü ildə Şuşa şəhərində anadan olmuşdu.

Dürdanə xanım 1989-cu ildə vəfat edib.

Dürdanə xanım Şamilovla ailə qurmuşdu.

Məşədi Məmmədsadıq bəyin ikinci oğlu Ağaəli bəy 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Ağaəli bəy Güldəstə xanım Məşədi Əhməd qızı Həyatova (?-1948) ilə ailə qurmuşdu. İsmayıl bəy, Hacı bəy, Hidayət bəy adlı oğlanları, Soltan xanım və Suqra xanım adlı qızları vardı.

İsmayıl bəy 27 oktyabr 1896-cı ildə Şuşa şəhərində doğulmuşdu.

İsmayıl bəy 30 avqust 1970-ci ildə vəfat edib.

İsmayıl bəyin Kamil bəy adlı oglu, Raisa xanım adlı qızı vardı.

Kamil bəy 27 fevral 1927-ci ildə Vladiqafqaz şəhərində dünyaya gəlib. Texnika elmləri doktoru (1967), professor (1968), Azərbaycan MEA müxbir üzvüdür (1980).

İsmayıl bəyin qızı Raisa xanım 1 dekabr 1925-ci ildə Bakı şəhərində dünyaya göz açmışdı.

Raisa xanım 21 sentyabr 1996-cı ildə vəfat edib.

Raisa xanım Əbülfət Cavad oglu Həyatovla ailə qurmuşdu. Azad, Nazim adlı oğlanları, Dilarə adlı qızı var.



Ağaəli bəyin ikinci oglu Hacı bəy 1898-ci ildə Şuşa şəhərində anadan olmuşdu.

Hacı bəy 1976-cı ildə vəfat edib.

Hacı bəy İzzət xanım Qəmbər qızı Tahirova ilə ailə qurmuşdu. Çingiz bəy adlı oglu var.

Çingiz Hacı oğlu Sadıqov 1929-cu ildə Bakı şəhərində doğulub. Azərbaycanlı xalq artisti, prezident təqaüdçüsüdür. Pianoçu. Haqqında



2006-da çəkilmiş sənədli film mövcuddur.

Filmoqrafiya

Onu Bağışlamaq Olarmı? (1959)

Hər sey Oldugu kimi. Besinci Film. Rəsid Behbudov (2000)

Gulaga Məmmədov (2002)

Çingiz Sadıqov (2006)

Memar (2006)

Ağaəli bəyin üçüncü oğlu Hidayət bəy 1902-ci ildə Şuşa şəhərində anadan olmuşdu.

Hidayət bəy 27 fevral 1982-ci ildə vəfat edib.

Hidayət bəy Teyqu xanım Bəhlul qızı Daşdəmirova (1913-2002) ailə qurmuşdu. Əli bəy adlı oğlu var.

Əli bəy 29 iyun 1938-ci ildə Bakı şəhərində doğulub.

Ağaəli bəyin böyük qızı Soltan xanım 1900-cü ildə Şuşa şəhərində anadan olmuşdu.

Soltan xanım 1986-cı ildə vəfat edib.

Soltan xanım İsmayılovla ailə qurmuşdu.

Ağaəli bəyin ikinci qızı Suqra xanım 20 oktyabr 1908-ci ildə Şuşa şəhərində anadan olmuşdu.

Suqra xanım 4 aprel 1998-ci ildə vəfat edib.

Suqra xanım Daşdəmirova ilə ailə qurmuşdu.

Məşədi Məmmədsadıq bəyin üçüncü oğlu Məmmədəli bəy 1869-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

***

Hacı Əmir bəyin ikinci oğlu Həsən bəy 1779-cu ildə ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Həsən bəy Pərzad xanımla yaşam qurmuşdu. Dadaş bəy, Hüseyn bəy, Ələsgər bəy adlı oğlanları, Şərəfnisə xanım və Xeyrənnisə xanım adlı qızları vardı.

Dadaş bəy 1819-cu ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Dadaş bəyin Əbdürrəhim bəy, Məhərrəm bəy adlı oğlanları vardı.

Əbdürrəhim bəy 1851-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Ticarətlə məşğul idi.

Dadaş bəyin ikinci oğlu Məhərrəm bəy 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Məşəli Həsən bəyin ikinci oğlu Hüseyn bəy 1823-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Hüseyn bəyin Həsən bəy, Cəfərqulu bəy adlı oğlanları vardı.

II Həsən bəy 1845-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Kərbəlayı Hüseyn bəyin ikinci oğlu Cəfərqulu bəy 1852-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Məşədi Həsən bəyin üçüncü oğlu Ələsgər bəy 1827-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Ələsgər bəyin Abbas bəy, Salman bəy, Ramazan bəy, Əbutalib bəy adlı oğlanları vardı.

Abbas bəy 1852-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Ələsgər bəyin ikinci oğlu Salman bəy 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Ələsgər bəyin üçüncü oğlu Ramazan bəy 1866-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Ələsgər bəyin dördüncü oğlu Əbutalib bəy 1869-cu ildə şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.



## Hacıəsgərlilər: Şəcərənin tədqiqi üçün materiallar

Şuşa şəhərinin tanınmış soylarından olan Hacı Əsgərli uruğunu tədqiq edərkən bir çox materiallara rast gəldim. 1823-cü ildə şəhərin Təbrizli məhəlləsində yaşayan Hacı Əsgər bir ailə ilə qeydə alınmışdır. Həmin siyahıda daha bir Səfərəli adlı Hacıəsgərli var ki, bu adam da Hacı Əsgərin qohumudur. Yəqin ki, ümumi babalarının adı Əsgər olub.

1842-ci il siyahısında Hacı Əsgərli soyundan Hacı Kərim Hacı Əsgər oğlu qardaşı Şükür, bacısı Xeyrənsə, anası Gülbəslə qeyd olunub.Hacı Əsgərin oğlu Kərbəlayı Allahverdi arvadı Fatmanisə, oğlu Yusif, qardaşı Bağır, onun arvadı Şərəf anaları Səkinə ilə bərabər siyahıya alınıblar[2].

1849-cu ildə bu soydan Kərbəlayı Allahverdi Hacı Əsgər oğlu oğlanları Dadaş, Yusiflə, qardaşları Məmmədbağır, Məmmədhüseyn, Qasım, Əli və ölmüş qardaşı Allahverənin oğlu Aslanla qeydə düşüblər. Qohumu Hacı Kərim Hacı Əsgər oğlu isə qardaşları Şükür və Tağı ilə qeydə alınıb[3].

Hacı Əsgərlilər Şuşa şəhərində sayılan, seçilən soylardan idi. Şəhərdə bir neçə dükanları, ətraf kəndlərdə əkin sahələri, bağları, yataqlarda sürü-sürü heyvanları, naxır-naxır mal-qaraları vardı. Tarixçi və təzkirəçi Mir Möhsün Nəvvab Hacı Əsgərlilərin var-dövlətlərinə ermənilərin ziyan vurması haqqında yazır: «Ermənilər isə bunun əvəzini çıxmaq üçün Muxətər kəndinə gələrək Hacı Əsgər uşağının burda olan bir bağına və balaca evinə od vurub yandırdılar».

Hacı Əsgərli soyunu bütün qol-qanadları ilə yazıya almağı gərəkli bilirik.

---

[2] ОКП. составленное в 1823 году, по распоряжению главноуправляюшего в Грузии Ермолова действителным статским Советником Могилевским и полковником Ермоловым. Тифлис. 1866. Ст.177).

[3] MDTA, fond 24, siyahı 1.

**Muxtarovlar və Əsgərovlar**

Bu soyun ulu babası Muxtardır. Muxtarın Güney Azərbaycanın Təbriz şəhərinə bağlı Məməqan qəsəbəsində yaşadığını bilirik.

Muxtarın Əsgər adlı oğlu vardı.

Əsgər Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. İbrahimxəlil xan Sarıcalı-Cavanşirə xidmət edir. Sonra ticarətlə məşğul olmuşdu. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Əsgər Səkinə ilə ailə qurmuşdu. Allahverdi, Allahverən, Bağır, Məmmədhüseyn, Qasım adlı oğlanları vardı.

Allahverdi 1806-cı ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Allahverdi bazarda dükan işlədirdi. Şuşa qəza rəisi Konstantin Tarxan-Mouravov dəfələrlə onu hədələmişdi ki, dükanı bağlatdırıb, özünü də sürgün etdirəcəyəm. Onu qorxutmuşdu ki, praporşik Əli bəy Poladovun üzünə dursun. Kərbəlayı Allahverdi də məhkəmədə Əli bəyin əleyhinə yalandan iddia qaldırdı ki, guya, ona xeyli borcu var.

Kərbəlayı Allahverdi qəza idarəsinə Əli bəy Poladovun əleyhinə ərizə yazdı. Şahid kimi Ağa Novruzu, baqqal Hüseynəlini, Kar Cəfəri nişan verdi. Borcun miqdarını 1200 tümən göstərdi. Qəza rəisi ərizənin üstünü yazıb, şəriət məhkəməsinə Qazı Mirzə Əbülqasım Mirzə Əli bəy oğlu Haqverdiyevin üstünə göndərdi. Mirzə Əbülqasım Əli bəy Poladovun hamamını alıb, Kərbəlayı Allahverdi Muxtarova verdi.

Əli bəyin qaynatası Qasım bəy Zakir yazırdı:

**Yox məzəmmət yeri bu babdə hərgiz Əli də,**
**Rindi-şəhr ola özü, əsli ola Məmqani...**

Rzaqulu bəy Mirzə Camal oğlu bu barədə yazır: «Knyazın əmələcatı müqəviri divanlar ki, Əbdülkərim bəy və Mirzə Əbdülqasım qazı olalar, Şuşa şəhərinin sakini Kərbəlayı Allahverdi Hacı Əsgər oğlunu təhrik etdilər ki, şikayət eyləsin. Əli bəy ona borcludur. O vaqtda ki, xan məhrum onunla darəst edirdi. Guya, Əli bəy ondan min iki yüz tümən zici-şişə nəqd alıbdır. Halon ki, xani-mərhum Kərbəlayı-məzkurdan daddəstini qət edəndən sonra neçə il bunun arasından keçmişdi.

Kərbəlayı-məzbur şikayət edib, hökm oldu ki, mütabiqi-şəriət dəvaları teyy olsun. Burda Kərbəlayının iddiasınca şahidlər qayırdılar. Bu qərar ilə Yıldırım Cəfərqulu xan, Uzun Hüseynəli baqqal, Cəfər kar, Novruzzadə Şəkkərbanu bəyi, həm öz mahali-Vərəndə əz cümlə qəryeyi-Horavari (Horovlu-Ə. Ç.) Əliallahi qazı hüzuruna gətirib, şahidi-məqbul yerinə keçirdilər. Dedilər hərçənd ki, binəva Əli bəy dad-fəryad etdi ki, bu şahidi-məqbul deyil, bir yerə çatmadı, haman saat qazi surəti-şəri verib və hökm olundu ki, Əli bəyin Şuşa şəhərində öz evinin yanında olan hamamını Kərbəlayı-məzburun təsərrüfünə versinlər»[4].

Kərbəlayı Allahverdi dəfələrlə Mehdiqulu xan Cavanşirin əlindən tutmuş, borc vermiş, ticarət ilişkiləri olmuşdu.

Kərbəlayı Allahverdi Fatmanisə ilə yaşam qurmuşdu. Dadaş, Yusif, Süleyman adlı oğlanları vardı.

Dadaş 1836-cı ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Dadaş əmisi Bağırın qızı ilə evlənmişdi. Kazım adlı oğlu vardı.

Kazım Şuşa şəhərində dünyaya göz açmışdı. Şəhər realnı məktəbini bitirmişdi. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına qəbul olunmuşdu. Dövlətdən bəy ünvanı almışdı.

Kərbəlayı Allahverdinin ikinci oğlu Yusif 1838-ci ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Yusifin Məmmədəli adlı oğlu vardı.

Məmmədəli 1867-ci ildə Şuşa şəhərində dünyanı tanımışdı.

Kərbəlayı Allahverdinin üçüncü oğlu Süleyman 1857-ci ildə Şuşa şəhərində dünyaya boy göstərmişdi. Məktəb təhsili almışdı. Ticarətlə məşğul idi. Əsasən, fərş, xalı-xalça satırdı. İranın əksər

[4] R.Vəzirov. Əsərləri, Bakı, Şuşa, 2005.

şəhərləri ilə alveri vardı. 1890-cı ilə aid sənədlərdə ikinci gildiya tacir kimi qeyd olunub. Sonrakı qeydlərdə göstərilir ki, Süleyman Kərbəlayı Allahverdi oğlu meyvə, qurğuşun ticarəti ilə də məşğuldur. O, pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Süleyman Əsgərov "Difai" təşkilatının qolu olan "Qarabağ məclisi"nin üzvü idi. "Qarabağ məclisi"nin Şuşa komitəsinə doktor Əbdülkərim bəy Mehmandarov başçılıq edirdi. Onun köməkçisi Cahangir xan Nurubəyov, katibi isə Şuşa qarşılıqlı-kredit bankının direktoru Xuduş Quliyev idi. İcraiyyə idarəsinə və hərbi təşkilata Məşədi Şamil Hacıyev başçılıq edirdi.

Komitənin üzvləri Muxtar bəy Muradov, İsmayıl bəy Axundov (bazar darğası), Süleyman Əsgərov (tacir), Hacı Sadıq Məmmədov, Məşədi Cəfər oğlu (İran təbəəsi), Məşədi Əhməd Əzimov, Hacı Mirzə Hüseyn Kərim oğlu Münşizadə, Əfrasiyab Əzimov, Kərbəlayı Yusif Mirsiyabov və başqaları-cəmi 18 nəfər.

Məşədi Süleyman Əsgərov Qarabağın ən varlı tacirlərindən biri idi.

Məşədi Süleyman Əsgərov 9 iyul 1908-ci ildə Yelizavetpol (indiki Gəncə) Dairə Məhkəməsinə verdiyi ərizədə bildirirdi ki, Naxçıvan şəhər sakini Kərbəlayı Cabbar Ələsgərov ona 7.955 manat borcludur.

Məşədi Süleyman Əsgərov 6 oktyabr 1909-cu ildə Yelizavetpol (indiki Gəncə) Dairə Məhkəməsinə verdiyi ərizədə bildirirdi ki, Səltənət bikə və başqa Usmiyevlər ona 7.000 manat borcludurlar.

Məşədi Süleyman Əsgərov 27 iyul 1913-cü ildə Yelizavetpol (indiki Gəncə) Dairə Məhkəməsinə verdiyi ərizədə bildirirdi ki, Məşədi Abutalıb Əsgərov ona 3.000 manat borcludur.

Məşədi Süleyman əmisi Məşədi Əlinin qızı ilə ailə qurmuşdu.

***



Hacı Əsgərin ikinci oğlu Allahverən 1808-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Allahverənin Aslan adlı oğlu vardı.

Aslan 1844-cü ildə Şuşada doğulmuşdu.

***

Hacı Əsgərin üçüncü oğlu Bağır 1823-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Bağırın Əbdürrəhim, Əbdüləli, Maqsud, Rəsul adlı oğlanları, qızları vardı.

Əbdürrəhim 1844-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Bağırın ikinci oğlu Əbdüləli 1855-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. İbtidai təhsilini molla yanında almışdı. Sonra Şuşa şəhər məktəbində oxumuşdu. İmtahan verib müəllimlik şəhadətnaməsi alandan sonra Qazax qəzasının Dağkəsəmən kəndinə müəllim təyin edilmişdi. Bir müddət burda müəllim işləyəndən sonra Ağcabədi kənd məktəbinə müdir göndərilmişdi. Onun Ağcabədiyə gəlişi ilə bu bölgədə mədəniyyətin, maarifin, səhiyyənin səviyyəsi artmışdı.

1889-cu ildə Ağcabədi kənd məktəbi əl işlərinin sərgisinə görə gümüş medalla təltif edilmişdi.

Ağcabədi kənd məktəbinin müdiri Ə. Muxtarov yazırdı: «Ağcabədinin şəhərdən aralı olmasına və digər səbəblərə görə burda xalq maarifi çoxdandır ki, ləng inkişaf edirdi. Kəndli öz oğlunu heç olmasa ana dilini öyrənmək üçün kənddə və ya kənarda məktəbə qoymağa çox nadir halda imkan tapırdı. Lakin burda məktəb açılması ilə get-gedə kəndlilər bu məktəbin faydasını dərk etməyə başlamışlar. Yeni məktəbin açılması ilə köhnə təhsilin xarakteri dəyişir. Köhnə qayda və üsul yenisi ilə əvəz edilir, yeni qayda təlimin tezliklə mənimsənilməsinə səbəb olur. Kəndlilərin öz uşaqlarının tərbiyəsinə cəhd etmələri də ancaq məktəbin təsiri ilə əlaqədardır»1. Əbdüləli bəyin marifçilik təsirləri, məruzələri, söhbətləri öz işini gördü. Əhali get-gedə məktəbdə yeni siniflər

açılmasını tələb edirdi. Əhalinin məktəbə münasibətindən və tələbindən bəhs edən Ə. Muxtarov sözünə davam edərək yazırdı ki, indi birsinifli məktəbdə verilən təhsilin məzmunu kəndliləri təmin etmir və onlar məktəbi heç olmasa ikisinifli məktəbə çevirməyi tələb edirlər. O yazır ki, məktəbin tam kursunu bitirənlər aldıqları təhsil ilə kifayətlənmir. Təhsillərini davam etdirmək üçün digər məktəblərdə yer axtarırlar.

Ağcabədi kənd məktəbi nəzdində meteoloji stansiya təşkil edilmişdi. 1891-ci ildə məktəbin müdiri Ə. Muxtarov tərəfindən atmosfer yağıntısı üzərində aparılan aylıq müşahidələr dərc edilmək üçün Sankt-Peterburqa-Baş Fizika Rəsədxanasına göndərilmişdi.



Əbdüləli bəyin Ağcabədidə apardığı mədəni-maarif işləri get-gedə öz bəhrəsini verirdi. Əhali arasında savadlanma artırdı. O, bəzən həkimlik vəzifəsini də öhdəsinə götürür, camaata tibbi xidmət göstərirdi. 1892-ci ildə Ağcabədi kənd məktəbində aptek açılmışdı.

1896-cı ildə Ağcabədi kənd məktəbinin müdiri Əbdüləli bəy Muxtarovun ZMS nəzdindəki ibtidai məktəbə müdir təyin edilməsi ilə əlaqədar olaraq Camal bəy Fətəlibəyov Ağcabədi kənd məktəbinə müdir vəzifəsinə təyin edildi.

Əbdüləli bəy uzun müddət seminariyanın hazırlıq sinfində dərs demişdi.

Əbdüləli bəy Muxtarov bacısı oğlanları Kazım Muxtarovu Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına, Həsən İmanovu Şuşa real məktəbinə, qardaşı oğlu Cabbar Muxtarovu Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına düzəltmişdi.

Bağırın üçüncü oğlu Maqsud 1856-cı ildə Şuşa şəhərində dünyaya göz açmışdı.



Bağırın dördüncü oğlu Rəsul 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Ticarətlə məşğul idi.

Rəsulun Cabbar adlı oğlu vardı.

Cabbar Şuşa şəhərində doğulmuşdu. Şəhər realnı məktəbini bitirmişdi. Sonra Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına qəbul olunmuşdu.

***



Hacı Əsgərin dördüncü oğlu Məmmədhüseyn 1831-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Məmmədhüseynin Abbasqulu, Xudadad adlı oğlanları vardı.

Abbasqulu 1867-ci ildə Şuşa şəhərində doğulmuşdu.

Kərbəlayı Məmmədhüseynin ıkıncı oğlu Xudadad 1871-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi.

***

Hacı Əsgərin beşinci oğlu Qasım 1831-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Qasımın Abdulla adlı oğlu vardı.

Abdulla 1870-ci ildə Şuşa şəhərində doğulmuşdu.

***

Hacı Əsgərin altıncı oğlu Əli 1839-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Əli Məşədi Şirin Cəfər qızı ilə ailə qurmuşdu. Abutalıb, İskəndər adlı oğlanları vardı.



Abutalıb 1869-cu ildə Şuşa şəhərində doğulmuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.



Məşədi Abutalıb 22 iyun 1912-ci ildə əmisi oğlu Süleymandan 3.000 manat borc almışdı. Vəfat etdiyindən bu borc onun arvadlarının və övladlarının üstündə qalmışdı. Onlara Məşədi Əbdül Ağa Cəfər oğlu Muxtarov və Ağalar Tağıyev hamilik edirdi.

Məşədi Abutalıb 1912-ci ildə vəfat edib.

Məşədi Abutalıb Səltənət Məşədi Əbdül qızı ilə ailə qurmuşdu.

Məşədi Əlinin ikinci oğlu İskəndər 1876-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında ibtidai təhsil almışdı. Ticarətlə məşğul idi.

***



**Cahangir Əsgərov**

Cahangir Cəlal oğlu 11 iyul 1950-ci ildə Bakıda anadan olmuşdur.

1980-cı ildə Leninqrad Mülki Aviasiya Məktəbini bitirmişdir.

1972-ci ildən Ukrayna Mükli Aviasiya İdarəsinin Çerkasski Birləşmiş Aviadəstəsində ikinci pilot, Bakı şəhəri Zabrat Birləşmiş Aviadəstəsində eskadrilya müdiri, uçuş dəstəsi komandirinin müavini, 1978-ci ildən Yevlax Birləşmiş Aviadəstəsinin komandiri, Hava limanının rəisi, 1981-ci ildən Bakı Birləşmiş Aviadəstəsində ikinci pilot, kapitan, eskadrilya komandirinin müavini, eskadrilya komandiri, 1991-ci ildən Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1993-cü ildən Dövlət Konserinin Türkitədə baş nümayəndəsi vəzifələrində işləmişdir.

1996-cı ildən "Azərbaycan Hava Yolları" Dövlət Konserinin baş direktorudur.

Evlidir, 2 övladı var.

### Hacı Əsgərli

Bu soyun ulu babası Əsgərdir. Əsgər XVIII yüzilin ikinci yarısında Şuşa şəhərində yaşamışdı. Ticarətlə məşğul olmuşdu. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Əsgərin Səfərəli adlı oğlu vardı.

Səfərəli 1775-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Səfərəli Gülbəslə ailə qurmuşdu. Kərim, Şükür, Tağı adlı oğlanları, Xeyrənsə adlı qızları vardı.

Kərim 1802-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Kərimin Səfərəli, Hüseyn adlı oğlanları vardı.

Səfərəli 1854-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Ailədə Qaraş çağırıldığından bu adla da tanınmışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Kərimin ikinci oğlu Hüseyn 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Səfərəlinin ikinci oğlu Şükür 1828-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Səfərəlinin üçüncü oğlu Tağı 1833-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Tağının Ağalar adlı oğlu vardı.

Ağalar 1870-ci ildə Şuşa şəhərində doğulmuşdu. Məktəb təhsili almışdı.

Ağaların Rüstəm adlı oğlu vardı.

Tağıyev Rüstəm Ağalar oğlu

(1907Ş Şuşa-3.III.1938)-keçmişdə varlı oğlu, tutulandan qabaq qulluqçu. 1922-1924-cü illərdə Azərbaycan SSR Fövqəladə Komissiyasında kuryer vəzifəsində işləmişdir. Müsavat Partiyasına 1932-ci ildə Bakıda girmişdir. 1937-ci ilin yayına qədər Müsavatın Mərkəzi Komitəsinin rayonlarla rabitəçisi vəzifəsini aparmış, onun göstərişi ilə 1932-ci, 1935-ci və 1937-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayətinə getmişdir. 1937-ci il avqustun 22-də həbs edilmiş, əmlakı müsadirə olunmaqla güllələnmə cəzasına məhkum olunmuşdur.

### Məşədi İman uşağı (Əzimovlar, Hacıyevlər, İmanovlar)

Şuşa şəhərinin Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Məşədi İman uşağıdır. Bu soyun ulu babası Imandır. İman təxminən 1771-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşhədi İman Bibixanımla ailə qurmuşdu. Əzim, Abdulla, Əsəd adlı oğlanları, Minə adlı qızı vardı.

Əzim 1791-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Rastabazarda dükan işlədirdi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Əzimin törəmələrindən bəziləri Əzimov, bəziləri Hacıyev soyadını daşıyırdılar.

Hacı Əzim Şahpəri ilə yaşam qurmuşdu. Şükür, Nəsir, Aslan, Fərəmərz, Əfrasiyab adlı oğlanları vardı.

Şükür 1840-cı ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Şükürün Məmməd, Azad adlı oğlanları vardı.

Məmməd 1868-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Ticarətlə məşğul idi.

Şükürün ikinci oğlu Azad 1870-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Əzimin ikinci oğlu Nəsir 1845-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Əzimin üçüncü oğlu Aslan 1854-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Əzimin dördüncü oğlu Fərəmərz 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Əzimin beşinci oğlu Əfrasiyab 1863-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.



Əfrasiyab Əzimov gözəl minici idi. At yarışlarında, cıdırda iştirak edirdi. Yaşlı vaxtlarında at yarışlarında jüri üzvi olmuşdu. Cəlil bəy Bağdadbəyov yazır: «Münsiflər məşhur minici Əfrasiyab, Məşədi Qasım (Küftə Qasım) və Xanlıq Səlimdən ibarət idi. Bəzi vaxt Kərbəlayı Abbas, Nəcəfqulu ağa və Kəblə Mürsəl olurdular...» (Bax: C. Bağdadbəyov, Xatirələr və etnoqrafik qeydlər, Bakı, «Qapp-Poliqraf», 2002, səh.72)

Əfrasiyab Əzimov millət sərdarı Səttar xan köməyinə yollanmışdı.

Əfrasiyab Əzimov vətənpərvər, el qədri bilən bir qəhrəman idi. 1905-1906-cı illər erməni-müsəlman qırğınlarında igidliyi sayəsində neçə-neçə günahsızı ölümdən qurtarmışdı. Mir Möhsün Nəvvab yazır: «Müsəlmanlar da bir neçə yerdə səngərlər tərtib etmişdilər. Birinci səngər Vəzirzadələrin evinin qabağında, ikinci səngər isə Hacı Həsən Qaraşirzadənin evinin içində və baş tərəfində idi. Bu səngərləri tərtib edən və onların başçısı Abbas bəy Talıb bəy oğlu idi. Üçüncü səngər isə Məşədi Kərimin və erməni Xaçatur oğlunun evləri idi. Bu səngərləri yaradan və onların rəhbəri bizim Mir İbrahim Ağamirzadə idi. Dördüncü səngər isə Ağadədəlidə idi. Onun da



böyüyü və rəhbəri Əfrasiyab Hacı Əzim oğlu idi. Beşinci səngər Təzə məhəllədə yerləşirdi. Onun rəhbəri isə Məşədi Abış Bəylər oğlu idi. Altıncı səngər isə mərhumə Gövhər ağanın evi və həyəti idi. Bu səngərin rəhbəri və istiqamətvericisi cənab Axund Molla Şükür idi»[5].

Əfrasiyab Əzimov həm «Difai», həm də «Qarabağ məclisi» təşkilatlarının fəal üzvi idi.

"Qarabağ məclisi"nin Şuşa komitəsinə doktor Kərim bəy Mehmandarov başçılıq edirdi. O, 1883-cü ildən Şuşada həkim işləyirdi. Onun köməkçisi Cahangir xan Nuribəyov idi.Komitənin katibi Şuşa qarşılıqlı-kredit bankının direktoru Xuduş Quliyev idi. İsraiyyə idarəsinəvə hərbi təşkilatına Məşədi Şamil Hacıyev başçılıq edirdi.

Komitənin üzvüləri: Muxtar bəy Muradov, İsmayıl bəy Axundov (bazar darğası), Süleyman Əsgərov (tacir), Hacı Sadıq Məmmədov, Məşədi Cəfər oğlu (İran təəbəsi), Məşədi Əhməd Əzimov, Hacı Mirzə Hüseyn Kərim oğlu Münşizadə, Əfrasiyab Əzimov, Kərbəlayı Yusif Mirsiyabov və başqaları-cəmi 18 nəfər.

1907-ci ildə Ə. Əzimovun üzv olduğu «Qarabağ məclisi»nin fəalları kütləvi tutquya məruz qaldılar. Martın 23 və 24-də Hüseyn Münşiyevi, Əfrasiyab Əzimovu, Məşədi Şamil Hacıyevi, Zülfüqar bəy Haqverdiyevi, Xuduş Quliyevi, Kazım bəy Kazımbəyovu və Məmmədcəfər Muxtarovu Şuşa həbsxanasına saldılar. Tutulanların hamısını Həştərxan quberniyasına sürgün etdilər. Məmmədcəfər Muxtarov Iran təəbəsi olduğundan onu Irana yolladılar.

Əfrasiyab sürgündən dönəndən sonra Şuşada yaşamışdı.

Əfrasiyabın Xosrov, Cümşüd, Şamil, Əmir adlı oğlanları vardı.

Xosrov Əfrasiyab oğlu 1895-ci ildə Şuşa şəhərində doğulmuşdu. Qohumu Mirzə Həsən bəy Əmirovun yardımı ilə Şuşa real məktəbə qəbul olmuşdu. Real məktəbi bitirmişdi. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına daxil olmuşdu. Müəllim işləmişdi.

---

[5] M. M. Nəvvab, 1905-1906-cı illərdə erməni-müsəlman davası, Bakı, 1993, səh.24.

Əfrasiyabın ikinci oğlu Cümşüd 1905-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Real məktəbi bitirmişdi. APİ-yə (hazırkı ADPU-ya) daxil olmuşdu. İnstitutu tamamladıqdan sonra tərcümə və jurnalistika ilə məşğul idi. Filologiya elmləri namizədi (1954) elmi dərəcəsi almışdı. 1927-ci ildə 1933-cü illədək «Gənc işçi», «Kommunist» qəzetlərində müxbir kimi çalışmışdı. Azərnəşrdə tərcüməçi kimi fəaliyyət göstərmişdi. Cümşüd Əzimovun "Tərcümə prinsipləri: Rus dilindən azərbaycan dilinə tərcümənin nəzəri məsələlərinə dair bəzi qeydlər, Bakı : Azərnəşr, 1955. - 134 s." adlı kitabı var.

Cümşüd Əzimov 1966-cı ildə vəfat edib.

Əfrasiyabın üçüncü oğlu Şamil 1915-ci ildə Şuşa şəhərində anadan olmuşdu. II Dünya müharibəsi dönəmində cəbhəyə yollanmışdı.

Şamil Əzimov 14 may 1942-ci ildə həlak olub.

Şamilin Tarıyel adlı oğlu var.



Tarıyel 16 fevral 1939-cu ildə Şuşa şəhərində doğulub. Orta məktəbi bitirdikdən sonra ADU-ya qəbul olub. S.M. Kirov adına Azərbaycan Dövlət Universitetinin mexaniki-riyaziyyat fakültəsini (1962) və aspiranturanı bitirdikdən sonra (1965) M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya Institutunun ali riyaziyyat kafedrasında asisent vəzifəsində çalışıb. 1990-1993-cü illərdə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya Institunun Şuşa filialının ümumi texniki fakültəsinin dekanı olub.

Tariyel Əzimov bir çox elmi məqaləninin, dərs və metodiki vəsaitlərin müəllifidir. Hazırda dosent vəzifəsində çalışır.

Tarıyel Əzimov fizika-riyaziyyat elmləri namizədi (1970), dosentdir (1973).



Əfrasiyabın dördüncü oglu Əmir 1917-ci ildə Şuşa şəhərində anadan olmuşdu. II Dünya müharibəsi dönəmində cəbhəyə yollanmışdı.

Əmir Əzimov 14 may 1942-ci ildə həlak olub.

***

Məşədi İmanın ikinci oğlu Abdulla 1796-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Abdullanın Fərəc, Mehdi, Abış adlı oğlanları vardı.

Fərəc 1837-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Abdullanın ikinci oğlu Mehdi 1850-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Abdullanın üçüncü oğlu Abış 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

***

Məşədi İmanın üçüncü oğlu Əsəd 1829-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Əsədin Ağalar, Bəylər, Xanlar, Cahangir, İbad, Qardaş, Əmi adlı oğlanları vardı.

Ağalar Əsəd oğlu 1870-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əsədin ikinci oğlu Bəylər 1871-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əsədin üçüncü oglu Xanlar 1876-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Xanların Sərxan, Əbülfəz adlı oğlanları vardı.

Sərxan Xanlar oğllu 1917-ci ildə Şuşa şəhərində doğulmuşdu. Sərxan İmanovun həyat salnaməsi ilə bağlı Maarif Teymur yazı hazırlayıb. Həmin yazıdan:



"Sərxan Xanlar oglu İmanovun ailəsi də qaçqınlığı məcburi hesab edərək Bakıya köçdü. Sovet ilinin, quruluşunun 4-cü ili idi. Sərxanın 7 yaşı təzəcə tamam olmuşdu. Ermənilərdən yaxa qurtarmaq üçün İmanovlar ailəsi sovet quruluşunda ilk qaçqınlardan oldu... Bakıya gələn Sərxan ilkin olaraq fəhlə fakültəsində ilk təhsilini alır, sonra isə o, keçmiş Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə - profilaktika fakültəsində daxil olur. Bu illərdə (1930-1940) həm də sovet hakimiyyətinin repressiya prinsipləri də tüğyan edirdi. Gənc Sərxan bu faciələri görərək sükutla hər şeyi qarşılayırdı. Siyasət baş alıb gedəndə, kövrək qəlbli Sərxan da susurdu. 1936-cı ildə Tibb İnstitutuna qəbul olan Sərxan 1941-ci ilə qədər təhsil aldığı fakültədə komsomol komitəsinin katibi olduğundan sovetə inanırdı və təhsilini uğurla davam etdirirdi. Nəhayət, o, 1941-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə başa vuru. Elə bu ildə də İkinci Dünya müharibəsi başlayır.

Sərxan İmanov ali təhsilli həkim kimi, könüllü olaraq birincilər sırasında cəbhəyə yola düçür. Müharibənin ilk illərində yaralanır və arxa cəbhəyə göndərilir. Cəbhədə yaralanan soydaşlarımıza arxa cəbhədə vicdanla xidmət edir.

Həkimlik onun "kəbinli arvadı", ədəbiyyat isə onun məşuqəsi olur. Sərxan müəllim hələ o illərdə yaralıları bəzən ədəbiyyatdan öyrənən təsirli misralarla müalicə edir. Tanınmış yaradıcı ziyalılarımızla yaxından əlaqə saxlayır. Klassiklərimizin yaradıcılığından təsiredici şeirləri öyrənir. S. Vurğun, S. Rüstəm, P. Qasımov, N. Hikmət, H. Mehdi və başqaları ilə əlaqə saxlayır. Bir neçə il Mərdəkan sanatoriyasında şöbə müdiri, baş həkim,



vəzifəsində çalışır. Müxtəlif xarakterli insanlarla görüşür. Dəqiq müalicəsi ilə hamının hörmətini qazanan Sərxan həkimə ixtisaslı kadr kimi 1960-1963-cü illərdə Bakı şəhər səhiyyə şöbəsinə rəhbərlik etmək tapşırılr. Sonrakı illərdə isə Respublika Həmkarlar ittifaqı kurortlar idarəsi üzrə Azərbaycan Respublikası Şurasının sədri olmuşdur. Cəmi 51 il ömür sürən Sərxan həkim respublikamızda kurort işi quruculuğunun inkişafında silinməz iz qoymuşdur. Mərdəkan kurortundan bəhs edən ilkin olaraq elmi əsər yazaraq, tibb elmləri namizədi alimlik dərəcəsi adını alır. Tibb üzrə tanınmış mütəxəssislərin dərin hörmətini qazanan Sərxan həkim sonralar bir neçə dəfə Bakı Şəhər Sovetinin deputatı seçilmişdir. Bir sıra hökümət mükafatlarına layiq görülmüşdür. Təvazökar insan, vicdanlı həkim kimi özünə və tabeliyindəki kadrlara son dərəcə tələbkar olmuş, həm də onların sosial qayğılarına yaxından kömək etmişdir. Səmimiyyəti tələbkarlığı, qayğısı ilə birləşərək ona əsl "vətəndaş – insan həkim" ləqəbi verilmişdi. Son dərəcə sadə insan olmuş Sərxan həkim özünün həyat yoldaşı həkim Reyhan xanımla birlikdə xəstələrə həmişə inam, iradə və etdikləri müalicə ilə uzun yaşam illəri bəxş etmişdilər. Bakının və respublikamızın əksəriyyəri onları tanıyır, sevir və insanıı qayğılarına hörmət edirdilər. Sərxan müəllimə, həkimə müraciət edənlərdən bəziləri onun əsil ziyalı olduğunu təsdiq edərdilər. Sərxan həkim həmişə özünün imkanlarını götür-qoy etdikdən sonra heç kimə rədd cavabı vermirdi, insanlarla ünsiyyət, səmimiyyət yaratmaqla həm Tibb Nazirliyinin, həm də ictimai-siyasi xadimlərin hörmətini qazanmışdı.

1917-ci ildə, ilk müstəqilliyimizə bir il qaldığı zaman Qarabağımızın tacı olan, Xarı Bülbül Vətənində dünyaya göz aşarkən bilmirdi ki, onun doğma ocağı bədnam qonşularının xain fikirlərinə tuş olacaq, ata-baba yurdu, bəşəri şəxsiyyət və sənətkarı olan unudulmaz Üzeyir bəyin Vətəni olan Qarabağ bu gün müvəqqəti olaraq namərd erməni dığalarının ayaqları altında olacaq... Ruhların harayı lap yaxınlarda canlılara iki qat qüvvət verərək erməni ayaqları altında olan doğma yurdumuzu, Şuşanı azad edəcək və o zaman "Şuşa, ay Şuşa" deyərək, yenə də tezliklə

İsa bulağına çatacaqlar. Yoxsa bu günlərdə anadan olmasının 90 illiyini xatırlayıarkən ruhların da mübarizəsini unutmamalıyıq. Axı, onun ruhu da bizdən inciyər...

Yaxşı təşkilatçı, səhiyyə elminin təcrübi əsaslarla həyata keçirmək səriştəsi də bu gün onu tanıyanların hafizəsindən silinmir. Dinləməyi, danışıq, dialoq aparmağı çox sevər, insanların müalicəsi ilə yanaşı onların sosial qayğılarına da yaxından kömək edərdi. Bu kimi yanaşma Sərxan həkimi yaşam illərində hamının sevimlisinə çevirmişdi.

Şuşanın abı-havasını udmuş, beşiyinin başında ata babasının "Qarabağ şikəstəsi"ni dinləmiş Sərxan İmanov böyük Üzeyirlə də yaxın qohum idi.

Eyni zamanda muğamlarımızın yanıqlılıqla pərəstişkarı olan Sərxan həkimin qızı, uzun illər onun şəxsi arxivini qoruyan Gülxan İmanova da atasının muğam ifaçılarına rəğbəti və özünün elə muğam ifaçısı olduğunu bizə çatdırır. Həkimin qızı isə indi "Mənim Şuşam" adlı kitabında həm atasının xatirəsinə, həm də vətənpərvər şeirlərinin yazması təsadüfi deyildir. Bu fikirlərdə biz, onun 1941-ci ildə könüllü olaraq Sovet məmləkətinin bizə təbliğ etdiyi "Vətənimizi" Hitler vəhşilərindən qorumağa gedibsə, əgər bu gün sağ olasydı, yəqin ki, Sərxan həkim öz doğma torpağı kimi müvəqqəti olaraq daşnakların havadarları tutulan Şuşaya qələbə inamı kimi gedərdi. Onun şəxsi arxivindəki bəzi sənədlər də bunu sübut edir. Vaxtı ilə Bülbül və Rəşid Behbudovla danışıqlarında, söhbət zamanlarında da Sərxan həkimin əsl vətəndaşı üzə çıxarmış. Elə bu məqamda yenə də Şuşa şəhərində anadan olmuş Ağayev Cəmil İbrahim oğlunun (Abay Dağlı) "Əsir ruhlar" adlı əsəri yadıma düşür. İndi Qarabağımızda, Şuşamızda, Mirzəhəsən məzarlığında ata-babalarımızın əsir ruhları bizi Sərxan həkimin Bakı şəhərindəki 2-ci fəxri xiyabandakı məzarındakı ruhu ilə birləşdirir. Ruhlar ölmür, vaxtı ilə Bülbül, Rəşid bəylə dostluq etmiş Sərxan həkimin ruhları ilə onların ruları ilə Bakıda birləşərək Vətənsevərləri, ocaqsevərli tezliklə Şuşanı daşnaklardan təmizləməyə çağırır.



51 il həyat sürdü Sərxan həkim. Az yaşasa da, çox iş gördü və əmməlləri, əsərləri, insanlığı unudulmazlar sırasında özünə yer tapdı. İşində, yaradıcılığında heç vaxt sarmadı. Şüurlu həyatında nə qazandısa, özünə ağlı, zəkası ilə qazandı. Millətinə, xalqına dərin hörməti ilə xidmət etdi. (Maarif Teymur, Təvazökar insan, vicdanlı həkim!.., "Qarabağ", 15-29 noyabr 2007-ci il, VII 20 (395)).



Sərxan Reyhan Qubad qızı Qasımova ilə ailə qurmuşdu. Elxan adlı oglu, Gülxan adlı qızı var.

Sərxanın qızı Gülxan 1947-ci ildə Bakı şəhərində anadan olub. APİ-ni (hazırkı APU-nu) bitirib. Azərbaycan Dövlət Ədəbiyyat arxivində çalışırdı. Şairədir. Şeirlərini rus dilində yazır. "Moya Şuşa" adlı kitabı 2007-ci ildə "Adiloğlu" nəşriyyatında çapdan çıxıb.

***

Əsədin dördüncü oğlu Cahangir Şuşa şəhərində doğulmuşdu.



**Qorxmaz Cahangir oğlu** 1941-ci il aprelin 17-də Bakı şəhərində anadan olub. 1958-ci ildə Bakı şəhər 199 saylı orta məktəbi bitirmişdir. 1964-cü ildə Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsini bitirib, iqtisadçı diplomu almışdır. 1964–1967-ci illərdə Moskva şəhərində SSRİ Elmlər Akademiyasının Mərkəzi iqtisadi-riyaziyyat institunun aspiranturasında təhsil alıb, 1968-ci ildə həmin institutda iqtisad

elmləri namizədi alimlik dissertasiyası müdafiə etmişdir. 1968-ci ilin yanvar ayından 1969-cu ilin mart ayına qədər Azərbaycan SSR EA Kibernetika institutunda kiçik elmi işçi işləmişdir. 1969–1971-ci illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı institutunda baş müəllim və dosent vəzifələrində çalışmışdır. 1971-ci ilin sentyabrında yenidən Azərbaycan EA Kibernetika institutuna baş elmi işçi vəzifəsinə gəlmişdir. 1975–ci ildə SSRİ EA Mərkəzi iqtisadi-riyaziyyat institunda iqtisad elmləri doktorluq dissertasiyasını müdafiə etmişdir. 1974–cü ilin avqust ayından 1987–ci ilin dekabrına qədər Kibernetika institutunda laboratoriya və sonra şöbə müdiri vəzifəsində çalışmışdır. 1983–cü ildə iyun ayından professor elmi adına və 1984–cü ildə elm sahəsində Azərbaycan SSR Dövlət mükafatı adına layiq görülmüşdür. 1987–1993-cü illərdə Azərbaycan Dövlət Plan Komitəsinin və sonralar İqtisadiyyat Nazirliyinin Elmi–tədqiqat İqtisadiyyat institutunun müdiri vəzifəsində çalışmışdır. 1993–1998–ci illərdə Rusiya Elmlər Akademiyasının Bazar problemləri institutunda çalışmışdır. 1999–2000–ci illərdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyində baş müşavir vəzifəsində çalışmışdır. 2001–ci ildən hal-hazırki dövrə qədər AMEA Kibernetika İnstitutunda, əvvəllər baş elmi işçi və laboratoriya rəhbəri vəzifəsində çalışır.

145-dən artıq elmi əsərləri, o cümlədən 30-dan artıq xaricdə məqaləsi nəşr etdirilmişdir. 28 - elmlər namizədi yetişdirmişdir.

Ailəlidir. İki övladı var.



### Tahir İmanov

Tahir Qorxmaz oğlu 13 dekabr 1974-cü ildə Bakı şəhərində anadan olub.

1981 – 1991-ci illərdə Bakı şəhəri 189 saylı məktəbdə oxuyub.

1991-ci ildə Azərbaycan Dövlət İqtisad İnstitutuna qəbul olub və 1996-cı ildə



həmin institutu bitirib. İxtisası: Iqtisadçı.

1991-ci ildən "Bakılı oğlanlar" ŞHK komandasının üzvüdür. 1992-ci ildə ŞHK çempionu, 1995-ci ildə ŞHK "Yay Kubokunun" sahibi və 2000-ci il ŞHK "Əsrin Çempionu" olmuşdur.

2001-ci ildə "Planet Parni iz Baku" KVN Teatrını yaradıb. Hal hazırda həmin teatrın bədii rəhbəri və rejissorudur.



### Cabir İmanov

Cabir Qorxmaz oğlu 22 iyun 1976-cı ildə Bakı şəhərində anadan olub.

1983 – 1993-cü illərdə Bakı şəhəri 189 saylı məktəbdə oxuyub.

1993-cü ildə Azərbaycan Dövlət İqtisad İnstitutuna qəbul olub və 1997-ci ildə həmin institutu bitirib.

1999-cu ildə Bakı Dövlət Universitetinə qəbul olub və 2003-cü ildə həmin universiteti bitirib. İxtisasları: Iqtisadçı, hüquqşünas.

1992-ci ildən "Bakılı oğlanlar" ŞHK komandasının üzvüdür.

1992-ci ildə ŞHK çempionu, 1995-ci ildə ŞHK Yay Kubokunun sahibi və 2000-ci il ŞHK "Əsrin Çempionu" olmuşdur.

2001-ci ildə "Planet Parni iz Baku" KVN Teatrını yaradıb. 2001-ci ildən "Planet Parni iz Baku" KVN Teatrının aktyorudur.

***

Əsədin beşinci oğlu İbad Şuşa şəhərində anadan olmuşdu.

İbadın Şəmsəddin, Tağı adlı oğlanları vardı.

Azərbaycan musiqi alətləri sırasında klarnetin adı yoxdur. Necə ki, qarmonla qaboyun, gitaranın, piano və skripkanın. Lakin zaman axarında bu əcnəbi alətlərin dilini bilən sənətkarlarımız ərsəyə gəlmiş, bənzərsiz ifaları ilə xalqın sevgisini qazanmış, bu

alətləri də bir növ "milliləşdirmişlər". Kamil Cəlilovun qaboyda ifa etdiyi - "Bayatı kürd"ü, Rəmişin gitarada yanıqlı "Segah"ı, Zaur Əliyevin pianoda "Hümayun"u, Teyyub Dəmirovun qarmonda "Bayatı Qacar"ı unudulmazdır. Bu sənətkarların adlarını xalqımız bu gün də iftixarla çəkir, ifalarını sevərək dinləyirlər. Belə sənətkarlardan biri də mahir klarnet ifaçısı, sağalığında adı əfsanəyə dönmüş Şəmsəddin (Şəmsi) İbad oğlu İmanovdur.



Həyata Şəmsəddin kimi gəlmişdi. Bir sənətkar ömrünü yaşatmaq üçün bir insan ömrünü girov qoydu. Milli musiqi tariximizdə ad qazandı. Şəmsi adı necə rəsmi "siyahı"dan pozulsa da, (səbəbi bu gün də məlum deyil) milli musiqi tariximizə qızıl hərflərlə yazıldı və heç zaman pozulmayacaq. El arasında ustad sənətkar kimi ad qazandı. Əsl sənətkar ömrünün yaşadığı illərlə deyil, qəlblərdə yaşayacaq zamanla ölçüldüyünün bir daha şahidi olduq. Sağlığında fəxri ad almasa da, xalqın sevimlisi adına çoxdan layiq görülmüşdü. Düz 40 il dövrünün ən dəbdə olan klarnet ifaçısı oldu. Neçə-neçə gənc ailələrin səadət karvanlarını kövrək "Vağzalı"sıyla yola saldı. Neçə cavanların qəlbində toy həvəsi oyatdı. Neçə ağsaqqal və ağbirçəklərimiz bu havayla dünənini yada salıb kövrəldi. Dost-tanış məclislərində daim sayılıb-seçilənlərdən oldu. Lakin nə biləydi ki, qarşıda onu nələr gözləyir... Tanrı bütün verdiklərinin əvəzini çıxacaq.

Adətən qəlbi yaradıcılıq eşqi ilə döyünən insanlar həyatda çox yaşamırlar. Şəmsi İmanov da istisna olmadı. O cəmi 67 il ömür sürdü. Yaşasaydı, bu gün ustad sənətkarın 82 yaşı olacaqdı. Ömrünü milli musiqimizin təbliğinə həsr edən sənətkarın ifasında lentə



alınmış "Kolxoz rəqsi", "Xançobanı", "Tərəkəmə", "Vağzalı", "Sülh rəqsi", xalq mahnılarından "Laçın", "Tut ağacı", muğamlardan "Bayatı-Şiraz", "Çahargah", "Segah", eləcə də bəstəkar mahnıları və digər musiqi nümunələri radionun qızıl fondunda hörmətlə qorunub saxlanılır.

Şəmsi öz ifaçılıq məziyyətləri və şirin, ürəyəyatımlı ifasıyla digər həmkarlarından seçilirdi. Çünki bu ifalarda xalqın ruhu vardı. O, daim xalqı və ᶜ elədi, xalqa güvəndiyi üçün xalq da onu sevdi. Onun yaradıcılıq dövrü sənətin çiçəkləndiyi bir zamana təsadüf etdi. Bu dövrdə səhnəyə çıxmaq, parlamaq çox çətin idi...

Şəmsi İmanov 1930-cu il iyulun 2-də ölkəmizin dilbər guşələrindən biri, qədim mədəniyyət mərkəzi və musiqi beşiyi sayılan Şuşada anadan olmuşdur. Kiçik yaşlarından musiqiyə həvəs göstərən Şəmsəddinin ailəsində musiqi ilə məşğul olan olmasa da, İbad kişinin muğam sənətinə xüsusi rəğbəti vardı. Bəlkə elə bu səbəbdən də, şəhərin bir çox tanınmış musiqiçiləri onunla dostluq etmiş, evinin qonağı olmuşlar. Görünür, musiqi əhlinə olan belə doğma münasibət balaca Şəmsəddinə də sirayət etmişdi. Şəmsi beş yaşındaykən ailəsi ilə birlikdə Bakının Xilə (Əmircan) kəndinə köçür. Atası ona musiqi təhsili verə bilməsə də, bu yoldan çəkindirməyə də bir o qədər səy göstərmir. Evdə hər dəfə sənətdən söz düşəndə İbad kişi həmişə - "Əgər uşağın həvəsi və qabiliyyəti varsa, gec-tez özünü büruzə verəcək, o özünə yol aça biləcək" - deyərdi. Elə də oldu. Əmircanın musiqi mühiti, kənd mədəniyyət evində tez-tez düzənlənən teatr tamaşaları balaca Şəmsəddinin musiqi zövqünü, sənət təxəyyülünü formalaşdırır. Mahir ifaçı kimi ad çıxarmış kəndin və ətraf qəsəbə toylarının aparıcı klarnetçalanı olan Kərim Şərifin kiçik qardaşı Tofiqlə dostluq edir. Hər iki dostun ilk sənət müəllimi də elə Kərim Şərifin özü olur. Klarnet, balaban ifaçılığına olan sonsuz maraq hər iki dostu bir-birinə daha sıx bağlayır. Dostlar müntəzəm olaraq bir-birinin evinə gedər, yorulmaq bilmədən məşq edərdilər. Çox qısa zamanda öz fitri istedadı və qabiliyyəti sayəsində gənc Şəmsəddin bir ifaçı kimi özünü təsdiqləyir. Ara-sıra kənd camaatı onu da toy-nişan

şənliklərinə dəvət edir. Yenicə tanınmaqda olan gənc sənətçi çox çəkmir ki, 1950-ci ildə hərbi xdmətə çağırılır. Lakin hərbi hissədə də sevimli alətindən əl çəkmir. Hərbi hissənin nəfəsli alətlər orkestrində çalışır. Not savadı olmasa da, orkestr rəhbəri gəncin fitri istedad və qavrama qabiliyyətini, eləcə də peşəkar ifaçılığını nəzərə alaraq bir çox əsərlərin solo ifaçısını Şəmsəddinə tapşırır. Zaqafqaziya ümumqoşun hərbi hissə musiqi kollektivləri arasında keçirilən bir çox müsabiqə və festivallarda Şəmsəddin İmanov uğur qazanaraq hərbi hissə komandanlığının fəxri fərman və təşəkkürnamələrini alır. Notlu əsərlərlə yanaşı, ona ən çox populyarlıq gətirən milli musiqi, xalq mahnıları ifaçılığı olur. 1952-ci ildə hərbi xidməti uğurla başa vuran Şəmsi o dövrdə bir çox ustad klarnet ifaçıları ilə tanış olur. Suliddin İsmayılov, Nəsrulla Səmədov, Nadir Axundov, Bəhruz Zeynalov və digər tanınmış klarnet ifaçılarının lent yazılarına dönə-dönə qulaq asıb. Hər xırda xalı, nəfəsi öyrənməyə cəhd edir.

Günü-gündən sənətdə püxtələşən Şəmsəddin İmanov sənətdə arxayınçılığa yol vermir. Musiqi təhsili olmasa da, tanınmış sənətkarların ifaları onun üçün əsl məktəb, örnək olur. "İzlə gedənin izi qalmaz" - deyə düşünən gənc ifaçı bu ifalardan çox şeyi əxz etsə də, həyatda öz yolunu, öz çalğı üslubunu tapmağa çalışır. Gənc ifaçının xoş əks-sədası tezliklə Bakıya da gəlib çatır. Və o, ilk dəfə olaraq 1956-cı ildə radionun fondu üçün səs yazılışına dəvət alır. O günü onun ifa etdiyi "Kolxoz rəqsi" və "Xançobanı" oyun havaları bədii şura tərəfindən razılıqla qarşılanaraq radionun qızıl fonduna daxil edilir. Sənətinə verilən belə yüksək dəyər gənc ifaçını daha da ruhlandırır. Tez-tez radioda səsləndirilən bu ifalar onu bütün respublikaya tanıdır. Bu ifalar çeviklik və oynaqlığı ilə digər çalğılardan seçilir. Və ilk dəfə olaraq xalq ona Şəmsi, çaldığı üsluba isə "Şəmi yolu" adını verir. Bu yolun davamçıları günü-gündən artır. Onlardan biri də aramızdan vaxtsız getmiş, sağlığında elə Şəmsi qədər hörmət və şöhrət qazanmış xalq tərəfindən sevilən Əşrəf Əşrəfzadə olur. Sonralar bu yolun davamçıları İsrafil Əzimov, Məmmədağa Umudov, Hacı Həmidoğlu və bir çox digər ifaçılar



olur. Təkcə bənzərsiz ifasıyla deyil, ailəyə, sənət dostlarına olan sədaqəti ilə də ad qazanmış Şəmsi İmanov uzun illər Hacıbaba Hüseynov, Əlibaba Məmmədov və digər sənətkarlarla yaradıcılıq əlaqələri saxlasa da, özünü təsdiq edən gündən daha çox Abbas Abbasov (qarmon), Mübariz Atayev (balaban) Məmməd və Hüseynağa Mirzəyev qardaşları (nağara) ilə sənət dostluğu saxlamış və ömrünün sonuna kimi bu dəstəyə rəhbərlik etmişdir.

Az müddət - cəmi bir il sonra, 1957-ci ildə ikinci dəfə radioya dəvət olunan Şəmsi İmanov "Bayatı-Şiraz" muğamı və "Vağzalı" havasıyla hamını heyran edir. Bu gün radionun fondunda şöhrətli sənətkarın müxtəlif illərdə lentə alınmış "Tiflisi", "Bakı", "Qazağı", "Tərəkəmə", "Dostluq", "Sülh" rəqsləri və digər oyun havalarıyla yanaşı özünün bəstələdiyi "Bəxtiyarı", "Şəbnəmi", "Mərdəkanı", "Sabirabadı", eləcə də əziz qardaşı Arifin xatirəsinə həsr etdiyi "Arifi" kimi rəqslərilə bərabər çoxsaylı bəstəkar və xalq mahnıları, ulu muğam sənətinin nümunələri - "Cahargah", "Segah", "Bayatı-Şiraz" hörmətlə qorunub saxlanılır. Şəmsi sənətinin fanatları tərəfindən radionun fonduna 220 dəqiqəlik toy ifaları da təqdim edilmişdir. Şəmsi İmanovun yaradıcılığında önəmli yer tutan illərdən biri də 1960-cı il olur. Həmin ildə ailə qurur, elə həmin ildə Bakıya köçür, Müslüm Maqomayev adına Dövlət Filarmoniyası nəzdində Ağası Məşədibəyovun rəhbərlik etdiyi "Azərbaycan təranələri" ansamblına solist-ifaçı kimi işə qəbul edilir. Dövrün ən ustad ifaçıları Xan Şuşinski, Zülfü Adıgözəlov, Seyid Şuşinski, Şövkət Ələkbərova, Rübabə Muradova, Aşıq Pənah, Aşıq Şakir, İldırım Həsənov, Əlibaba Məmmədov, Canəli Əkbərov, Tələt Qasımov və digər xanəndələrin tərəf-müqabili olaraq konsert və qastrol səfərlərində onları müşayət edir. 60-cı illərin sonunda ustad sənətkar radioda olan lent yazılarını bir daha yeni nəfəs və üslub çalğısıyla daha da təkmilləşdirərək tam yeni ifa tərzində lentə aldırır.

1965-ci il xüsusilə yadda qalır. Radio komitənin sədri İsrafil Nəzərov görkəmli xanəndə pedaqoq Seyid Şuşinskini son mənzilə yola salarkən ondan bir muğam parçası çalmağı xahiş edir. Sədrin

sözündən çıxa bilməyən Şəmsinin göz yaşlarıyla ifa etdiyi yanıqlı "Segah"ın o günün iştirakçısı olmuş sənət dostları indi də xatırlayırlar. Daim tar-kamanla oxuyan Xan Şuşinski o gün bu ifaya dözə bilməyib yanıqlı bir "Qarabağ şikəstəsi" oxuyur.

1973-cü ildə Ümumittifaq "Melodiya" səsyazma studiyası Şəmsi İmanovun ifasında on iki musiqi nömrəsini vala köçürərək böyük tirajla SSRİ məkanında satışa çıxarır. Əl-əl gəzən bu valları çox qısa zamanda yayılaraq sağlığında özü gəzə bilmədiyi ölkələri dolaşır, İttifaq sərhədlərini aşır. Şəmsi İmanov sənətinə çox böyük dəyər verən Ərəbistan mətbuatı onun sənətini ölkənin ən hündür Şəmistan dağına bənzədir. O, öz bənzərsiz ifasıyla milli musiqimizin və ölkəmizin adını elə dağlar qədər də ucaldır.

Barmaqların yaratdığı möcüzələr, şirin çalğısı qəlblərə hakim kəsilir. Ustad sənətkarın ecazkar musiqisi təkcə toy və konsert salonlarında deyil, şəhərin park və xiyabanlarında da tez-tez səslənir. 1978-ci ildə Azərbaycan Konsert Birliyi yaradılarkən Filarmoniyanın əksər musiqi kollektivləri kimi Şəmsi İmanovun çalışdığı "Azərbaycan təranələri" ansamblı da birliyin tabeçiliyinə verildi, - deyə o günləri yada salan uzun illər "Azkonsert" Birliyinə rəhbərlik etmiş İldırım Qasımov Şəmsinin bütün konsertlərininin daim anşlaqla keçdiyini dedi. Adı ansambl tərkibində olsa da, konsertlərdə o daim solist kimi çıxış edərdi - deyə sözünə davam etdi. Təbiəti kimi musiqisi də çevik və oynaq idi. Belə adamlar daha çox sərbəstliyə meyl edirlər. Ansambl isə, özü demiş, onun üçün bir qəlib idi. O isə heç bir qəlibə sığan sənətkar deyildi. Bu gün ustad xanəndələrin çoxu gənclik illərində Şəmsi İmanovla birgə konsertlərdə çıxış etmələrini özlərinə şərəf bilirdilər.

1987-ci ildən başlayaraq, Şəmsi İmanovun səhhətində müəyyən fəsadlar müşahidə olunur. Barmaqları fəaliyyətindən qalmağa başlayır. Ölkənin ən tanınmış təbibləri müalicə üçün Almaniyaya getməyi məsləhət görsələr də, çox təəssüf ki, irəli düşüb bu işi öhdəsinə götürən nə imkanlı şəxslər, nə də aidiyyatı olan qurumular tapılır. Daim sənət meydanında üzdə olan sənətkara daxilində çağlayan melodiyaları ifa edə bilməməsi çox əzab verir. Lakin o, nə zəmanəni, nə də hakimləri qınayır. - "Bu mənim alın yazımdır, bunu belə yaşamalıyam" - deyə taleyi ilə barışır. Onun daxilində qəmli bir ney çalınırdı. Barmaqlarının hərəkətsiz qalması onu həm fiziki, həm də ruhən sarsıdırdı. Tanınmış alim Rəfael Hüseynovun müsahibəsinin sonunda: - Əgər bir daha imkan olsaydı, son dəfə hansı havanı ifa edərdiniz? - sualına Şəmsi bir an fikirləşmədən - "Sabah gəlin köçəcək qız-gəlinlərimizə - "Vağzalı çalardım" - demişdi. Nə yazıq ki, sənətkarın bu arzusunun reallaşması üçün Tanrı ona həyat sevgisi ilə dolu ürək versə də, onu ifa edə biləcək barmaqları vermədi. 1995-ci ildə sentyabrın 29-da, yaxın qohum-əqrəbası və sənət dostlarının iştirakı ilə sevimli sənətkarın anadan olmasının 65 illik yubiley tədbiri keçirirlər. Yubiley tədbirində respublikanın tanınmış elm, sənət adamları iştirak edir. Tədbir həvəskarlar tərəfindən lentə alınsa da, təəssüf ki, bu günümüzə gəlib çatmayıb. İki dəfə infarkt keçirən sənətkar möhtəşəm yubiley tədbirindən iki il sonra elə özünün növbəti ad gününün səhəri 1997-ci il iyul ayının 3-də dünyasını dəyişir. Əslində bizdən ayrılan onun yalnız cismi oldu. Özü isə əfsanəyə dönüb qəlblərdə əbədi məskən saldı.

Əsədin altıncı oğlu Qardaş Şuşa şəhərində anadan olmuşdu. Qardaşın Rafiq adlı oğlu var.

İmanov Rafiq Qardaş oğlu (1939, Bakı) - idmançı, boks üzrə Beynəlxalq dərəcəli hakim, «SSRİ-nin fəxri idman ustası», milis polkovniki. S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu (1961) və S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini (1968) bitirmişdir. İdmanla orta məktəbdə oxuyarkən «Dinamo» Könüllü İdman Cəmiyyətində məşğul olmağa başlamış, yeniyetmələr və gənclər arasında öz çəki dərəcəsində respublikanın ən güclü boksçuları sırasında olmuşdur. İnstitutda oxuduğu illərdə də bir çox mö'təbər yarışlarda çıxış etmiş, dəfələrlə Azərbaycan çempionu adına layiq görülmüş, Orta Asiya, Qazaxıstan və Azərbaycan respublikaları turnirinin (1959), Ümumittifaq tələbə oyunlarının (1961) və bir çox beynəlxalq turnirlərin qalibi olmuşdur. İnstitutu bitirəndən sonra o,

«Burevestnik» Könüllü İdman Cəmiyyətinə məşqçi-müəllim vəzifəsinə tə'yin edilmiş, az müddətdə bir çox idman ustaları yetişdirmişdir.

1969-cu ildə Azərbaycan SSR Daxili İşlər Nazirliyi orqanlarına işə keçən Rafiq İmanov Bakının Suraxanı (1982-1986) və Səbayel (1986-1988; 1992) rayonları milis idarəsinin rəisi vəzifələrində çalışmışdır.

Rafiq İmanov uzun illər Azərbaycan Boks Federasiyasının vitse-prezidenti və icra komitəsinin üzvü olmuşdur. «Qırmızı Ulduz» ordeni (1977), «Milis ə'laçısı» döş nişanı və müxtəlif Fəxri fərmanlarla təltif edilmişdir. Hazırda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında baş hüquqşünas vəzifəsində işləyir.





## Hacı Hüseynəli uşağı (Şəfiyevlər)

XVIII yüzildə Təbrizli məhəlləsində Hüseynəli adlı ünlü bir kişi dövran sürürdü. Söz içində savı, söhbət əsnasında savadı ilə seçilirdi. Saraya yaxın, İbrahimxəlil xan Sarıcalı-Cavanşirə mehriban idi. Nəvələrinin söyləmələrinə görə, İbrahimxəlil xan ona iki kənd bağışlamışdı. Bu iki kənd sayəsində xeyli varlanmışdı. Müqəddəs Məkkəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı Hüseynəlinin Şəfi adlı oğlu vardı.

Şəfi 1792-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi.

Məşədi Şəfi bir müddət Təbrizli məhəlləsinin deputatı olmuşdu.

Məşədi Şəfinin törəmələri Səfiyev soyadını daşıyırlar.

Məşədi Şəfi Həlimə ilə ailə qurmuşdu. Mirzə, Hacı, Kazım, Fərəc, Şükür adlı oğlanları, Mələk və Zəri adlı qızları vardı.

Mirzə 1825-ci ildə Şuşa şəhərində doğulmuşdu. Ticarətlə məşğul idi.

Mirzə 1853-cü ildə vəfat etdi.

Mirzənin Tağı adlı oğlu, Əzizə adlı qızı vardı.

Tağı 1852-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Bir yaşında atasını itirmiş, əmisi Məşədi Hacının himayəsində böyümüşdü. Ticarətlə məşğul idi. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi.

Məşədi Tağı Məşədi Fatma Məşədi Həzi qızı ilə yaşam qurmuşdu. Rza, Zülfüqar, Musa, Əmir, Teymur, Fərhad adlı oğlanları, Püstə, Sayad, Ziba və Səltənət adlı qızları vardı.

Rza 1882-ci mayın 25-də Şuşa şəhərində dünyaya göz açmışdı. Qaryagin (indiki Füzuli) şəhərində yaşayırdı.

Rzanın Böyükkişi, Əbülfət adlı oğlanları var.

Məşədi Tağının ikinci oğlu Zülfüqar Şuşa şəhərində dünyaya pənah gətirmişdi.

Məşədi Tağının üçüncü oğlu Musa Şuşa şəhərində dünyanı tanımışdı.
Musanın Əhəd adlı oğlu var.
Məşədi Tağının dördüncü oğlu Əmir Şuşa şəhərində dünyaya təşrif gətirmişdi.
Məşədi Tağının beşinci oğlu Teymur Şuşa şəhərində dünyaya təşrif buyurmuşdu.
Məşədi Tağının altıncı oğlu Fərhad Şuşa şəhərində anadan olmuşdu.

***

Məşədi Şəfinin ikinci oğlu Hacı 1832-ildə Şuşa şəhərində doğulmuşdu. Atası ona babasının, Hacı Hüseynəlinin adını qoymuşdu. Sonradan «Hacı» kimi tanınırdı. Ticarətlə məşğul idi. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi.
Məşədi Hacı Seyid Nisə Seyid Həsən qızı ilə həyat qurmuşdu. Qara, Süleyman, Dadaş, Novruz, Adışirin adlı oğlanları, Fatma adlı qızı vardı.
Qara Şuşa şəhərində dünyaya gəlmişdi. Ticarətlə məşğul olurdu. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi.
Məşədi Qara sonsuz vəfat edib.
Məşədi Hacının ikinci oğlu Süleyman Şuşa şəhərində dünyaya göz açmışdı. Ticarətlə məşğul idi. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi.
Məşədi Süleyman Humay xanım Qaryağdı ilə ailə qurmuşdu. Bəylər adlı oğlu, Ayna və Nüşabə adlı qızları vardı.
Bəylər 1910-cu ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi. Orta məktəbi bitirdikdən sonra, Azərbaycan Sənaye İnstitutuna qəbul olunmuşdu. Oranı bitirdikdən sonra mühəndis-memar vəzifəsində çalışmışdı.
Bəylər Nina Aleksandrovna ilə həyat qurub. Albert adlı oğlu var.
Albert hazırda Sankt-Peterburqda yaşayır. Atom fizikası üzrə görkəmli mütəxəssis olub. Təqaüddədir.



Albertin Aleksandr adlı oğlu var.
Məşədi Hacının üçüncü oğlu Dadaş Şuşa şəhərində dünyanı tanımışdı. Ticarətlə məşğul idi. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi.
Məşədi Dadaş Kərbəlayı Fərəc qızı Bilqeyslə həyat qurmuşdu. Bəşir, Kərim adlı oğlanları, Şəndə, Kübra, Sara və Suqra adlı qızları vardı.
Məşədi Hacının dördüncü oğlu Novruz Şuşa şəhərində dünyaya pənah gətirmişdi. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.
Məşədi Novruz Müsavat partiyasının fəal üzvlərindən idi.
Məşədi Novruz Şəfiyev repressiya olunub.
Məşədi Novruz Hacı Bağır qızı Sürəyya ilə evlənmişdi. Talıb, Şəmil, Bəbir, Cəlil adlı oğlanları, Yaqut, Südabə və Mahirə adlı qızları vardı.
Talıb 1902-ci ildə Şuşa şəhərində dünyanı tanımışdı. Orta məktəbi bitirdikdən sonra Bakı Tibb Texnikumuna daxil olmuşdu. Uzun illər stomatoloq işləmişdi.
Talıb 1972-ci ildə vəfat edib.
Talıb Süleyman qızı Ayna ilə həyat qurub. Sevda adlı qızı var.
Sevda Bakı şəhərində doğulub. Orta məktəbi bitirdikdən sonra ATİ-yə qəbul olunub. İnstitutu tamamladıqdan sonra fizioterepevt işləyib. Hazırda təqaüddədir.
Məşədi Novruzun ikinci oğlu Şəmil 1904-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. İlk təhsilini başa vurandan sonra Bakıya köçmüşdülər. Azərbaycan Sənaye İnstitutuna qəbul olunmuşdu. İnstitutu tamamlayandan sonra mühəndis-memar işləmişdi.
Şəmil Aslan qızı Şükufə ilə yaşam qurub. Zakir, Aydın adlı oğlanları, Leyla və Zöhrə adlı qızları var.
Zakir 1941-ci ildə Bakı şəhərində dünyaya göz açmışdı. 150 nömrəli məktəbi bitirdikdən sonra APİ-yə daxil olmuşdu. İnstitutun fizika-riyaziyyat fakültəsini tamamladıqdan sonra BXMŞ-nin rəisi,

Kirov (Binəqədi) rayon Xalq Maarif şöbəsinin müdiri vəzifələrində işləmişdi.

Zakir 1993-cü ildə vəfat edib.

Şəmilin ikinci oğlu Aydın 1952-ci ildə dünyanı tanıyıb. 150 nömrəli məktəbi bitirdikdən sonra ATİ-yə girib. İnstitutun stomatologiya fakültəsini tamamladıqdan sonra 3 nömrəli poliklinikada həkim-stomatoloq işləyir.

Məşədi Novruzun üçüncü oğlu Bəbir 1910-cu ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi. İlk təhsilini orda alandan sonra ailəsi ilə birgə Bakıya köçmüşdü. Orta məktəbi bitirəndən sonra Azərbaycan Sənaye İnstitutuna daxil olmuşdu. İnstitutu tamamlayandan sonra neft mühəndisi işləmişdi. Sonra təşkilatçı-müdir vəzifəsində çalışmışdı. Ömrünün sonlarına yaxın "Buzovnaneft"in əsaslı təmir idarəsinin baş rəisi vəzifəsində işləmişdi.

Bəbir respublikanın əməkdar neftçi-mühəndisi fəxri adına layiq görülmüşdür.

Bəbir Tamara Məşədi Paşa qızı Əliyeva ilə həyat qurmuşdu. Rauf adlı oğlu, Sənubər adlı qızı var.

Rauf Bəbir oğlu Şəfiyev (02.08.1937-30.07.1999) - mühəndis, görkəmli idman xadimi, Azərbaycanda sambo və cudonun banilərindən biri.



Rauf Şəfiyev 1937-ci ildə Bakıda anadan olmuşdur. 1955-1960-cı illərdə Azərbaycan Neft və Kimya İnstitunda təhsil almış və ömrü boyu mühəndis kimi müxtəlif idarə, təşkilat, istehsalat və elmi-tədris mərkəzlərində işləmişdir. Mühəndislikdən başqa R.Şəfiyev bir sıra institutlarda dərs demiş və mühazirələr oxumuşdur. Bir sıra elmi məqalələrin müəllifidir. Azərbaycanın "Bilik" cəmiyyətinin fəal üzvü olmuşdur. 1997-ci ildə "Əmək veteranı" medalı ilə təltif olunmuşdur.



Əsas peşəsi ilə yanaşı, idmanla da məşqul olmuş, öz səylərini sambo və cudo kimi güləşmə növlərinin Azərbaycanda yaradılması və inkişafına yönəltmişdi. 50-60-cı illərdə sambo üzrə keçirilən müxtəlif turnirlərdə, Ümumittifaq və respublika birinciliklərində daim fəxri kürsünün yüksək pilləsinə qalxmış, medal və diplomlara layiq görülmüşdür.

Onun idmanda əldə etdiyi ən böyük uğurlar isə məşqçilik və hakimlik fəaliyyəti ilə bağlı olmuşdur. Məşqçilik fəaliyyətini 1959-cu ildə Bakı Dənizçilik Məktəbində başlayan R.Şəfiyev sonralar "Vodnik", "Məhsul" və "Dinamo" idman cəmiyyətlərində fəaliyyət göstərmişdi. Azərbaycanda cudo üzrə ilk idman ustası Sahib İsmayılov və Ümumittifaq turnirin ilk azərbaycanlı qalibi Ələkbər İsmayılov məhz R.Şəfiyevin yetirmələridir. Sambo üzrə respublikanın tanınmış idman xadimi Firdovsi Tağıyev R.Şəfiyevin yetişdirdiyi ilk idman ustası olmuşdur. Bundan başqa, digər tanınmış sambo və cudo ustaları və məşqçiləri - Əli Davrişev, Zaur Məmmədov, Sergey Seleznyov, Maarif Həsənov və digərləri R.Şəfiyevin şakirdləri olmuşlar. R.Şəfiyev 1965-1973-cü illərdə sambo üzrə Azərbaycan yığma komandasının məşqçisi olmuşdur.

Məşqçilik fəaliyyəti ilə yanaşı, respublika Ümumittifaq turnirlərində, çempionatlarında hakimlik etmişdir. Respublika və Beynəlxalq dərəcəli hakim olan Rauf Şəfiyev 1991-ci ildə Azərbaycanın əməkdar məşqçisi, 1992-ci ildə Rusiya Federasiyasının əməkdar məşqçisi fəxri adlarına layiq görülmüş, 1993-cu ilin may ayında Beynəlxalq Sambo Məşqçiləri İttifaqına üzv qəbul olunmuşdur.

2000-ci ildən etibarən Azərbaycanın "Dinamo" idman cəmiyyəti nəzdində yeniyetmələr arasında R.Şəfiyevin xatirəsinə həsr olunmuş cudo turniri keçirilir.

Rauf Kübra Mehdi qızı Hüseynova ilə yaşam qurub. İki oğlu var.

Məşədi Novruzun dördüncü oğlu Cəlil 1920-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Bakı şəhərində orta məktəbi bitirəndən sonra rəssamlıq məktəbinə daxil olmuşdu. Məktəbi tamamladıqdan sonra rəssamlıqla və foto sənəti ilə məşğul olmuşdu.

Cəlil 1980-ci ildə vəfat edib.

Cəlil Heydər qızı Rəisə ilə ailə qurmuşdu. Fikrət adlı oğlu, Fəridə adlı qızı var.

Məşədi Hacının beşinci oğlu Adışirin Şuşa şəhərində dünyaya təşrif gətirmişdi. Ticarətlə məşğul idi. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi.

Məşədi Adışirinin İmran, Hilal, Asif, İslam adlı oğlanları, Məryəm, Nisə və Soltanə adlı qızları vardı.

Məşədi Adışirinin ikinci qızı Nisə 1924-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Azərbaycan SSR-nin əməkdar müəllimi (1966). 1941-ci ildə Şuşa şəhər 1№li orta məktəbini və Şuşa İkiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsini (1943) bitirmişdir. Əmək fəaliyyətinə Şuşa uşaq evində başlamış, sonra yeddiillik şəhər məktəbində və 4№li orta məktəbdə (1955-1980) işləmişdir. Qəhrəman ana, əmək veteranıdır. "Qələbənin 40 illiyi" medalı ilə təltif edilmişdir.



Məşədi Şəfinin üçüncü oğlu Kazım 1833-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Kazımın Hüseyn, Ağca adlı oğlanları, Aftab adlı qızı vardı.

Hüseyn 1869-cu ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Kazımın ikinci oğlu Ağca 1874-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Ticarətlə məşğul idi. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi.

* * *



Məşədi Şəfinin dördüncü oğlu Fərəc 1840-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında ibtidai təhsil almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Fərəcin Salman, Məhəmməd adlı oğlanları, Bilqeyis və Gülsabah adlı qızları vardı.

Salman Şuşa şəhərində doğulmuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi.

Məşədi Salmanın Ramazan adlı oğlu, Gülsüm və Ağca adlı qızları vardı.

***

Məşədi Şəfinin beşinci oğlu Şükür 1841-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Məkkəyi-müşərrəfi ziyarət etmişdi.

Hacı Şükür Ayba xanımla ailə qurmuşdu. Əli, Aslan adlı oğlanları, Zəhra, Xanım adlı qızları vardı.

Əli 1865-ci ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Əli Məşədi Tağının qızı Püstə və Zəri ilə dünya evinə girmişdi. Məhəmməd, Hacı, Şirin, Səməd, Əbülfət, Tələt, Sabir adlı oğlanları, Afərim, Rübabə, Teyrubə və Məhbubə adlı qızları var.

Məhəmməd Şuşa şəhərində dünyaya gəlmişdi.

Kərbəlayı Əlinin ikinci oğlu Hacı Şuşa şəhərində dünyaya göz açmışdı.

Kərbəlayı Əlinin üçüncü oğlu Şirin Şuşa şəhərində dünyanı tanımışdı.

Kərbəlayı Əlinin dördüncü oğlu Səməd 1914-cü ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi. İbtidai təhsilini alandan sonra, 1932-ci ildə Bakı şəhərinə köçmüşdü. Orta məktəbi bitirib, APİ-nin tarix fakültəsinə daxil olub. İnstitutu tamamladıqdan sonra Azərbaycanın bir sıra rayonlarında müəllim və direktor vəzifəsində işləyib. 1962-ci ildə respublikanın əməkdar müəllimi adına layiq

görülür. Sumqayıt şəhər PK-nin II katibi vəzifəsində fəaliyyət göstərmişdir.

Səmədin Arif adlı oğlu, Zemfira, Elmira adlı qızı var.

Arif Bakı şəhərində anadan olub. Orta təhsilini bitirdikdən sonra ali məktəbə daxil olmuşdur. Hazırda Sumqayıt Mədəniyyət Sarayının direktoru vəzifəsində işləyir. Ondan əvvəl şəhər PK-nin şöbə müdirinin müavini vəzifəsində çalışmışdı.

Kərbəlayı Əlinin beşinci oğlu Əbülfət 1916-cı ildə Şuşa şəhərində dünyaya təşrif gətirmişdi. İbtidai təhsilini orda almış, Bakı ikiillik müəllimlər kursunu bitirmiş və müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. Son illərdə Ceyranbatan qəsəbəsində məktəb direktoru vəzifəsində işləmişdi.

Əbülfətin Şamil, Adil adlı oğlanları var.

Kərbəlayı Əlinin yeddinci oğlu Sabir 1930-cu ildə Şuşa şəhərində anadan olub. Bakı şəhərinə köçəndən sonra 1 nömrəli məktəbi bitirib, APİ-yə girib. İnstitutun tarix fakültəsini tamamladıqdan sonra Naxçıvan vilayət Komsomol Komitəsinin birinci katibi, sonralar Bakı şəhər Komsomol Komitəsinin elm və məktəb şöbəsinin təlimatçısı olmuş, 1960-65 illərdə Ağsu rayon PK-nın və Şamaxı rayon PK-nın birinci katibi vəzifələrində işləyib. 1970-ci ildə APİ-nin pedaqoji kafedrasının dosenti, 1979-ci ildən bu günə qədər Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunun (Bakı Slavyan İnstitutunun) pedaqogika kafedrasının müdiri vəzifəsində çalışır.

Sabir müəllim Ali Sovetin iki çağırışının deputatı olub.

Sabir müəllimin Əli adlı oğlu, Gülnarə adlı qızı var.

Əli Bakı şəhərində doğulub. Orta məktəbi bitirəndən sonra ali məktəbdə oxuyub. DİN orqanlarında çalışmış və hazırda MTN-də nazir müavinidir. General-mayordur.

Hacı Şükürün ikinci oğlu Aslan 1869-cu ildə anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı Aslan Dürsədəflə ailə qurmuşdu. Mahmud, Behbud, Əhməd, Əyyub, Yaqub adlı oğlanları, Qumru, Həcər və Şükufə adlı qızları vardı.





Mahmud 1905-ci ildə Şuşa şəhərində doğulmuşdu. Realnı məktəbdə təhsil almış, 1920-ci ildən 1925-ci illədək Şuşa («Nəşri-maarif») və Bakı mətbəələrində 8-ci dərəcəli mürəttib vəzifəsində çalışmışdı.

1925-1927-ci illərdə texnika-mexanika istiqaməti ilə işçi fakültəsində təhsilini davam etdirmişdi.

1927-1931-ci illər ərzində Moskva Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasında təhsil almış və oranı bitirdikdən sonra Bakıya qayıdaraq Aqrokimya və Torpaqşünaslıq stansiyasının laboratoriyasında (Azərbaycan Elmlər Akademiyasının nəzdində) elmi fəaliyyətə başlamışdı. Bakı və Gəncənin təhsil ocaqlarında ixtisasartırma kurslarında mühazirələr oxuyurdu.



Mahmud Şəfiyev II Cahan savaşına yollanmış, 1943-cü ildə qara xəbəri gəlmişdi.

Mahmud Əhəd qızı Teyyubə ilə yaşam qurmuşdu. Nərgiz xanım adlı qızı var.

Nərgiz xanım 1940-cı ildə Bakı şəhərində dünyaya gəlib. Ü.Hacıbəyov adına ADK-nın nəzdində onillik musiqi məktəbini bitirəndən sonra konservatoriyanın bəstəkarlıq və bir müddətdən sonra Azərbaycan musiqisinin tarixi və nəzəriyyəsi fakültələrini tamamlayıb. 40 ildən artıq pedaqoji, musiqi-elmi və bəstəkarlıq sahələrində fəaliyyət göstərir.

Hazırda Bülbül adına Orta İxtisas Musiqi Məktəbində müəllim işləyir.

Nərgiz xanım Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür.

Hacı Aslanın ikinci oğlu Behbud 13 mart 1905-ci ildə Füzuli rayonunda anadan olmuşdu. O, ilk təhsilini Şuşa şəhərindəki «Nərimaniyyə» ibtidai məktəbində aldıqdan sonra Şuşa darülfünuna daxil olmuşdu.



1926-cı ildə Şuşa darülfununu bitirdikdən sonra Füzuli rayonuna müəllim göndərilmişdi. Qoçəhmədli və Qaraməmmədli kəndlərində bir müddət müəllimlik etdikdən sonra ailə vəziyyətinə görə 1931-ci ildə Bakıya köçür. 1934-cü ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olur 1939-cu ildə fizika fakultəsini müvəffəqiyyətlə bitirdikdən sonra maarif nazirliyinin sərəncamı ilə M.F. Axundov adına ikiillik müəllimlər institutuna fizika müəllimi təyin edilir. İnstitutda müəllimlik fəaliyyətilə yanaşı, Bakı şəhərinin 3, 13, 18, 25 və 150 №-li məktəblərdə fizika müəllimi işləyir.

1941-ci il iyun ayının 22-də hərbi komissarlığın əmri ilə Bakı hava müdafiəsi hissəsinə («Aerostat») hərbi xidmətə göndərilir. Hərbi hissənin polk məktəbini əla qiymətlərlə bitirdiyinə görə ona



serjant rütbəsi verilir. 1942-ci ildə Gürcüstanda yerləşən ehtiyat polkuna xidmət etməyə göndərilir. Əvvəlcə bölmənin partiya təşkilatının katibi, sonra həmin bölmənin komandiri olmuşdur.

Böyük Vətən müharibəsi illərində Behbud müəllimin xidmətləri yüksək qiymətləndirilmişdir. O, «Qafqazın müdafiəsinə görə», «1941-1945-ci illərdə fədakar əməyə görə» və «Qələbə» medalları, «Qırmızı bayraq» ordeni ilə təltif edilmişdir.

1945-ci ildə ordu sıralarından qayıdandan sonra maarif nazirinin sərəncamı ilə V.İ. Lenin adına APİ-nin fizika kafedrasına baş müəllim təyin olunur.



1946-cı ildə «Fizikanın tədrisi metodikası» ixtisası üzrə aspiranturaya daxil olur. 1950-ci ildə RSFSR AEP-nın müxbir üzvü, professor A.A.Abaszadənin rəhbərliyi altında «Orta məktəbdə atom fizikası elementlərinin tədrisi metodikası» mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir.

1950-cı ildə İ.İ. Sokolovun rus dilində yazılmış 38 çap vərəqi həcmində olan «Orta məktəbdə fizika tədrisinin metodikası» adlı dərs vəsaitini Azərbaycan dilinə tərcümə etmişdir.

Qələminin məhsulu olan 32 sayda metodik məqalə fizika tədrisinin xüsusi metodikasına həsr olunmuşdur. Həmçinin «Orta məktəbdə atom fizikası elementlərinin tədrisi metodikası» və «Orta

məktəbdə fizika eksperimentinin metodikası və texnikası» adlı metodik vəsaitləri fizika müəllimlərinin stolüstü kitabına çevrilmişdir.

«Orta məktəbdə fizika eksperimentinin metodikası və texnikası» adlı metodik vəsaitdə orta məktəbin fizika kursunun mexanika şöbəsini əhatə edən təcrübələrin nümayiş metodikası və texnikası şərh edilmişdir.

Əsərdə standart cihazlarla yanaşı, sadə cihazların əldə hazırlanmasına və həmin cihazlarla aparılacaq təcrübələrin təsvirinə xüsusi fikir verilmişdir.

1957-ci ildə «Fizika və elementar riyaziyyatın tədrisi metodikası» kafedrasına müsabiqə yolu ilə dosent seçilmişdir.

Elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, B.A.Şəfizadə V.İ.Lenin adına APİ-nin ictimai həyatında xüsusi fəallıqla çalışmışdır. 1948-1954-cu illərdə fizika-riyaziyyat fakültəsinin dekan müavini, 1955-1965-ci illərdə institut həmkarlar ittifaqının sədri vəzifələrində çalışmışdır.

1959-cu ildə «Fizikanın tədrisi metodikası» kafedrasına müdir seçilmişdir. 1970-ci ilə kimi fizikanın tədrisi metodikası kafedrasının müdiri vəzifəsində çalışmışdır. 1977-ci ildə təqaüdə çıxmışdır. Təqaüdə çıxandan sonra ömrünün sonuna kimi (1985-ci il) işlədiyi kollektivlə müntəzəm əlaqə saxlayırdı. B.A.Şəfizadənin rəhbərliyi altında «Fizikanın tədris metodikası» üzrə T.S.Vahidov və Ş.H.Əlizadə namizədlik dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etmişlər.

B.A. Şəfizadənin təhsil sahəsində xidməti «Xalq maarif xadimi» nişanı ilə qeyd edilmişdir.

Öz mənalı ömrünü xalqının maariflənməsinə sərf edən B.A.Şəfizadənin parlaq siması onu tanıyanların və tələbələrinin hafizəsində xoş xatirə kimi yaşayır.

Behbud müəllimin Rafiq adlı oğlu var.

Rafiq 1934-cü ildə Bakı şəhərində dünyaya göz açmışdı. 171 nömrəli şəhər məktəbini bitirdikdən sonra ADU-nun fizika-riyaziyyat fakültəsinə daxil olmuşdu. Universiteti tamamladıqdan sonra Azərbaycan EA Fizika İnstitunda elmi fəaliyyətə başlamışdı. Öncə elmlər namizədi, sonra doktorluq dissertasiyası müdafiə



etmişdi. Ölümünədək laboratoriya müdiri vəzifəsində çalışmışdı.

Rafiq müəllim fizika-riyaziyyat elmləri doktoru, professor idi.

Hacı Aslanın üçüncü oğlu Əhməd 1909-cu ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi. Məktəb təhsili aldıqdan sonra Bakı müəllimlər kursunu bitirmişdi. Bir çox rayonlarda müəllim kimi çalışmışdı. II Cahan savaşı dönəmində cəbhədə olmuşdu.

Əhməd 1969-cu ildə vəfat edib.

Əhmədin Vladimir adlı oğlu, Emilya adlı qızı var.

Hacı Aslanın dördüncü oğlu Əyyub 1913-cü ildə Şuşa şəhərində dünyaya təşrif gətirmişdi. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdi. 40 il ərzində Novxanı, Zuğulba və əsasən, Maştağa qəsəbələrində direktor vəzifəsində və müəllim kimi çalışmışdı.

Əyyub müəllim 1972-ci ildə vəfat edib.

Əyyub müəllim Xanım Əmiraslan qızı Quliyeva ilə evlənib. Aslan adlı oğlu, Rəna, Sənubər və Kamilə adlı qızları var.

Aslan 1952-ci ildə Bakı şəhərində dünyanı tanıyıb. Orta məktəbi bitirəndən sonra APİ-nin tarix fakültəsinə qəbul olunub. İnstitutu tamamlayandan sonra müəllim işləyir.

Hacı Aslanın beşinci oğlu Yaqub 1915-ci ildə Şuşa şəhərində dünyanı tanımışdı. Bakıda müəllim kurslarını bitirəndən sonra 1939-cu ildə Sovet Ordusu sıralarına çağırılaraq Sovet-fin müharibəsində və 1941-1945-ci illər II Cahan savaşında iştirak etmişdi.

Yaqub savaşdan sonra neft-qazçıxarma idarəsində operator vəzifəsində işləyirdi.

Yaqub 1996-cı ildə vəfat edib.

Yaqub Ələşrəf qızı Zəhra ilə həyat qurub. Əşrəf adlı oğlu, Dürrə adlı qızı var.

Əşrəf 1956-ci ildə Bakıda şəhərində anadan olub. Binə qəsəbəsində 149 nömrəli məktəbi bitirəndən sonra Azərbaycan Pedaqoji İnstututunun ümumi texniki fənlər və fizika fakültəsinə qəbul olub. İnstitutu tamamlayandan sonra Binə qəsəbəsindəki 136 nömrəli məktəbdə müəllim işləyir.

Əşrəf Əbdülsalam qızı Əsli ilə yaşam qurub. Oğlu və qızı var.

## Hacısəfərlilər (Məşədi Molla Nurməhəmməd uşağı)

Bu uruğun ulu babası Nurməhəmməddir. Nurməhəmməd XVIII yüzilin sonlarında yaşamışdı. Təbriz şəhərində mədrəsə təhsili almışdı. İbrahimxəlil xan Sarıcalı-Cavanşirə xidmət edirdi. Dini işlər ilə ilgilənirdi. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi.

Məşədi Molla Nurməhəmmədin Səfər, Cəfər, Əkbər, Məmməd adlı oğlanları vardı.

Səfər 1785-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-müşərrəfi ziyarət etmişdi.

Hacı Səfərin törəmələri Səfərov soyadını daşıyırlar.

Hacı Səfər Qönçə ilə ailə qurmuşdu. Əsgər, Abbas, Zeynal, İsmayıl adlı oğlanları, Tükəzban, Balaxanım, Gilə, Bəyim və Qızxanım adlı qızları vardı.

Əsgər 1818-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu.



Əsgərin Əliqulu, İmamqulu, Murtuza, Dadaş adlı oğlanları, Zöhrə adlı qızı vardı.

Əliqulu 1850-ci ildə dünyaya gəlmişdi. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı Əliqulunun Rüstəm adlı oğlu vardı.

Rüstəm Şuşa şəhərində dünyaya göz açmışdı. Atasını vaxtsız itirdiyindən əmisi Hacı İmamqulunun himayəsində böyümüşdü. Ticarətlə məşğul idi.



Rüstəm əmisi Hacı İmamqulunun qızı Sənəmlə yaşam qurmuşdu. Qumru adlı qızı vardı.

Əsgərin ikinci oğlu İmamqulu 1855-ci ildə Şuşa şəhərində dünyanı tanımışdı. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-münəvvəri ziyarət etmişdi.

Hacı İmamqulu Şirinbəyimlə həyat qurmuşdu. Qəhrəman, Rəşid, Fərhad adlı oğlanları, Şövkət, Sənəm və Sayalı adlı qızları vardı.

Qəhrəman Şuşa şəhərində dünyaya pənah gətirmişdi. Sonra Ağcabədi qəsəbəsinə köçmüşdü. Ticarətlə məşğul idi.

Qəhrəman Hacı Behbudalı qızı Pəri ilə evlənmişdi. Xanlar, Mehdi, Əbülfət adlı oğlanları, Qumru, Yaqut və Zümrüd adlı qızları var.

Xanlar Ağcabədi şəhərində anadan olub.

Xanlar Ələkbər qızı Qəmərlə ailə qurub. Cümşüd, Mürşüd, Orxan adlı oğlanları, Fiqən, Zərqələm, Lətifə, Nəcibə, Şərqiyə, Mərziyə və Bəyim adlı qızları var.



Qəhrəmanın ikinci oğlu Mehdi Ağcabədi şəhərində doğulub.

Mehdi Allahverdi qızı Şəfiqə ilə yaşam qurub. Tofiq, Rafiq, Qəhrəman, Rəfael adlı oğlanları, Tərlan, Tamaşa və Mənzər adlı qızları var.

Qəhrəmanın üçüncü oğlu Əbülfət 1915-ci ildə dünyaya gəlmişdi. Orta məktəbi bitirəndən sonra ali məktəbə daxil olmuşdu. Hərbçi idi. Orta məktəbdə hərbi hazırlıqdan dərs deyirdi.

Əbülfət 1975-ci ildə vəfat edib.

Əbülfət Nəzər bəy qızı Əzət xanımla həyat qurmuşdu. Əli, Rüstəm, Kamal, Behbudalı, Roman, Ayaz, Mehman adlı oğlanları, Solmaz, Sayalı, Züleyxa və Gülnaz adlı qızları var.

Hacı İmamqulunun oğlu Rəşid Şuşa şəhərində anadan olmuşdu.

Rəşid Tamaşa Xankişi qızı ilə ailə qurmuşdu. İmamqulu, Müseyib, İslam adlı oğlanları vardı.

Hacı İmamqulunun oğlu Fərhad Şuşa şəhərində anadan olmuşdu.

Əsgərin üçüncü oğlu Murtuza 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Murtuza Telli Hacı Bağır qızı Həşimli ilə ailə qurmuşdu. Əhəd, Səməd, Mənaf, Mürsəl adlı oğlanları, Qəmər, Xavər, Ənbər adlı qızları vardı.

Əhəd 1895-ci ildə Şuşa şəhərində doğulmuşdu. Gimnaziyada oxumuşdu. Kiyev universitetinə qəbul olunmuşdu. İkinci nikahdan olan ailəsi ilə birlikdə İrana mühacirət etmiş, Tehran şəhərində məskunlaşmışdı. Əhməd şah Qovanlı-Qacar ona xan ünvanı vermişdi.

Əhəd xan Səfəri 1968-ci ildə Tehranda vəfat edib. Əhəd xan öncə Kübra xanım Zülfüqar bəy qızı Tarıverdiyeva ilə, sonra başqa bir xanımla ailə qurmuşdu. Çingiz xan, Teymur xan (hər ikisi ikinci nikahdan) adlı oğlanları, Teyyubə xanım (birinci nikahdan) adlı qızı vardı.

Çingiz xan 1920-ci ildə Tehran şəhərində dünyaya gəlmişdi. Univeristet təhsili almışdı. Neft şirkətində çalışmışdı. Moskvada, Bakıda ezamiyyətdə olmuşdu.

Çingiz xan Səfəri 1977-ci ildə vəfat edib.

Əhəd xanın ikinci oğlu Teymur xan Tehran şəhərində anadan olub. Ali təhsil alıb. Kommersiya ilə məşğul idi. Hazırda Kanadada yaşayır.





Teymur xan Leyla xanımla ailə qurub.

Əhəd xanın qızı Teyyubə xanım 1912-ci ildə Şuşa şəhərində dünyaya zinət vermişdi. Orta təhsildən sonra Lenin adına APİ-ni (hazırkı ADPU-nu) bitirmişdi. Pedaqoji fəaliyyət göstərmişdi.

Teyyubə xanım Mahmud Aslan oğlu Şəfiyevlə ailə qurmuşdu. Nərgiz xanım adlı qızı var.

Hacı Murtuzanın ikinci oğlu Səməd 1897-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Gimnaziyada oxumuşdu. Kiyev universitetinə qəbul olmuşdu.

Manaf universiteti bitirmədən vəfat etmişdi.

Hacı Murtuzanın üçüncü oğlu Manaf 1900-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Gimnaziyada oxumuşdu. Kiyev universitetinə qəbul olmuşdu.

Səməd universiteti bitirmədən vəfat etmişdi.

Hacı Murtuzanın qızı Qəmər 1905-ci ildə Şuşa şəhərində anadan olmuşdu.

Qəmər 1980-ci ildə vəfat edib.

Qəmərin övladı olmayıb.

Hacı Murtuzanın ikinci qızı Xavər 1908-ci ildə Şuşa şəhərində doğulmuşdu. Ali tibb təhsili almışdı. Həkim-stomatoloq işləmişdi.

Xavər 1982-ci ildə vəfat edib.

Xavər Möhsün Seyidağa oğlu Rəştiyevlə ailə qurmuşdu. İki oğlu, üç qızı var.

Hacı Murtuzanın üçüncü qızı Ənbər 1913-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi.

Ənbər öncə Bəhmən Məmmədzadə, sonra Məmmədhüseyn Kərimovla ailə qurmuşdu. Birinci nikahdan Elton adlı oğlu, Hümeyra adlı qızı, ikinci nikahdan İsmayıl adlı oğlu var.

Əsgərin dördüncü oğlu Dadaş Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi. O, çox varlı olmuş, Şuşada məclis evi tikdirmişdi. Hazırda onun haqqında «Filankəsin Hacı dadaşı var» deyimi işlənilir.

Hacı Dadaşın Behbud adlı oğlu, Xavər adlı qızı vardı.

Behbud Şuşa şəhərində doğulmuşdu. Ticarətlə məşğul idi. Cavan yaşlarında İrana köçmüşdü.

Hacı Dadaşın qızı Xavər Şuşa şəhərində dünyaya gəlmişdi. Ərindən ayrılmış, qardaşı ilə İrana köçmüşdü.

Xavər Bahadur Vəlibəyovla ailə qurmuşdu. Sonra ayrılmışdı.

***

Hacı Səfərin ikinci oğlu Abbas 1823-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Abbasın Məmməd adlı oğlu vardı.

Məmməd 1854-cü ildə Şuşa şəhərində doğulmuşdu. Ticarətlə məşğul idi.

***

Hacı Səfərin üçüncü oğlu Zeynal 1839-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

***



Hacı Səfərin dördüncü oğlu İsmayıl 1842-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

## Hacı Səfərlinin bir qolu (Molla Nurməhəmməd uşağı)

Bu uruğun ulu babası Nurməhəmməddir. Nurməhəmməd XVIII yüzilin sonlarında yaşamışdı. Təbriz şəhərində mədrəsə təhsili almışdı. İbrahimxəlil xana xidmət edirdi. Dini işlər ilə ilgilənirdi. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi.

Məşədi Molla Nurməhəmmədin Səfər, Cəfər, Əkbər, Məmməd adlı oğlanları vardı.

Məşədi Molla Nurməhəmmədin ikinci oğlu Cəfər 1886-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Cəfər Gülsümlə ailə qurmuşdu. Kərim, Həsən, Məhərrəm, Paşa, Cabbar adlı oğlanları vardı.

Kərim 1838-ci ildə Şuşa şəhərində doğulmuşdu. Ticarətlə məşğul idi.

Kərim varis qoymadan cavan yaşlarında vəfat etdi.

Cəfərin ikinci oğlu Həsən 1841-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Cəfərin üçüncü oğlu Məhərrəm 1850-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Cəfərin dördüncü oğlu Paşa 1854-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Cəfərin beşinci oğlu Cabbar 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

***

Məşədi Molla Nurməhəmmədin üçüncü oğlu Əkbər 1813-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əkbərin Fərəc, Şükür, Allahverən, Səlim, Kərim adlı oğlanları vardı.

Fərəc 1834-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Əkbərin ikinci oğlu Şükür 1838-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Əkbərin üçüncü oğlu Allahverən 1850-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Əkbərin dördüncü oğlu Səlim 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Əkbərin beşinci oğlu Kərim 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

***

Məşədi Molla Nurməhəmmədin dördüncü oğlu Məmməd 1813-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məmməd 1858-ci ildə vəfat edib.

Məmmədin Kərim, Qara, Dadaş adlı oğlanları vardı.

Kərim 1847-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Kərimin Zülfüqar adlı oğlu vardı.

Zülfüqar 1872-ci ildə Şuşa şəhərində doğulmuşdu. Ticarətlə məşğul idi.

Məmmədin ikinci oğlu Qara 1855-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Məmmədin üçüncü oğlu Dadaş 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.



## Hacı Əhməd uşağı

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Hacı Əhməd uşağıdır. Əhməd təxminən 1776-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Əhmədin Ağarza, Əkbər, Ələsgər adlı oğlanları vardı.

Ağarza 1799-cu ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Ağarza Seyidanası xanımla ailə qurmuşdu. Hacı, Mustafa, Məmmədtağı, Məmməd adlı oğlanları, Səkinə adlı qızı vardı.

Hacı 1839-cu ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Babası Hacı Əhmədin adını daşıyırdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacının Zeynalabdin, Dadaş adlı oğlanları vardı.

Zeynalabdin 1871-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacının ikinci oğlu Dadaş 1873-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Ağarzanın ikinci oğlu Mustafa 1840-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Ailədə "Qara" çağırıldığından bu adla da tanındı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Ağarzanın üçüncü oğlu Məmmədtağı 1845-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Ağarzanın dördüncü oğlu Məmməd 1847-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

***

Hacı Əhmədin ikinci oğlu Əkbər 1818-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Əkbər Şərəflə ailə qurmuşdu. Məmmədqulu, Abutalıb adlı oğlanları, Mahtəban, Şirin adlı qızları vardı.

Məmmədqulu 1854-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Əkbərin ikinci oğlu Abutalıb 1860-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

***

Hacı Əhmədin üçüncü oğlu Ələsgər 1820-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Ələsgər 1857-ci ildə vəfat edib.

Məşədi Ələsgərin Məmmədbağır, Əliməmməd adlı oğlanları vardı.

Məmmədbağır 1856-cı ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Ələsgərin ikinci oğlu Əliməmməd 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Hacı Qafar uşağı

Bu soyun ulu babası Qafardır. 1764-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Cümə məscidində müəzzin, sonra mədrəsədə xəlifə işləmişdi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Qafarın Şahbaz adlı oğlu vardı.

Şahbaz 1792-ci ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini atasından almışdı. Ticarətlə məşğul idi.

Şahbaz 1845-ci ildə vəfat etmişdi.



Şahbaz Pəri ilə ailə qurmuşdu. Hacı, Abbas adlı oğlanları, Şəhrəbanu adlı qızı vardı.

Hacı 1807-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi.Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacının Cəfər, Dadaş adlı oğlanları vardı.

Cəfər 1850-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacının ikinci oğlu Dadaş 1852-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

***

Şahbazın ikinci oğlu Abbas 1826-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Abbasın Hidayət, Fərəc, Şirin, Möhsün adlı oğlanları vardı.

Hidayət 1843-cü ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Ticarətlə məşğul idi.

Abbasın ikinci oğlu Fərəc 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Abbasın üçüncü oğlu Şirin 1855-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Abbasın dördüncü oğlu Möhsün 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Hacı Kəlbəli uşağı

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Hacı Kəlbəli uşağıdır. Kəlbəli təxminən 1774-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Kəlbəli Nigarla ailə qurmuşdu. Ağa Cəfər, Ağa İsmayıl adlı oğlanları vardı.

Ağa Cəfər 1797-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağa Cəfər Şirinlə ailə qurmuşdu. Kəlbəli adlı oğlu, Fatma, Zəhra adlı qızları vardı.

Kəlbəli 1841-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Kəlbəli İstanbula getmiş, orda qalmışdı.

***

Hacı Kəlbəlinin ikinci oğlu Ağa İsmayıl 1818-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağa İsmayıl Fatma ilə ailə qurmuşdu. Mehdi, Muxtar, Səməd, Əhməd, Hacı, Nəcəfqulu, Baxış adlı oğlanları vardı.

Mehdi 1847-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağa İsmayılın ikinci oğlu Muxtar 1854-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağa İsmayılın üçüncü oğlu Səməd 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağa İsmayılın dördüncü oğlu Əhməd 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağa İsmayılın beşinci oğlu Hacı 1861-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağa İsmayılın altıncı oğlu Nəcəfqulu 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağa İsmayılın yeddinci oğlu Baxış 1869-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.



## Hacı Murad uşağı

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Hacı Muradlıdır. Bu soyun ulu babası Murad təxminən 1759-cu ildə anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Şuşa şəhərində məskunlaşandan sonra ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Muradın Əmin adlı oğlu vardı.

Əmin 1786-cı ildə Şuşa şəhərində doğulmuşdu. Ticarətlə məşğul idi.

Əmin Bəyimlə ailə qurmuşdu. Hacı, Təhmiraz, Ağa, Məmmədəli adlı oğlanları, Mina, Qızxanım, Gövhər, Xədicə adlı qızları vardı.

Hacı 1826-cı ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Ticarətlə məşğul idi.

Hacının Mehdi, Həbib, Mürsəl adlı oğlanları vardı.

Mehdi 1857-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Ticarətlə məşğul idi.

Hacının ikinci oğlu Həbib 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacının üçüncü oğlu Mürsəl 1867-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

***

Əminin ikinci oğlu Təhmiraz 1833-cü ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi.

Təhmiraz 1853-cü ildə varis qoymadan vəfat etmişdi.

***

Əminin üçüncü oğlu Ağa 1843-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Ağanın İbiş, Baxış, Mahmud adlı oğlanları vardı.

İbiş 1865-ci ildə Şuşa şəhərində doğulmuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Ağanın ikinci oğlu Baxış 1867-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Ağanın üçüncü oğlu Mahmud 1869-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

***

Əminin dördüncü oğlu Məmmədəli 1850-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

## Hacı Lətif uşağı

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Hacı Lətif uşağıdır. Bu soyun ulu babası Lətifdir. Lətif Təbriz şəhərində anadan olmuşdu. Şuşa şəhərinə köçürülmüşdü. Müqəddəs Kəbəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı Lətifin Tağı adlı oğlu vardı.

Tağı 1772-ci ildə Şuşa şəhərində doğulmuşdu. Ticarətlə məşğul idi.

Tağı 1857-ci ildə vəfat edib.

Tağının törəməsi Tağıyev soyadını daşıyırdılar.

Tağı Nisə ilə ailə qurmuşdu. Əliməmməd, Kazım, Hüseyn, Zeynalabdin adlı oğlanları, Xədicəbəyim, Bəyim adlı qızları vardı.

Əliməmməd 1832-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Ticarətlə məşğul idi.

Tağının ikinci oğlu Kazım 1834-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Tağının üçüncü oğlu Hüseyn 1841-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.



Hüseynin Nəsir, Süleyman adlı oğlanları vardı.

Nəsir 1870-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hüseynin ikinci oğlu Süleyman 1872-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Tağının dördüncü oğlu Zeynalabdin 1843-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Hacı İmamqulu uşağı
## (Hacıyevlər, Hüseynovlar, Tağızadələr)

Şuşa şəhərinin Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Hacı İmamqulu uşağıdır. Bu soyun ulu babası İmamqulu Qaradağidir. İmamqulu Cənubi Azərbaycanın Əhər şəhərində anadan olmuşdu. Şuşa şəhərinə köçürülmüşdü. Müqəddəs Kəbəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı İmamqulunun Məsih, Hüseyn, Tağı adlı oğlanları vardı.

Məsih Hacı İmamqulu oğlu 1780-ci ildə Şuşa şəhərində doğululmuşdu. (Bəzi mənbələrdə onun 1760-cı ildə doğulduğu yazılır ki, ağlabatan deyil). Mədrəsə təhsili almışdı. İbrahimxəlil xan Sarıcalı-Cavanşirin, Mehdiqulu xanın divanxanasında çalışmışdı. Rus üsul-idarəsi dönəmində əyalət məhkəməsində işləmişdi. Divanbəyi adlanırdı. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Sənəd: **1838-ci il martın 2-də çərşənbə günü iştirakçılar Qarabağ əyalət məhkəməsinə gəldilər. Qarabağ komitəsi və məhkəmə sədri vəzifəsini yerinə yetirən mayor, knyaz Baratov idi. Iclasçılar poruçik Rüstəm bəy, podporuçik Xandəmirov, Umbiri Ohanov və Məşədi Məsih idi. Eşidildi: Məruzə: Mərhum Ibrahim bəyin oğlu Ismayıl bəy verdiyi ərizədə bildirmişdir ki, Qarabağın və başqa əyalətlərin bütün sakinlərinə məlumdur ki, onun babası Mirzə Vəli Qarabağın**

**hörmətli şəxsiyyətlərinin sırasında olaraq kəndliləri vardı və öz bəy mülkiyyəti olaraq ona məxsus Baharlı obasını idarə edirdi.**

Məşədi Məsih Rusiya-İran savaşları dönəmində Şuşa qalasının müdafiəsində fəal iştirak etdiyinə görə medalla təltif olunmuşdu. Şəhərin deputatı olmuşdu.

Məşhədi Məsih Şərəflə ailə qurmuşdu. Hacı, Cəfərqulu, İmamqulu adlı oğlanları, Bədir, Hüsnü adlı qızları vardı.

Hacı Məşhədi Məsih oğlu 1822-ci ildə Şuşa şəhərinin Təbrizli məhəlləsində dünyaya gəlmişdi. Mollaxanada oxumuşdu. Sərraclıqla məşğul idi.

Hacının Qulu, Abbas, İsmayıl adlı oğlanları vardı.

Qulu Hacı oğlu 1840-cı ildə Şuşa şəhərində dünyaya göz açmışdı. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Məhəllələrinin dini işləri ilə məşğul olmuşdu.

Hacının ikinci oğlu Abbas 1847-ci ildə Şuşa şəhərində dünyaya boy göstərmişdi.

Abbas 1856-cı ildə vəfat edib.

Hacının üçüncü oğlu İsmayıl 1855-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi.

Məşhədi Məsihin ikinci oğlu Cəfərqulu 1841-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ibtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi. Şair idi.

Mir Möhsün Nəvvab onun haqqında qeyd edir ki, parakəndə şeirləri var[6].

Cəfərqulunun Fərrux, Ağa, Paşa adlı oğlanları vardı.

Fərrux Cəfərqulu oğlu 1859-cu ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini əmisioğlu Molla Quludan almışdı. Sonra mədrəsədə oxumuşdu. Şair idi. Fərruxi təxəllüsü ilə şeir yazırdı. Mir Möhsün Nəvvab onun haqqında yazır: «Qarabağın

[6] Mir Möhsün Nəvvab, «Təzkireyi-Nəvvab, Bakı, «Azərbaycan» nəşriyyatı, 1998, səh. 547.



Şuşa əhalisindəndir. Deyilənə görə, mətin şeirləri var, ancaq mənim nəzərimə çatmayıb»[7].

Məhəmməd ağa Müctəhidzadə yazır: «Bu mərhumi-məğfurun ki, ismi-samisi Fərrux və əbəvisinin ismi-giramisi Məşhədi Məsihdir (?-Ə. Ç.). Təvəllüd edib Şuşa şəhərində və əyyami-cavanlığında bu diyarda səfəri-axirəti ixtiyar edib, sahibi-təbdir. Əşarından bu bir fərdə iktifa edəriz:

**Del be dərdəş aşenai mikonəd,**
**Rahəti əz can codai mikonəd»[8].**

Cəfərqulunun ikinci oğlu Ağa 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi.

Cəfərqulunun üçüncü oğlu Paşa 1869-cu ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Məsihin üçüncü oğlu İmamqulu 1843-cü ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi.

***

Hacı İmamqulunun ikinci oğlu Hüseyn 1796-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Hüseynin törəmələri **Hüseynov** soyadını daşıyırlar.

Məşədi Hüseyn Balaxanımla ailə qurmuşdu. Məmməd, Əbdülkərim, Murtuza, Nəsir adlı oğlanları vardı.

Məmməd 1840-cı ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

[7] Yenə orada.
[8] Məhəmməd ağa Müctəhidzadə, Rizazül-aşiqin, Bakı, «Azərbaycan» nəşriyyatı, 1995, səh 37.

Məmmədin Hüseyn, İbrahim adlı oğlanları vardı.

II Hüseyn 1868-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məmmədin ikinci oğlu İbrahim 1870-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Hüseynin ikinci oğlu Əbdülkərim 1842-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əbdülkərimin Cəlil, Firudin adlı oğlanları vardı.

Cəlil 1870-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əbdülkərimin ikinci oğlu Firudin 1872-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Hüseynin üçüncü oğlu Murtuza 1844-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Hüseynin dördüncü oğlu Nəsir 1847-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

***

Hacı İmamqulunun üçüncü oglu Tağı 1808-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Rastabazarda baqqal dükanı işlədirdi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Tağının törəmələri **Tağızadə, Tağıyev** soyadını daşıyırlar.

Kərbəlayı Tağı Şahnisə ilə ailə qurmuşdu. Şirin, Zeynalabdin, Adıgözəl, Qasım adlı oğlanları, Şəhri adlı qızı vardı.

Şirin 1830-cu ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Rastabazarda baqqal dükanı işlədirdi. Müqəddəs Kərbəla torpağını, sonra Məkkəyi-müşərrəfi ziyarət etmişdi.



Hacı Şirinlə bağlı bəzi əhvalatları yazıya köçürməyi gərəkli bildik. Professor Zeynal Tağızadə öz xatirəsində babası və nənəsi haqqında yazır: "Qeyd etdiyim kimi, babamın ikinci arvadı Nabat nənəm yaşca çox cavan idi. Həftədə bir dəfə cümə axşamı onu yasa buraxırdı. Buna hazırlıq üç-dörd gün qabaq gedərdi. Paltar ütülənər, hamama gedər, xına qoyar, xülasə, böyük hazırlıq işləri aparardı. Yasları gəzmək onun üçün səyahətə çıxmaq demək idi. Axşam külfət ocaq başına yığışıb, şam yeməyindən sonra hesabat verərdilər. Vay o günə ki, Nabat nənəm özgənin qeybətini edəydi. Onda babam iki əlini yerə qoyub ortalıqda yanan yeddilik neft lampasını üfürüb keçirər və deyərdi: "Girvənkəsi iki qəpiyə neft yandırıb onun-bunun sözünü mənim ocağımın başında danışma! Duun yatın"!

Biz də dinməz-söyləməz yatağımıza girərdik. Nənəm kor-peşman;

- Ay kişi, mən nə deyirəm ki?

-Zəhər-zəhrimar deyirsən, neçə dəfə sənə demişəm ki, özgənin sözünü mənim ocağımın başında danışma. Babamın bu sərt hərəkəti deyəsən yaxşı nəticə Verdi. İndi bizim ailədə özgənin sözü, qeybət olmaz. Uşaqlarımız da belə edirlər[9].

Hacı Şirin 1918-ci ildə vəfat edib.

Hacı Şirin əvvəlcə bir qadınla, sonra Nabatla ailə qurmuşdu. Birinci nikahdan Rza, Abdulla adlı oğlanları, ikinci nikahdan Xudadad, Zülfüqar, Hüseyn adlı oğlanları, Züleyxa və Tavad adlı qızları vardı.

Rza 1858-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Rza ailə qurmayıb.

Kərbəlayı Şirinin ikinci oglu Abdulla 1863-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

---

[9] Zeynal Tağızadə: Ömrün üfüqləri, Bakı, «Səda", 2011, səh.21-22.

Kərbəlayı Abdulla Asiya ilə ailə qurmuşdu. Onun vəfatından sonra Rəxşəndə ilə yaşam qurmuşdu. Heydər adlı oğlu, Tavus, Zərqələm, Sarabəyim, Sayalı adlı qızları vardı.



Tağiyev Heydər Abdulla oğlu (1907, Şuşa-1994, Bakı)-pedaqoq, Respublikanın əməkdar müəllimi, əmək veteranı, fərdi təqaüdçü, Böyük Vətən müharibəsi iştirakçısı (1941-1946), Şuşa Real Məktəbini bitirmiş, bir müddət Şuşanın kəndlərində müəllimlik etmişdir. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun pedaqogika fakültəsini (1932) bitirmiş, Bakının müxtəlif məktəblərində çalışmışdır. Sovet ordusundan tərxis olunduqdan sonra Bakıdakı 2№li dəmiryol məktəbində tərbiyə işləri üzrə direktor müavini (1946-1948), 13 №li sənət məktəbinin direktoru (1961-1980) vəzifələrində işləmişdir.

Uzun müddət texniki-peşə təhsili sistemində çalışan Heydər Tağıyevin Azərbaycanın neft və kimya sənayesi, əsasən də, Sumqayıt şəhərinin neft-kimya kombinatları üçün yüksək səviyyəli ixtisaslı gənc neft mütəxəssislərin hazırlanmasında böyük xidmətləri olmuşdur. Məhz buna görə də onun rəhbərlik etdiyi 29 №-li şəhər texniki-peşə məktəbi Qırmızı Əmək bayrağı ordeninə, müxtəlif Fəxri fərmanlara və başqa mükafatlara layiq görülmüşdür.



Texniki-peşə təhsili sistemində uzunmüddətli qüsursuz fəaliyyətinə, yaxşı və səmərəli işinə görə o, dəfələrlə Fəxri fərman və müxtəlif mükafatlar almışdır.

Zeynalova Sacidə Heydər qızı (4.VI. 1941)-Pedaqoq , respublikanın



əməkdar müəllimi (1981), əmək veteran (1985). Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsini (1963) fərqlənmə diplomu ilə bitirmişdir. Pedaqoji fəaliyyətə Quba rayonundakı 12 nömrəli sovxoz orta məktəbində (1963-1966) başlamış, sonra Bakıdakı 2 nömrəli şəhər texniki-peşə məktəbində Sovetinin deputatı olmuşdur. Yaxşı işinə görə Azərbaycan SSR Dövlət texniki-Peşə İdarəsinin və işlədiyi məktəbin Fəxri fərmanlarını almış, Lenin yubiley medalı, "Dəmir yolunun 150 illiyi" medalı ilə təltif edilmiş, "Sosializm yarışının qalibi" döş nişanına layiq görülmüşdür. 1999-cu ildən təqaüddədir.



Tağiyeva Sayalı Abdulla qızı (d.1920, Şuşa) - tibb e.d. (1969), prof. (1969). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1942). 1942-ci ildən Tibb İn-tunun daxili xəstəliklərin hospital-terapiya kafedrasında ordinator, 1944 ildən assistent, 1955 ildən dosent, 1969-cu ildən professor olmuşdur. 1980-ci ildən 1992-ci ilə qədər pediatriya fakültəsinin daxili xəstəliklər kafedrasının müdiri işləmiş, 1992-ci ildən isə kafedranın professorudur. 130-dan çox elmi əsərin, o cümlədən 2 monoqrafiya, 3 metodiki vəsait, 2 ixtira və s. müəllifidir.



Hacı Şirinin üçüncü oglu Xudadad 1868-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ailədə Xuduş çağrıldığından bu adla da tanındı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Xuduş 1909-cu ildə vəfat edib.

Xuduş Tubu Kərbəlayı Rüstəm qızı ilə ailə qurmuşdu. Zeynal, İshaq adlı oglanları, Yəzmərd adlı qızı vardı.

Tağızadə Zeynal Xuduş oğlu (1905, Şuşa-1975, Bakı) dilçi, alim, filologiya elmləri doktoru (1968) pofessor (1968). İbtidai tehsililnin "Nəşri-maarif" mektəbində almiş, bir müddət Şuşa Real Məktəbində oxumuş, Şuşa Müəllilmlər Seminariyasinin (1925) bitirmişdir. Həmin ildən pedaqoji fəaliyyətə başlayan gənc müəllim 1928 ci ildə Azərabaycan Dövlət Universitetinə daxil olmuş, 1932-ci ildən başlayaraq Bakının müxtəlif orta məktəblərində, ali həmkarlar məktəbində, fəhlə fakültəsində dil və ədəbiyyat dərsi demişdir.

Zeynal Tağızadə 1945-ci ildə V. İ. Lenin adına Azərbaycan Dövlət Pedoqoji İnstitutunun aspiranturasına daxil olmuş, burda oxumaqla yanaşı, Azərbaycan dilçiliyi kafedrasında asstent, baş müəllim, dil-ədəbiyyat fakültəsində dekan müavini, aspirantura müdiri vəzifələrində çalışmışdır. XIX-XX əsrlərdə Azərbaycan nəsrində tabeli mürəkkəb cümləsinin inkişafı mövzusunda namizədlik disertasiyasi müdafiə edən (1949) genc alim 1950-ci ildə Azərbaycan dilçiliyi kafedrsında dosent vəzifəsinə keçmiş, sonra uzun müddət Azərbaycan dili kafedrasının müdiri olmuş, eyni zamanda Azərbaycan qiyabi Pedoqoji İnstitutunda, H.Zərdabi adina Kirovobad Pedaqoji İnstitutunda dilçilik kafedralarına rəhbərlik etmişdir. "Müasir Azərbaycan ədəbi dilində mürəkkəb cümlə" mövzusunda uğurla direktorluq dissertasiyası müdafiə edən (1968) görkəmli alim son illərdə M. F. Axundov adına Azərbaycan Pedoqoji Dillər İnstitutunda eksperimental fonolaborotoriya elmi rəhbəri vəzifəsində çalışmışdır.

Professor Moskva, Leninqrad, Kiyev, Daşkənd, Alma-Ata, Aşqabad, Kazan, Frunze, Tiflis, İrəvan kimi şəhərlərdə dilçilik problemlərinə həsr olunmuş SSRİ miqyaslı simpozium və konfranslarda iştirak etmiş dilçiliyin bu ali məclislərində çıxış etmişdir. Onun elmi və pedoqoji kadrların hazırlanmasında mühüm xidmətləri var. Görkəmli alimin respublika və Ümumittifaq mətbuatında əllidən artıq elmi məqaləsi, "Müasir Azərbaycan



dilinin sintaksisi" (1960), "Müasir Azərbaycan dilində mürəkkəb cümlə (1961), "Müasir Azərbaycan dilində felin quruluşu" (1962) kitabları nəşr olunmuşdur.


*Rafiq Zeynal oğlu Tağızadə*

Zeynal Sayalı Hüseynəli qızı Hacıyeva ilə ailə qurmuşdu. Rafiq adlı oğlu, Aida adlı qızı var.

Tağızadə Aida Zeynal qızı (1934), Sənətşünaslıq namizədi (1969), Professor (1986), Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi (1991)

Aida Zeynal qızı 1934-cü il fevralın 5-də Bakı şəhərində anadan olub. Bakıdakı 150 saylı məktəbdə oxumuşdu. O, Asəf Zeynallı adına Musiqi Kollecini qırmızı diplomla bitirərək Ü.Hacıbəyli adına Konservatoriyaya əvvəlcə fortepiano üzrə ifaçılıq şöbəsində oxumuş, iki ildən sonra isə musiqişünaslığa üstünlük verərək bu şöbədə də təhsilini böyük uğurla başa vurmuşdur.



Aida xanım 1958-ci ildən ta bu günə qədər Bakı Musiqİ Akademiyasında (BMA-da) fəaliyyət göstərir. O, pedaqoji işlə yanaşı, Azərbaycanın bir çox görkəmli bəstəçiləri və ifaçıları haqqında monoqrafiyaların, broşürlərin, oçerk və məqalələrin müəllifidir. Onun görkəmli bəstəçilərimizin bəzilərinə həsr olunmuş kitabları öz məzmun və təhlil metoduna görə böyük əhəmiyyət kəsb edir. Bunlardan Azərbaycan simfonik musiqisinin təşəkkülü və inkişafında böyük səy

göstərən, hərtərəfli inkişaf etmiş böyük nəzəriyyəçi, dövrümüzün görkəmli bəstəçisi Cövdət Hacıyevə həsr olunmuş monoqrafiyadır ("İşıq", 1979). Müəllif kitabda Cövdət Hacıyevin Azərbaycan simfonik musiqisinin ümumi inkişafı fonunda özünəməxsus üslubunu araşdırmaq məqsədini izləyir. Kitabda onun beş simfoniyası, "Sülh uğrunda" simfonik poeması, kamera-instrumental musiqisi və fortepiano üçün "Musiqi lövhələri" yüksək professional səviyyədə təhlil olunur.

Aida xanımın 1985-ci ildə "Yazıçı" nəşriyyatında çap olunmuş növbəti kitabı görkəmli bəstəçimiz Soltan Hacıbəyovun yaradıcılığına həsr edilib. Maraqlıdır ki, 1969-cu ildə müdafiə etdiyi namizədlik dissertasiyası da istedadlı sənətkarımızın əsərlərinin təhlililə bağlıdır.

Həmin monoqrafiyada bəstəçinin "Gülşən" baleti, simfonik janrda yazılan əsərləri, onun üslubu üçün səciyyəvi bir çox xüsusiyyətlər yüksək səviyyədə araşdırılmışdır.

Aida xanımın sonrakı tədqiqat nümunəsi müasir musiqi sənətimizin görkəmli nümayəndələrindən Aqşin Əlizadənin yaradıcılığına həsr olunmuş monoqrafiyadır. Burada "Kənd süitası", o dövrdə yazılan simfoniyaları, özünəməxsus xor və kamera-instrumental əsərləri təhlil olunaraq, bəstəçinin müasir Azərbaycan musiqi mədəniyyətində tutduğu uğurlu və hətta "yenilikçi" mövqeyi şərh olunmuşdur.

A.Tağızadə müxtəlif qəzet və jurnallarda çap olunmuş 100-ə yaxın məqalənin müəllifidir. Bunlardan çoxu yerli mətbuatda, bəziləri isə respublikadan kənar mənbələrdə çap olunmuşdur.

Məqalələrin əsas mövzuları Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov və b. kimi böyük sənətçilərinin yaradıcılığı, bədii üslubun özəllikləri, yeni\ əsərlərin təhlilidir. Fəaliyyəti boyu A.Tağızadə Azərbaycan bəstəçilərinin yaradıcılığına həssaslıqla yanaşaraq, milli musiqi sənətimizi dövri mətbuatda, televiziya çıxışlarında, elmi konfranslarda nəinki vətənimizdə, hətta xarici ölkələrdə də təbliğ etmişdir (İtaliya, Almaniya, Çexoslovakiya, Türkiyə). Professional ifaçılıq sənətinə diqqət yetirən və dəyər verən Aida Tağızadə yazılarında Müslüm Maqomayev, F və X. Qasımova bacıları, Sərvər Qəniyev, Elmira Səfərova, Fəridə Quliyeva, Aida Abdullayeva kimi sənətkarların yaradıcılıq portretlərində yer vermişdir.

A.Tağızadənin pedaqoji fəaliyyəti də olduqca diqqətəlayiqdir. O, respublikanın müxtəlif mədəniyyət sahələrində çalışan bir çox hazırlıqlı musiqişünaslar nəslini yetişdirib və bir neçə sənətşünaslıq dissertasiyasının elmi rəhbəri olmuşdur.

Bundan başqa o bir sıra elmi metodik əsərlərin və dərsliklərin müəlliflərindən biridir. Məsələn: "Azərbaycan musiqi tarixi" (1987), "Azərbaycan musiqisi müntəxabatı" (1969 - I c., 1985 - II c.). Aida xanımın elmi fəaliyyəti onu bütün yaradıcılıq həyatı boyu müşayiət edir. O, "XX əsr Azərbaycan musiqisi" məqalələr toplusunun tərtibçisi və elmi redaktoru olmuşdur. 1994-cü ildə çap olunan toplunun birinci cildində milli musiqi mədəniyyətinin tarixi mərhələləri bədii estetik planda araşdırılmış və Azərbaycan bəstəçilərinin üslub problemlərinin analitik izahı verilmişdir.

Aida xanım 1996-2007-ci illərdə fəaliyyətini qardaş Türkiyə məmləkətinin Ankara Bilkənd universitetində davam etdirmişdir. Bu illərdə o, Azərbaycan və onun musiqi həyatı ilə əlaqələrini kəsməmiş, "XX əsr Azərbaycan musiqisi" məqalələr toplusunun II cildini hazırlamışdır. Üzeyir Hacıbəylinin 110-illiyinə həsr olunmuş həmin kitab 1997-ci ildə işıq üzü görmüşdür.

Dahi bəstəçinin yaradıcılığını əhatə edən bu kitabda onun zəngin irsi, tarixi missiyası bədii-estetik, tarixi-mədəni kontekstdə işiqlandırılmışdır. Məqalələrin çoxunda Üzeyir Hacıbəylinin ənənə və prinsiplərinin Azərbaycan bəstəçilərinin inkişafındakı rolundan və onların yeni mərhələdə davamını tapmasından bəhs edilir. Bundan başqa topluda istifadə olunan yeni mənbələr dahi sənətkarın yaradıcılığı, şəxsiyyəti haqqında daha dolğun təsəvvür yaradır.

Türkiyədə işləyərkən A.Tağızadə Bakıda nəşr olunan kitab və qəzetlər üçün Azərbaycan musiqisi ilə bağlı bir sıra məqalələr yazmış, uğurla müdafiə olunmuş iki namizədlik dissertasiyasının elmi rəhbəri olmuşdur.

"Musiqi tarixi" kafedrasının müdiri kimi Aida xanım öz təşkilatçılıq bacarığını aydın göstərə bildi. Onun rəhbərliyi və iştirakı ilə kafedranın əksər üzvləri namizədlik dissertasiyalarını müdafiə etmişlər.

Aida xanımın Azərbaycan bəstəkarlarının yaradıcılığına həsr olunmuş kitab və broşürləri Azərbaycan musiqişünaslığına bir töhfədir. Bu sırada dövrümüzün görkəmli bəstəkarları C.Hacıyevin, Hacıbəyovlar sülaləsinin nümayəndəsi Soltan Hacıbəyovun, müasir musiqi sənətinin görkəmli nümayəndəsi A.Əlizadənin yaradıcılıqlarına həsr olunmuş monoqrafiyalar parlaq nümunələrdir...

A.Z.Tağızadənin bir insan, alim, pedaqoq, maarifçi, ictimai xadim kimi fəaliyyəti bir sıra ciddi tədqiqat işlərinin obyekti ola bilər".

Aida xanım ömür-gün yoldaşı, respublikamızın dünya miqyasında tanınmış alimlərindən biri olan akademik Tofiq Əliyevlə yaşadığı mənalı uzun illəri həyatının ən xoşbəxt anları hesab edir.

Aida xanım iki övlad, üç nəvə və hələlik bir nəticə sahibidir.

Oğlu Fuad Əliyev texniki elmlər doktorudur və uzun illər Almaniyada çalışıb, indi isə Ankarada Özəl universitetdə fəaliyyət göstərir.

Qızı Nigar Əliyeva anasının yolunu davam etdirərək, sənətşünaslıq namizədidir. Hazırda Almaniyada məskunlaşaraq, orada öz iş fəaliyyətini davam etdirir. Aida xanım həmişə olduğu kimi, yenə də gözəldir, yaradıcılıq axtarışlarında və müəllimlik fəaliyyətindədir.

**Əsərləri**

Cövdət Hacıyev. Broşür. B., «Şur», 1992; "Историə азербауджанскоу музыки" dərsliyində fəsillər: "Музыкалğнаə кулğтура Азербауджана 2-оу половины XIX века", "Азербауджанское музыкалğное искусство в годы Великоу Отечественноу воуны". B., «Maarif», 1992;

«Musiqi ədəbiyyatı». Uşaq musiqi məktəblərinin VII sinfi üçün dərslik /həmmüəllif – F.Əliyeva/. B., «Şur», 1994;



«XX əsrin Azərbaycan musiqisi» e/m toplusu /tərtibçi və ön sözün müəllifi/. /I buraxılış/. B., ADK-nın nəşri, 1994;

«XX əsr Azərbaycan musiqisi» e/m toplusu /tərtibçi və ön sözün müəllifi/. /II buraxılış/. B., «Elm və həyat», 1997;

«Arşın mal alan» musiqili komediyasının val yazısı. «XX əsr Azərbaycan musiqisi» e/m toplusu /II buraxılış/. B., «Elm və həyat», 1997.

Hacı Şirinin dördüncü oglu Zülfüqar Şuşa şəhərində anadan olmuşdu. Gəncə şəhərində dükan açıb alver edirdi.

Zülfüqar 1920-ci ildə vəfat edib.

Zülfüqar Hafizə ilə ailə qurmuşdu. Əli adlı oğlu, Tamara adlı qızı vardı.

Əli Şuşa şəhərində doğulmuşdu.

Əli kolxozlaşma dönəmində Canhəsən kəndində qolçomaqlar tərəfindən öldürüldü.

Zülfüqarın qızı Tamara Şuşa şəhərində doğulmuşdu.

Tamara Dəmirlə ailə qurmuşdu. Onun tutulmasından sonra bir türkmənlə evlənmişdi.

Hacı Şirinin beşinci oğlu Hüseyn Şuşa şəhərində anadan olmuşdu.

Hüseyn Maya Kərbəlayı Cavad qızı ilə ailə qurmuşdu. Şirin, Asəf, Hafiz adlı oğlanları, Firəngiz adlı qızı var.

Züleyxa Hacı Şirin qızı Şuşa şəhərində anadan olmuşdu.

Züleyxa Mir Həsən Ağamirovla ailə qurmuşdu. Məhbubə və Rübabə adlı qızları vardı.

Tavad Hacı Şirin qızı Şuşa şəhərində anadan olmuşdu.

Tavad müğənni Keçəçioğlu Məhəmmədlə ailə qurmuşdu. Ramiz adlı oğlu, Hökumə və Adilə adlı qızları vardı.

Kərbəlayı Tağının ikinci oglu Zeynalabdin 1840-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Ailədə Zeynal çağrıldığından bu adla tanındı. Lakin bu tanınmağı uzun sürmədi. Zeynal cavan yaşlarında vəfat etdi.

Kərbəlayı Tağının üçüncü oğlu Adıgözəl 1847-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ailədə Həşim çağırıldığından bu adla tanındı. Molla yanında ibtidai təhsil almışdı. Ticarətlə məşğul idi.

Kərbəlayı Tağının *dördüncü oglu* Qasım *1851-ci ildə* Şuşa şəhərində anadan olmuşdu. Molla yanında ibtidai təhsil almışdı. Ticarətlə məşğul idi.

## Hacı Fəyyaz uşağı (Fəyyazovlar)

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Hacı Fəyyaz uşağıdır. Bu soyun ulu babası Fəyyazdır. Fəyyaz Təbriz şəhərində anadan olmuşdu. Şuşa şəhərinə köçürülmüşdü. Müqəddəs Kəbəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı Fəyyazın törəmələri Fəyyazov soyadını daşıyırdılar.

Hacı Fəyyazın Qafur, Şükür adlı oğlanları vardı.

Qafur 1766-cı ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Qafur 1852-ci ildə Şuşa şəhərində vəfat edib.

Məşədi Qafur Ballı ilə ailə qurmuşdu.Həsən, Hüseyn, Əkbər adlı oğlanları, Qönçə və Cahan adlı qızları vardı.

Həsən 1817-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Həsənin Məmməd, Əliqulu, Dadaş, Rüstəm, Cəmil, Mustafa, Xəlil adlı oğlanları vardı.

Məmməd 1847-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Həsənin ikinci oğlu Əliqulu 1851-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Məşədi Həsənin üçüncü oğlu Dadaş 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.



Məşədi Həsənin dördüncü oğlu Rüstəm 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Məşədi Həsənin beşinci oğlu Cəmil 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Məşədi Həsənin altıncı oğlu Mustafa 1867-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Məşədi Həsənin yeddinci oğlu Xəlil 1869-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Məşədi Qafurun ikinci oğlu Hüseyn 1822-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi, Məkkeyi-müəzzəmi ziyarət etmişdi. Ona bəzən Hacı Məmmədhüseyn də deyirdilər.

Hacı Hüseyn Gülbaharla ailə qurmuşdu.Məmmədəli, Aslan, Talıb adlı oğlanları vardı.

Məmmədəli 1854-cü ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Hacı Hüseynin ikinci oğlu Aslan 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Hacı Hüseynin üçüncü oğlu Talıb 1866-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Məşədi Qafurun ikinci oğlu Əkbər 1833-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kəbəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı Əkbərin Cabbar, Əbdürrəhim, Ələsgər adlı oğlanları vardı.

Cabbar 1854-cü ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Hacı Əkbərin ikinci oğlu Əbdürrəhim 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Hacı Əkbərin üçüncü oğlu Ələsgər 1869-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

***

Hacı Fəyyazın ikinci oğlu Şükür 1772-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Şükür Fatma ilə ailə qurmuşdu. Fəyyaz, Mehdiqulu, Sadıq, Hacı, Abbas adlı oğlanları, Nabat, Xanım adlı qızları vardı.

II Fəyyaz 1805-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-müəzzəmi ziyarət etmişdi.

II Hacı Fəyyazın Məmmədqulu, Məmmədəli adlı oğlanları vardı.

Məmmədqulu 1845-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı Məmmədqulunun Tiflisdə dükanları vardı.

II Hacı Fəyyazın ikinci oğlu Məmmədəli 1848-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Məşədi Şükürün ikinci oğlu Mehdiqulu 1807-ci ildə ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Mehdiqulunun Kərim, Səlim, Əli adlı oğlanları vardı.

Məşədi Şükürün üçüncü oğlu Sadıq 1809-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Sadığın Baxşalı adlı oğlu vardı.



Məşədi Şükürün dördüncü oğlu Hacı 1812-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Hacı İrana getmişdi.

Məşədi Hacı Bədirnisə ilə ailə qurmuşdu.

Məşədi Şükürün beşinci oğlu Abbas 1832-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Abbas qardaşı Məşədi Hacıya qoşulub İrana getmişdi.

## Kərbəlayı Ağababa uşağı

Təbrizli məhəlləsinin tanınmış sakinlərindən biri də Canıdır. Canı XVIII yüzilin ikinci yarısında yaşamışdı. Mədrəsə təhsili almışdı. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi. Ömrünün sonlarında kor olmuşdu.

Kərbəlayı Ağababanın Fətəli adlı oğlu vardı.

Fətəli 1768-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Fətəli 1855-ci ildə vəfat edib.

Fətəli Qızyetərlə ailə qurmuşdu. İmamqulu, Ələsgər, Ələkbər adlı oğlanları, Hüsnü, Xanım adlı qızları vardı.

İmamqulu 1830-cu ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

İmamqulunun Abış, Əbdül, Cəlil adlı oğlanları vardı.

Abış 1854-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

İmamqulunun ikinci oğlu Əbdül 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

İmamqulunun üçüncü oğlu Cəlil 1871-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Fətəlinin ikinci oğlu Ələsgər 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ələsgərin Firudin adlı oğlu vardı.

Firudin 1868-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Fətəlinin üçüncü oğlu Ələkbər 1833-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Kərbəlayı Canı uşağı

Təbrizli məhəlləsinin tanınmış sakinlərindən biri də Canıdır. Canı XVIII yüzilin sonlarında, XIX yüzilin önlərində yaşamışdı. Mədrəsə təhsili almışdı. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Canının Abdulla, Əbdüləzim adlı oğlanları vardı.

Abdulla 1782-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Mədrəsə yoldaşlarından Mirzə Əzizin adı bəllidir.

Abdulla şair idi. Öz adıyla rəvan təbli şeirlər yazırdı. Dövrünün şair və aşıqlarıyla yazışmaları qalıb.

Abdulla Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Təzkirəçi Mir Möhsün Nəvvab yazır: «Kərbalayı Abdulla Canının oğludur və Qarabağın Şuşa qalasında sakin idi. Kəsbkarlıq da edərdi. Ağıllı bir adam idi və dövrünün ariflərindən hesab olunurdu. 1255-ci ildə (1839) sağ idi və təxminən 50 yaşı var idi. 1259-cu ildə vəfat edib. Bəzi qəribə elmlərlə maraqlanırdı. Eşitdiyimizə görə, kimyanı məşq edirdi. O vaxtlar artıq səriştəsi də var idi. İstəyirdi ki, Mürtəzəvinin «Cefri-came» («Sehirli fal») kitabını yazsın. Bu falnamənin cüzvlərindən on üç cüzv yazmışdı ki, fani dünyadan köçdü, allah ona rəhmət eləsin. Mən o on üç cüzvü nəzərdən keçirəndə öz gözümlə gördüm ki, doğrudan da, zəhmət çəkmişdir».

Kərbəlayı Abdullanın şeirindən seçmə.

**Ey ki, zülmət gəhi-zülf içrə nurun misli-çırağ,**
**Məsti-sərxoş gözunə qarşı yaman gözlər iraq.**



**Olmasın xaki-dərin guşeyi-çeşmidən uzaq,**
**Ləblərindən dəhənim dərdə dava etdi soraq.**
**Söylədi ağzıma innabi-şəkər, sib buxaq.**
**Baxdı mərdum üzünə, saldı nəzərdən ayi,**
**Qıldı xəm şöhrəti-əbruyi-lətifin yayi,**
**Qədru qiyməti ləli-ləbin həmtayi,**
**Həvəsi-zülfi-siyahınla olub sövdayi**
**Ki, çəkib məsəleyi-kakili-tərradə daraq.**
**Görünür, çəhrələrin lalə kimi gülgünü al,**
**Qoymadı al ilə rüyin görünə, oldu məhal,**
**Sürməni şux gözün fitnəyə saldı filhal,**
**Qıldı izhari-şərəf Kəbeyi-ruxsardə hal,**
**Üzünü sərdi qədəmgahinə gülgün yanaq.**
**Kakilin şaxələnir zinəti düş etmək üçün ,**
**Xoş gəlir həlqeyi-ləb hərfi neyuş etmək üçün,**
**Dil dilər şərbəti-güftarını nuş etmək üçün,**
**Həlqədən vəsfi-binaguşunu guş etmək üçun,**
**Bəhr açdırdı sədəfdən duri-qəltanə qulaq.**
**Gül xitab etsə sənə qönçə ona eylər itab,**
**Qönçə kimdir ki, o qarşı üzünə verə cəvab?**
**Baxsa mərdüm üzünə şərmdən olmazmı kəlab?**
**Nədir ayinə ki, kuyində səni eyləyə yab?**
**Əksi-rüxsarın ona olmuya mənada dayaq.**
**Düşsə ayinə müqabil, üzünə qılsa nəzər,**
**Ona üz vermə, nəzərdən sal onu şamü səhər,**
**Qazədən qoyma qala dövrü-yanağında əsər,**
**Sərməvü vəsmə gözü qaşına meyl etsə əgər,**
**Sürməni sehrə salıb, vəsməyə et qaşü qabaq.**
**Hüsnünə aşiqi-sadiq demə hər gümrahi,**
**Aşiq oldur, yaxa çərxi dili-atəşgahi,**
**İmtəhan eylə şəbi-hicrdə Abdullahi,**
**Şöleyi-ahinə gər yanmasa çərxin mahi,**
**Tiğ çək, başını kəs, şəm kimi atəşə yax".**

Kərbəlayı Abdulla Canı oğlunun bu şeirini müğənni Məşədi İsi oxuyarmış.

Kərbəlayı Abdulla Cam oğlu Gövhərnisə bəyim İbrahimxəlil xan qızı Sarıcalı-Cavanşirlə sirdaş idi. Şair hərdən xan qızının yanına gedər, söhbətləşərdilər. Anlaşılmazlıqdan dolayı aralarında sərinlik əmələ gəlmişdi. Tədqiqatçı-jurnalist Vasif Quliyev yazır: "Gövhər Nisə bəyim kimi ağıllı, mərifətli, çox gözəl və zərif bir qadının Xankişi bəyə ərə getməsinə görə şuşalı şair Kərbəlayı Qəhrəman aşağıdakı beytləri yazıb, ona göndərmişdi:

**Xərmöhrəyə layiq olmayan xər**
**Səd heyf, cahanda tapdı Gövhər.**
**Təqdiri-qəzaya qıl tamaşa,**
**Axır səni verdi cəhrəbaşa.**

Gövhər Nisə bəyim elə bilmişdi ki, bu misraları pərəstişkarı olduğu, tanınmış söz ustası Canı oğlu Abdulla yazıb. Ədəbiyyata, poeziyaya yüksək qiymət verən və özü də gözəl lirik şerlər yazan xan qızı şairin xətrini dünyalar qədər istəyir, yaradıcılığını həmişə təqdir edirdi. Vəsiyyətnaməsi itib-batmasın deyə, Gövhər Nisə bəyim 1832-ci ildə Aşağı Gövhərağa məscidi üçün maddeyi-tarix yazmağı Abdulladan xahiş eləmiş və onun qələmə aldığı əsl sənət əsəri səviyyəsinə qalxan poeziya ətirli sözlər aydın nəstəliq xətlə məscidin girəcəyində, qapının üstündəki mərmər daşın üzərinə həkk olunmuşdu: "Şuşa məmləkətinin banisinin taxt-tacının qübbəsi öz həşəmətilə aya tənə edərək onun qarşısına çıxdı. Qapısı bütün dünya xanları üçün pənahgah olan qüdrətli İbrahimxəlil xanın elə parlaq cəmalı günəşin qarşısını tuturdu. O pak gövhər məscid və mehrabın banisi oldu. Firdovs behişt əhli buna şahid oldu. Əhli qələm bu tarixi belə qeyd etdi: "Allahın Kərəm sədəfində Gövhər daimi olsun!" Gövhər Nisə bəyim şairdən bərk incimiş və el arasında onu nə üçün biabır etdiyini soruşmuşdu. Abdulla isə üzrxahlıq edərək bu işdən xəbəri olmadığını aşağıdakı tərzdə yazıb ona göndərmişdi: "Ağa, böyük və yeganə Allah haqqı, bu söz-söhbətdən xəbərim yoxdur. Çoxdandır ki, mən heç danışmıram, amma zəmanə adamları mənim adımdan danışırlar.



Qartal bir qırqovulu cəngəlinə alanda göydəki bütün sərçələr qışqırmağa başlayırlar"1.

Kərbəlayı Abdulla Səfiyə ilə ailə qurmuşdu. Əbdürrəhim, Əbdüləzim, Mehrəli adlı oğlanları vardı.

Əbdürrəhim 1807-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Əbdürrəhim Balaxanımla ailə qurmuşdu. İbrahim, Məmmədbağır adlı oğlanları vardı.

İbrahim 1839-cu ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Ticarətlə məşğul idi.

İbrahimin Həmid, Əhməd adlı oğlanları vardı.

Həmid 1869-cu ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Ticarətlə məşğul idi.

İbrahimin ikinci oğlu Əhməd 1871-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Əbdürrəhimin ikinci oğlu Məmmədbağır 1855-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

***

Kərbəlayı Abdullanın ikinci oğlu Əbdüləzim 1817-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu. 1833-cü ildə "Rastabazar"da dükan işlədirdi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Əbdüləzim Ruqiyə ilə ailə qurmuşdu. İsmayıl, Hüseyn adlı oğlanları vardı.

İsmayıl 1845-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu.

Kərbəlayı Əbdüləzimin ikinci oğlu Hüseyn 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

***

Kərbəlayı Abdullanın üçüncü oğlu Mehrəli 1827-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu.

Mehrəlinin Müseyib, Zülfüqar, Heydər adlı oğlanları vardı.

Müseyib 1863-cü ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu.

Mehrəlinin ikinci oğlu Zülfüqar 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Mehrəlinin üçüncü oğlu Heydər 1867-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

***

Kərbəlayı Canının ikinci oğlu Əbdüləzim 1784-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu. "Rastabazar"da dükan işlədirdi.

Əbdüləzimin Hüseyn adlı oğlu vardı.

Hüseyn 1805-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Hüseynin Dadaş, Ələkbər, Əbdül adlı oğlanları vardı.

Dadaş 1837-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Ticarətlə məşğul idi.

Məşədi Hüseynin ikinci oğlu Ələkbər 1839-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Məşədi Hüseynin üçüncü oğlu Əbdül 1843-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

## Kərbəlayı Mustafa uşağı (Hacıyevlər)

Bu soyun ulu babası Kərbəlayı Mustafadır. Kərbəlayı Mustafa XVIII yüzilin sonu, XIX yüzilin önlərində Şuşa şəhərində yaşamışdı. Ticarətlə məşğul idi.



Kərbəlayı Mustafanın Hüseyn, Zeynal, İbrahim adlı oğlanları vardı.

Hüseyn 1772-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Hüseyn bir müddət Təbrizli məhəlləsinin deputatı və ağsaqqalarından olmuşdu.

Məclis və mərəkələrdə həmişə başda olardı. XVIII yüzilin ikinci yarısından başlayaraq Aşura təziyəsi, əsasən, Təbrizli məhəlləsində keçirilirdi. Daha izdihamlı, daha gur olduğundan şəhər qazısı da bu məhəllədə təziyəyə qatılırdı. 1840-cı illərin önlərində ruslara arxalanan ermənilər Təbrizli məhəlləsinin təziyyə məclisinə lağ eləmişdilər. Təziyədə iştirak edən şəhər qazısı Mirzə Əbülqasım bəy Mirzə Əli bəy oğlu Haqverdiyev (1803-?) ermənilərin əleyhinə fitva hazırlamış, bu işin həyata keçirilməsini şəhər deputatı, Təbrizli məhəlləsinin ağsaqqalı Hacı Hüseyn Kərbəlayı Mustafa oğluna (1772-?) tapşırmışdı. Məhəllə əhli hərə bir dəyənək götürüb, erməniləri xurd-xəşil eləmişdilər. Şəhər qəza idarəsinin polisləri və keşikçilər qəzəbli kütləni güc-bəla ilə yatırmışdılar. Erməniləri fitnəsi haqqında çara məlumat verilmişdi.

Hacı Hüseyn 1854-cü ildə vəfat edib.

Hacı Hüseynin törəməsi Hacıyev soyadını daşıyırdılar.

Hacı Hüseyn Fatma ilə ailə qurmuşdu. Ağakişi, İsmayıl, Babakişi adlı oğlanları, Qızxanım, İmmi, Əziz, Qızyetər adlı qızları vardı.

Ağakişi 1822-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Ağakişi Ayna ilə ailə qurmuşdu. Əlikişi, Muxtar, Həmid, Salman, Əhməd adlı oğlanları, Dürnisə, Bəyim adlı qızları vardı.

Əlikişi 1850-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Məktəb təhsili almışdı.

Məşədi Ağakişinin ikinci oğlu Muxtar 1852-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Məktəb təhsili almışdı.

Məşədi Ağakişinin üçüncü oğlu Həmid 1854-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Məktəb təhsili almışdı.

Məşədi Ağakişinin dördüncü oğlu Salman 1857-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Məktəb təhsili almışdı. Ticarətlə məşğud idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Salman Xanım Hacı İbrahim qızı ilə ailə qurmuşdu. Mahmud, Qulam adlı oğlanları vardı.

Mahmud Şuşa şəhərində doğulmuşdu. Şəhər Real Məktəbini bitirmişdi. Sonra Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına qəbul olunmuşdu. Seminariyanı tamamlayandan sonra Şuşa Real Məktəbində müəllim işləmişdi.

Mahmud bəyin Məryəm xanım adlı qızı vardı.

Məşədi Salmanın ikinci oğlu Qulam Şuşa şəhərində dünyaya gəlmişdi. Şəhər Real məktəbini bitirmişdi. 1917-ci ildə imtahan verib, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına qəbul olunmuşdu.

Məşədi Ağakişinin üçüncü oğlu Əhməd 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Məktəb təhsili almışdı.

Hacı Hüseynin ikinci oğlu İsmayıl 1824-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi İsmayılın Hüseyn, Əbdülhəsən, Əbdüləli, Ələsgər adlı oğlanları vardı.

Hüseyn 1859-cu ildə Şuşa şəhərində doğulmuşdu. Məktəb təhsili almışdı.

Məşədi İsmayılın ikinci oğlu Əbdülhəsən 1861-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Məktəb təhsili almışdı.

Məşədi İsmayılın üçüncü oğlu Əbdüləli 1866-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Məktəb təhsili almışdı.

Məşədi İsmayılın dördüncü oğlu Ələsgər 1869-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Məktəb təhsili almışdı.



Hacı Hüseynin üçüncü oğlu Babakişi 1837-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Babakişinin İbrahim, Xanlar adlı oğlanları vardı.

İbrahim 1865-ci ildə Şuşa şəhərində doğulmuşdu. Məktəb təhsili almışdı.

Babakişinin ikinci oğlu Xanlar 1868-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Məktəb təhsili almışdı.

***

Kərbəlayı Mustafanın ikinci oğlu Zeynal 1807-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Zeynalın törəmələri Zeynalov soyadını daşıyırdılar.

Məşədi Zeynal Səkinə ilə ailə qurmuşdu. Qasım, Əsəd, Əbülhəsən adlı oğlanları, Məsumə, Şahnisə adlı qızları vardı.

Qasım 1836-cı ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Qasımın Teymur, Zeynal adlı oğlanları vardı.

Teymur 1866-cı ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Məktəb təhsili almışdı.

Məşədi Qasımın ikinci oğlu Zeynal 1868-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Məktəb təhsili almışdı.

Məşədi Zeynalın ikinci oğlu Əsəd 1851-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Məktəb təhsili almışdı.

Məşədi Zeynalın üçüncü oğlu Əbülhəsən 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Məktəb təhsili almışdı.

***

Kərbəlayı Mustafanın üçüncü oğlu İbrahim 1820-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

## Kərbəlayı Qədiməli uşağı (Qədimovlar)

Təbrizli məhəlləsində sakin olanlardan biri də Qədimәlidir. Qədiməli "Rastabazar"da baqqal dükanı işlədirdi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Qədiməli Tükəzlə həyat qurmuşdu. Həsən adlı oğlu vardı.

Həsən Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Xorasanın pak torpağını və müqəddəs Məkkəyi-müşərrəfi ziyarət etmişdi.

Hacı Həsən Əcəblə ailə qurmuşdu. Hüseyn, Ağakişi, Hümbətəli, Həsənəli adlı oğlanları vardı.

Hüseyn 1824-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Hüseynin Cəfərqulu, Abbasqulu, Əliqulu, Hüseynqulu adlı oğlanları vardı.

Cəfərqulu 1863-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Hüseynin ikinci oğlu Abbasqulu 1868-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Hüseynin üçüncü oğlu Əliqulu 1870-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu.

Kərbəlayı Hüseynin dördüncü oğlu Hüseynqulu 1871-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hüseynqulu Ağca Kərbəlayı Yusif qızı ilə ailə qurmuşdu.

***



Hacı Həsənin ikinci oğlu Ağakişi 1839-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Ağakişinin Şirin, Salman, Süleyman, Şükür, Dadaş adlı oğlanları vardı.

Şirin 1863-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Şirinin Manaf, Lətif, Qulam, İslam adlı oğlanları vardı.

Manaf 1881-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Sonra ali məktəbdə təhsil almışdı. Kənd Təsərrüfatı naziri olub.

Manaf Xavər Axundova ilə ailə qurmuşdu. Bilqeyis adlı qızı vardı.

Bilqeyis Bakı şəhərində doğulmuşdu.

Bilqeyis Yusif Məmmədəliyevlə ailə qurmuşdu.

Şirinin ikinci oğlu Lətif 1895-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Almaniyada ali texniki məktəb bitirmişdi. SSRİ-yə qayıdandan sonra Nərimanov adına texnikumunda və başqa yerlərdə işləmişdi. Repressiya olunub. 1941-ci ildə həbsxanada vəfat edib.

Şirinin üçüncü oğlu Qulam 1903-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Qulam Kleopatra ilə ailə qurmuşdu. Ramiz adlı oğlu vardı.

Şirinin dördüncü oğlu İslam 1907-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Orta məktəbi bitirəndən sonra Leninqrad Politexnik İnstitutuna qəbul olunmuşdu. 1930-cu ildə institutu tamamlamışdı. Həmin il Azərbaycan SSR-nin Kommunal Təsərrüfat Komissarlığının əsaslı tikinti trestinə rəis təyin edilmişdi. Sonra komissarlığın plan-iqtisad idarəsinə rəis dəyişilmişdi. 1941-ci ilədək bu idarədə çalışmışdı. 1932-ci ildə eyni zamanda Bakı Sosial-İqtisad İnstitutunu bitirmişdi.

İslam Qədimov 1941-ci ildə cəbhəyə yollanır. 1944-cü ilədək II Dünya müharibəsində iştirak edir. Leytenant rütbəsindən mayor rütbəsinədək yüksəlir. Bir çox döyüş nişanları ilə təltif

edilir. 1944-cü ildə Azərbaycan KP MK-nin çağırışı ilə ordudan tərxis olunur. Azərbaycan SSR-nin Komunnal Təsərrüfat komissarı təyin olunur. 1945-ci ildə bu komissarlıq nazirliklə əvəzlənir. İslam Qədimov 1948-ci illədək Azərbaycan SSR-nin Komunnal Təsərrüfat naziri vəzifəsində çalışır. Bu vəzifədə bir çox dövlət nişanları ilə təltif edilir. 1948-ci ildən 1966-cı ilədək ölkənin bir çox şəhər və rayonlarının tikinti sahələrində rəhbər vəzifələrində işləyir. Bakı Zərif Mahudlar Fabrikinin, Q.Musabəyov adına Mexaniki Zavodun, Şamaxı rəsədxanasının və onlarla respublika əhəmiyyətli tikintinin inşasına başçılıq edir. 1966-cı ildən "Azkəndtikinti" trestinə rəis təyin edilir. Ömrünün sonunadək burda çalışır.

İslam Qədimov 1973-cü ildə vəfat edib.

İslam öncə bir rus əsilli qadınla, sonra Rövşanə Əliağa qızı Mustafayeva ilə ailə qurmuşdu. Yusif, Oqtay adlı oğlanları, Səidə, Dilarə adlı qızları var.

Yusif 1928-ci ildə Bakı şəhərində anadan olub. Orta məktəbi bitirəndən sonra Azərbaycan Politexnik İnstitutuna qəbul olunub. İnstitutu tamamlayandan sonra memar işləyib.

Yusif Qədimov körkəmli memardır. Əməkdar memar adına layiq görülüb. Akademikdir. 2009-cu ildə Azərbaycan Memarlar İttifaqı, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təsis etdiyi medalla təltif olunub.

İslamın ikinci oğlu Oqtay 1932-ci ildə Bakı şəhərində anadan olub.

İslamın böyük qızı Səidə 1938-ci ildə Bakı şəhərində dünyaya gəlib. 6 №-li orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olub. 1963-cü ildə universiteti tamamlayıb. Elə həmin ildən Azərbaycan radiosunda çalışıb. Sonra Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində dublyaj redaksiyasına dəyişilib. 1969-cu ildə həyat yoldaşı ilə bərabər Kubaya ezam olunub. 1972-ci ildə vətənə dönüb və Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində rəngli televiziya redaksiyasında redaktor vəzifəsində işləyib. 1977-ci ildən hərbi-vətənpərvərlik redaksiyasında redaktor



vəzifəsində çalışıb. 1979-1981-ci illərdə həyat yoldaşı ilə bərabər Əfqanıstan respublikasına ezam olunub. Məzari-Şərif vilayətində rus dili müəllimi işləyib. Ordan qayıdandan sonra, "Azərbaycanfilm" kinostudiyasında sənədli filmlər şöbəsində çalışıb. 1982-ci ildən Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində – "Drujba" redaksiyasında redaktor işləyib. Burdan da təqaüdə çıxıb. Azərbaycan Jurnalistlər Birliyinin üzvü, əmək veteranıdır.

Səidə xanım Rauf Yaqub oğlu Sücəddinovla ailə qurub. Cavid adlı oğlu, Cəmilə adlı qızı var.

İslamın ikinci qızı Dilarə 1944-cü ildə Bakı şəhərində dünyaya göz açıb. 6 nömrəli orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olub. Müəllim işləyir.

Kərbəlayı Ağakişinin ikinci oğlu Salman 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Salmanın Həmid, Xasay, Cəlal, Camal adlı oğlanları vardı.

Həmid Bakı şəhərində doğulmuşdu.

Həmid Əminə ilə ailə qurmuşdu. Çingiz, Fuad adlı oğlanları, Fəridə və Fəxrəndə adlı qızları var.

Çingiz Bakı şəhərində dünyaya gəlib.

Həmidin ikinci oğlu Fuad Bakı şəhərində anadan olub. Orta məktəbi bitirəndən sonra incəsənət institutuna qəbul olunub. Bəstəkar və şairdir. Bəstələdiyi mahnılar Azərbaycanın tanınmış müğənniləri, o cümlədən, Flora Kərimova tərəfindən ifa olunur. Onlardan biri də gözəl musiqisi, mənalı sözləri ilə çoxlarının yaddaşına yazılmış «Dalğalar» mahnısıdır. Adətən, musiqini insan həyatının mənası adlandırırlar. Bu, həqiqətən də, belədir. Məgər musiqisi və sözləri istedadlı Fuad Qədimova aid «Dalğalar» mahnısı bizə ömrümüzün xoş, qayğısız günlərini xatırlatmırmı? Şəffaf bulaq suyu kimi damla-damla qəlbimizə yol tapan bu mahnını eşidəndə özümüzdən asılı olmayaraq dodaqlarımız xəfifcə gülümsəyir.

**Gah coşursan, gah susursan,**
**Gah mahnısan, göz yaşısan,**
**Dalğalar, ay dalğalar.**

İnsanı duyğulandırdığı qədər düşüncələrə qərq edən gözəl sözlər elə mahnının musiqisini bəstələyən Fuad Qədimova məxsusdur. Mahnı Fuad müəllimə gənclik illərindən yadigardır. O, 1972-ci ildə incəsənət institutunu bitirərkən buraxılış işi kimi bu gözəl mahnını ərsəyə gətirib. Elə həmin il buraxılış gecəsində məşhur müğənnimiz Flora Kərimovanın ifasında səslənən «Dalğalar» mahnısı bir gecənin içində minlərlə insanın qəlbinə yol tapıb. Flora xanımın ecazkar ifası onu əsl sənət əsərinə çevirib. Heç kəsə bənzəməyən, özünəməxsus ifa tərzi olan Flora Kərimova «Dalğalar» mahnısının yaranma tarixini belə xatırlayır: "Mahnını eşidən kimi sevmişdim. Onun musiqisinə də, sözlərinə də vurulmuşdum. Fuad Qədimova aid «Dalğalar» mahnısını ilk dəfə «Dan ulduzu» ansamblının rəhbəri Gülarə Əliyeva oranjiman etmişdi. Mahnı o qədər ürəyəyatımlı, o qədər xəfif alınmışdı ki, onu sevməmək mümkün deyildi. Sonra «Dalğalar» mahnısını yazdırmaq qərarına gəldim. Göz yaşları içində, ürək ağrısı ilə ifa etdiyim mahnı çox gözəl alınmışdı. Oxuculara bir sirri açmaq istərdim. İlk dəfə «Dalğalar» mahnısını yazdıranda böyük qardaşım təzə rəhmətə getmişdi. «Dalğalar» onun ən çox sevdiyi və dinlədiyi nəğmələrdən idi. Odur ki, ifa edərkən özümdən asılı olmayaraq axıtdığım göz yaşları mahnını daha da yanıqlı etmişdi. Ümumiyyətlə, itkilər həmişə mənə çox pis təsir edib. Xüsusilə də, əgər bu insan sənin doğman, yaxınındırsa, bu itki ilə heç cür barışmaq istəmirsən. Ən qəribəsi isə o oldu ki, ifa zamanı axıtdığım göz yaşlarına baxmayaraq, səsimdə heç bir dəyişiklik olmadı. Təəssüflər olsun ki, sonradan sənətimə qadağaların qoyulduğu vaxt yazdırdığım bu mahnını da özümdə saxlaya bilmədim".

Amma artıq qeyd etdimiz kimi, insan kimi mahnının da taleyi, qisməti var. Belə olmasaydı, illər keçəndən sonra Flora xanıma «Dalğalar»ı ikinci dəfə ifa etmək, onu yeni oranjimanda yazdırmaq qismət olmazdı. Mahnının müəllifi Fuad Qədimovun təşəbbüsü ilə Flora Kərimova «Dalğalar»ı yenidən yazdırmaqla öz pərəstişkarlarını bir daha sevindirib, keçmiş xatirələri yada salıb. Kim bilir, bəlkə də, «Dalğalar» neçə-neçə insanın taleyində silinməz iz qoyub. Onu yenidən eşidəndə isə neçə-neçə insan öz gəncliyini, həyatının unudulmaz anlarını yada salıb, nostalji hisslərə dalıb. Beləliklə mahnı insanları, insanlar isə mahnını yaşadıb. İllər keçəcək, amma «Dalğalar» hər zaman yaddaşlarda yaşayacaq, onu dinləyənlərə əvəzolunmaz anlar, xoş duyğular bəxş edəcək.

Fuadın Rəna adlı qızı var.

Salmanın ikinci oğlu Xasay Bakı şəhərində anadan olmuşdu.

Xasayın Əziz adlı oğlu, Elmira adlı qızı var.

Salmanın üçüncü oğlu Cəlal Bakı şəhərində anadan olmuşdu.

Salmanın dördüncü oğlu Camal Bakı şəhərində anadan olmuşdu.

Camalın Elvira adlı qızı var.

Kərbəlayı Ağakişinin üçüncü oğlu Süleyman 1867-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Ağakişinin dördüncü oğlu Şükür 1870-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Şükür İzzətbəyim Seyid Nəsrulla qızı (1923-2000) ilə ailə qurmuşdu. Kamil, Əmir adlı oğlanları, Firəngiz adlı qızı vardı.

Kamil 1914-cü ildə Şuşa şəhərində doğulmuşdu.

Kamil Qədimov 1980-ci ildə vəfat edib.

Kamil Dünyaxanım İmamqulu qızı ilə ailə qurmuşdu. Rəna adlı qızı var.

Rəna Qədimova 1958-ci il yanvarın 10-da Bakı şəhərində doğulub. 1961-ci ildən 1964-cü ilədək Bülbül adına Orta İxtisas Musiqi Məktəbində Degina Seroviçin sinfində fortopiano öyrənib. 1965-ci ildən 1976-cı ilədək orta təhsilini davam etdirib. 1976-cı ildən 1983-cü ilədək Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət

Konservatoriyasında (Fərəc Qarayevin sinfində) bəstəkarlıq ixtisası üzrə oxuyub.

Rəna Qədimova 1983-cü ildən Soltan Hacıbəyov adına Sumqayıt şəhər Orta İxtisas Musiqi Məktəbində müəllim kimi fəaliyyətə başlayıb. 1997-ci ilədək bu məktəbdə çalışıb. 1997-ci ildən bu günədək Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin müəllimidir.

Rəna Qədimova peşəkar bəstəkardır. Xeyli musiqi bəstələyib. 1963-1964-cü illərdə: fortopiano üçün kiçik əsərlər ("Qız qalası", "Qəmli mahnı", "Balaca at", "Pioner marşı"). Fortopiano üçün bəstələdiyi 11 prelüd uğur qazanıb.

1979-cu ildə özünün bəstələdiyi əsərləri ilə ilk dəfə çıxış edib. I Zaqafqaziya festivalının diplomunu alıb. Türkmənistan-Azərbaycan gənc bəstəkarlar forumunun iştirakçısı olub. "Üzü zirvəyə" Beynəlxalq bəstəkarlıq festivalında öz əsəri ilə çıxış edib. (faqot və fortopiano üçün sonata)

Bu illərdə keçirilən Azərbaycan Respublikası Bəstəkarlar İttifaqının qurultaylarında, plenumlarında öz əsərləri ilə konsertlər, müxtəlif televiziya kanallarındakı verilişlərdə iştirak etmişdir.

2006-2007-ci illərdə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi xor əsərləri və nəfəsli alətlər üçün əsərlər müsabiqəsinin mükafatçısı olub.

Gənclər festivalında münsiflər heyətinin üzvləri cərgəsinə qatılıb.

2008-ci ildə bəstəkarlar ittifaqının konfransında məruzə edib, dövri mətbuata, eləcə də "Musiqi dünyası" jurnalına məqalələr yazıb, radioda çıxışları ilə yadda qalıb.

Rəna Qədimova 2008-ci ilin sentyabrında III müəllimlər qurultayına nümayəndə seçilib.

Məşədi Şükürün ikinci oğlu Əmir 1917-ci ildə Şuşa şəhərində anadan olmuşdu.

Əmir Şəkər xanımla ailə qurmuşdu. Aydın adlı oğlu, Firəngiz adlı qızı var.

Kərbəlayı Ağakişinin beşinci oğlu Dadaş 1873-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə



məşğul idi. Tağıyeva Fatmabəyim Seyid Nəsrulla qızı ilə ailə qurmuşdu. Nazim adlı oğlu dağ mühəndisi idi. Nazim 45 yaşında vəfat edib. Nazimin iki oğlu Azər və İsgəndər hal-hazırda Moskva şəhərində yaşayırlar.

Hacı Həsənin üçüncü oğlu Hümbətəli 1845-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Anadalgəlmə kor idi.

***

Hacı Həsənin dördüncü oğlu Həsənəli 1863-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Bakı şəhərində dükan icarəyə götürüb işlədirdi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Həsənəli Qədimov 1909-cu ildə borca düşmüş, evi açıq hərracda satışa çıxarılmışdı. Rza bəy Hacı İbrahim bəy oğlu Müqimov və Məşədi Salman bəy Hacı Hüseyn bəy oğlu Allahverənbəyov bu satışa etiraz etmişdilər.

## Qədimovlar soyu



*Məşədi Şükür Ağalişi oğlu və xanımı İzzətbəyim Seyid Nəsrulla qızı*



*Məşədi Şükür Ağakişi oğlu*





*Lətif Şirin oğlu Qədimov*



*Dadaş Ağakişi oğlu və xanımı Fatmabəyim*



Lətif Şirin oğlu Qədimov



İslam Şirin oğlu Qədimov



Lətif ailəsi ilə



Fuad Həmid oğlu Qədimov





Rəna Kamil qızı Qədimova (sağda)



Rəna Kamil qızı Qədimova



Kamil Şükür oğlu Qədimov



*(Şəkildə yuxarıdan solda) Həmid Salman oğlu Qədimov, Dadaş Ağakişi oğlu, Əminə Süleyman qızı, Bilqeyis Manaf qızı, Manaf Şirin oğlu*



*Əmir Şükür oğlu Qədimov*



*Dilarə İslam qızı Qədimova*



*Kübra Həsən qızı Qədimova*





*Qulam və Rəna Qədimovlar*




*Əminə Süleyman qızı övladları və qardaşı qızı ilə*






*Fəridə Həmid qızı qardaşı Faiqlə*

*Salman Ağakişi oğlu*




*Qədimovlar: Fizzə, Əminə, Həmid, Surxay, Fəridə, Faiq, Nailə və b.*






*Qədimovlar: Fizzə, Əminə, Həmid, Surxay, Fəridə, Faiq, Nailə və b.*

*Hacı Şirin oğlu, Manaf Şirin oğlu və Dadaş Ağakişi oğlu*





*Hacı Ağakişi oğlu*



*Əmir Aydın oğlu*



*Ceyhun Tofiq oğlu*



*İradə Tofiq qızı*



*Tofiq Hacı oğlu*



*Əmir Şükür oğlu*





*Həmid Faiq oğlu*



*Fəxrəndə Həmid qızı*



*Oqtay İslam oğlu*



*Firəngiz Əmir qızı*



*Cəmil Aydın oğlu*



*Fəridə və Çingiz Qədimovlar*



*Calal Süleyman oğlu, Rauf Surxay oğlu, Fizzə, Əminə Süleyman qızları*





*Kamilə Tofiqlə*



*Aydın Əmir oğlu*



*Cəlal və Camal Süleyman oğlu*



*Ənvər Süleyman oğlu*



**Kərbəlayı Qoca uşağı**

Bu soyun ulu babası Kərbəlayı Qocadır. Qoca XVIII yüzilin sonu, XIX yüzilin önlərində Şuşa şəhərində yaşamışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Qocanın Məhəmmədəli adlı oğlu vardı.

Məhəmmədəli 1773-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Hamam işlətmişdi. Pak Xorasanı, müqəddəs Kərbəla torpağını və Məkkəyi-müşərrəfi ziyarət etmişdi.

Hacı Məhəmmədəli 1855-ci ildə vəfat edib.

Hacı Məhəmmədəli Xədicə ilə ailə qurmuşdu.Rəhim, Abbas adlı oğlanları, Anaxanım adlı qızı vardı.

Rəhim 1835-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Rəhim Xeyransa ilə həyat qurmuşdu. Əliyar, Məmməd, Əsəd, Məmmədəli, Kərim, Səlim adlı oğlanları vardı.

Əliyar 1846-cı ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Rəhimin ikinci oğlu Məmməd 1852-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Rəhimin üçüncü oğlu Əsəd 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Rəhimin dördüncü oğlu Məmmədəli 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Rəhimin beşinci oğlu Kərim 1870-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Rəhimin altıncı oğlu Səlim 1872-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Məhəmmədəlinin ikinci oğlu Abbas 1835-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Abbasın Qulu adlı oğlu vardı.

Qulu 1872-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Rəcəbəli uşağı

Bu soyun ulu babası Kərbəlayı Rəcəbəlidir. Kərbəlayı Rəcəbəli XVIII yüzilin sonu, XIX yüzilin önlərində Şuşa şəhərində yaşamışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Rəcəbəlinin Hüseynəli, Hacı adlı oğlanları vardı.

Hüseynəli 1800-cü ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra mədrəsədə oxumuşdu. Öncə məhəllələrinin dini işləri ilə məşğul olmuş, sonra şəhər komendantlığının əks-kəşfiyyat bölməsinin İran şöbəsində işə düzəlmişdi. Qardaşı Hacının əlaqələndiricisi olmuşdu. Komendantdan öncə məaf, sonra bəy ünvanı almışdı.

Molla Hüseynəli bəy Pəri xanımla ailə qurmuşdu. Seyidəli bəy, Ələsgər bəy, Lütfəli bəy adlı oğlanları, Tükəzban xanım, Xeyransa xanım adlı qızları vardı.

Seyidəli bəy 1826-cı ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu.

Molla Hüseynəli bəyin ikinci oğlu Ələsgər bəy 1828-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra Sankt-Peterburq Konstantin Hərbi Yunker məktəbinə qəbul olunmuşdu. Məktəbi yunker rütbəsi ilə bitirmişdi.

Ələsgər bəyin Allahverən bəy adlı oğlu vardı.

Allahverən bəy 1866-cı ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra mədrəsədə oxumuşdu.

Molla Hüseynəli bəyin üçüncü oğlu Lütfəli bəy 1830-cu ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu.

***

Kərbəlayı Rəcəbəlinin ikinci oğlu Hacı 1802-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini molla yanında almışdı.



Sonra mədrəsədə oxumuşdu. Şəhər komendantlığında əks-kəşfiyyat bölməsinin İran şöbəsində işə düzəlmişdi. İranda kəşfiyyatçı kimi fəaliyyət göstərmişdi. Komendantdan məaf (vergilərdən azad) ünvanı almışdı. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Hacı Zeynəb xanımla ailə qurmuşdu. Əlikişi, Ələkbər, Əhməd adlı oğlanları, Balaxanım adlı qızı vardı.

Əlikişi 1833-cü ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Əlikişi Ayna xanımla ailə qurmuşdu. Oğlu olmayıb.

Kərbəlayı Hacının ikinci oğlu Ələkbər 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi.

Ələkbərin Yusif adlı oğlu vardı.

Yusif 1870-ci ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Hacının üçüncü oğlu Əhməd 1841-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi.

### Kərbəlayı Mirzə uşağı

Bu soyun ulu babası Kərbəlayı Mirzədir. Kərbəlayı Mirzə XVIII yüzilin sonu, XIX yüzilin önlərində Şuşa şəhərində yaşamışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla topağını ziyarət etmişdi.

Kərbəlayı Mirzənin Məmi, Əlihüseyn, Əbdülhüseyn adlı oğlanları vardı.

Məmi 1797-ci ildə Şuşa şəhərində anadan olmuşdu. "Rastabazar"da pinəçi dükanı vardı. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Məmi Hüsnü ilə ailə qurmuşdu. Məmmədhəsən, Mehdi, Sadıq adlı oğlanları, Zeynəb adlı qızı vardı.

Məmmədhəsən 1838-ci ildə Şuşa şəhərində doğulmuşdu. Xırda ticarətlə məşğul idi.

Kərbəlayı Məminin ikinci oğlu Mehdi 1840-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Xırda ticarətlə məşğul idi.

Kərbəlayı Məminin üçüncü oğlu Sadıq 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Xırda ticarətlə məşğul idi.

***

Kərbəlayı Mirzənin ikinci oğlu Əlihüseyn 1799-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi. Əvvəlcə pak Xorasan torpağını, Məşhədi-müqəddəsi, sonra Məkkəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı Əlihüseyn Şirinlə ailə qurmuşdu. Xədicə adlı qızı vardı.

***

Kərbəlayı Mirzənin üçüncü oğlu Əbdülhüseyn 1799-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Əbdülhüseynin Talıb, Tağı, Nağı adlı oğlanları, Bacıxanım, Püstə adlı qızları vardı.

Talıb 1843-cü ildə Şuşa şəhərində doğulmuşdu. Xırda ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Talıbın Yəhya adlı oğlu vardı.

Yəhya 1870-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Xırda ticarətlə məşğul idi.

Əbdülhüseynin ikinci oğlu Tağı 1845-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Xırda ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.



Əbdülhüseynin üçüncü oğlu Nağı 1848-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Xırda ticarətlə məşğul idi. O, 1860-cı ildən sonra Rusiyaya getmiş, orda qalmışdı.

Kərbəlayı Bayram uşağı

Bu soyun ulu babası Kərbəlayı Bayramdır. Bayram XVIII yüzilin sonu, XIX yüzilin önlərində Şuşa şəhərində yaşamışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Bayramın Qulu adlı oğlu vardı.

Qulu 1791-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra mədrəsədə oxumuşdu. Məhəllələrinin dini işləri ilə ilgilənmişdi.

Molla Qulunun Tağı, Mehdiqulu, Nağı, Abış, İsmayıl, Sadıq, Qasım adlı oğlanları vardı.

Tağı 1823-cü ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini atasının yanında almışdı. Sonra mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Tağının Ağa adlı oğlu vardı.

Ağa 1869-cu ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Molla Qulunun ikinci oğlu Mehdiqulu 1825-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Mehdiqulunun Əbdülhüseyn, Əbdüləli adlı oğlanları vardı.

Əbdülhüseyn 1857-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Mehdiqulunun ikinci oğlu Əbdüləli 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Molla Qulunun üçüncü oğlu Nağı 1827-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Nağının Abbasqulu adlı oğlu vardı.

Abbasqulu 1859-cu ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Molla Qulunun dördüncü oğlu Abış 1831-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Molla Qulunun beşinci oğlu İsmayıl 1833-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

İsmayılın Mahmud adlı oğlu vardı.

Mahmud 1859-cu ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Molla Qulunun altıncı oğlu Sadıq 1835-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu.

Molla Qulunun yeddinci oğlu Qasım 1845-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Kərbəlayı Hacıbaba uşağı

Bu soyun ulu babası Kərbəlayı Hacıbabadır. Hacıbaba XVIII yüzilin sonu, XIX yüzilin önlərində Şuşa şəhərində yaşamışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla topağını ziyarət etmişdi.

Kərbəlayı Hacıbabanın Məmmədhüseyn adlı oğlu vardı.

Məmmədhüseyn 1791-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Məmmədhüseyn Zeynəblə ailə qurmuşdu. Kərim, Saleh adlı oğlanları, Şəkər, Dürrə, Gülsüm adlı qızları vardı.

Kərim 1836-cı ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərimin İsax adlı oğlu vardı.

İsax 1853-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məmmədhüseynin ikinci oğlu Saleh 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.



Kərbəlayı Salehin Müseyib adlı oğlu vardı.

Müseyib 1869-cu ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Kərbəlayı Hacı uşağı

Bu soyun ulu babası Kərbəlayı Hacıdır. Hacı XVIII yüzilin sonu, XIX yüzilin önlərində Şuşa şəhərində yaşamışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Hacının Həsən adlı oğlu vardı.

Həsən 1807-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Həsənin Məmməd, Hüseyn adlı oğlanları vardı.

Məmməd 1854-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Həsənin ikinci oğlu Hüseyn 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Kərbəlayı İmamqulu uşağı

Bu soyun ulu babası Kərbəlayı İmamquludur. İmamqulu XVIII yüzilin sonu, XIX yüzilin önlərində Şuşa şəhərində yaşamışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı İmamqulunun Hacı, Məmmədqulu adlı oğlanları vardı.

Hacı 1805-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Hacı 1852-ci ildə vəfat edib.

Məşədi Hacı Xanımla ailə qurmuşdu.

Kərbəlayı İmamqulunun ikinci oğlu Məmmədqulu 1826-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Məmmədqulu Bəyimlə ailə qurmuşdu. Dadaş, Hacı, Əli, Məmməd adlı oğlanları vardı.

Dadaş 1847-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Məmmədqulunun ikinci oğlu Hacı 1852-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ölmüş əmisinin adını daşıyırdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Məmmədqulunun üçüncü oğlu Əli 1860-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Məmmədqulunun dördüncü oğlu Məmməd 1869-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Kərbəlayı Xudadad uşağı

Bu soyun ulu babası Kərbəlayı Xudadaddır. Xudadad XVIII yüzilin sonu, XIX yüzilin önlərində Şuşa şəhərində yaşamışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Xudadadın Hüseyn adlı oğlu vardı.

Hüseyn 1793-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Hüseyn 1855-ci ildə vəfat edib.

Məşədi Hüseyn Baharla ailə qurmuşdu. Dadaş, Ələsgər, Əkbər, Nəcəf, Məmmədəli, Bağır, Tağı, Əsəd adlı oğlanları, Gülsüm, Şahcahan adlı qızları vardı.



Dadaş 1830-cu ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Dadaşın Salman, Ağa adlı oğlanları vardı.

Salman 1858-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Dadaşın ikinci oğlu Ağa 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Hüseynin ikinci oğlu Ələsgər 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Ələsgərin Səlim, Hüsü adlı oğlanları vardı.

Səlim 1868-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Ələsgərin ikinci oğlu Hüsü 1870-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Hüseynin üçüncü oğlu Əkbər 1838-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Hüseynin dördüncü oğlu Nəcəf 1839-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla topağını ziyarət etmişdi.

Kərbəlayı Nəcəfin Əhməd, Əbdül, Həmzə adlı oğlanları vardı.

Əhməd 1865-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Nəcəfin ikinci oğlu Əbdül 1870-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Nəcəfin üçüncü oğlu Həmzə 1872-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Hüseynin beşinci oğlu Məmmədəli 1840-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Hüseynin altıncı oğlu Bağır 1845-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Hüseynin yeddinci oğlu Tağı 1852-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Hüseynin səkkizinci oğlu Əsəd 1855-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Kərbəlayı Yusif uşağı

Bu soyun ulu babası Kərbəlayı Yusifdir. Yusif XVIII yüzilin sonu, XIX yüzilin önlərində Şuşa şəhərində yaşamışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Yusifin Ağakişi adlı oğlu vardı.

Ağakişi 1781-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Ağakişi Şahnisə ilə ailə qurmuşdu. Süleyman, Mahmud, Yusif, Abbas adlı oğlanları, Fatma adlı qızı vardı.

Süleyman 1821-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Süleymanın Əli, Dadaş, Həsən adlı oğlanları vardı.

Əli 1848-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Süleymanın ikinci oğlu Dadaş 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Süleymanın üçüncü oğlu Həsən 1863-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.



Məşədi Ağakişinin ikinci oğlu Mahmud 1826-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Ağakişinin üçüncü oğlu Yusif 1833-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Ağakişinin dördüncü oğlu Abbas 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Məşədi Ocaqverdi uşağı (Haqverdiyevlər)

Bu soyun ulu babası Ocaqverdidir. Ocaqverdi XVIII yüzilin sonlarında, XIX yüzilin önlərində yaşamışdı. Kitabdarlıqla məşğul olurdu. Müqəddəs Xorasan torpağını ziyarət etmişdi.

Məşədi Ocaqverdi Məşədi Bağır qızı Şərəflə ailə qurmuşdu.

Məşədi Ocaqverdinin Haqverdi, Həsən adlı oğlanları vardı.

Haqverdi 1807-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə ünvanı daşıyırdı. Öncə Mehdiqulu xanın yanında mirzə olmuşdu.

Mirzə Haqverdinin gözəl xətti vardı. Katib işləyirdi. Kitab üzü köçürməklə güzəran keçirirdi.

Akademik Feyzulla Qasımzadə "Abasqulu Ağa Bakıxanov Qüdsinin şeirləri"[10] məqaləsində belə yazırdı: Abasqulu Ağa Bakıxanovun birinci dövrdə yazdığı mühüm əsərlərdən biri "Rəyazülqüds" əsəridir. Bu əsərin Nizami adına Dil və Ədəbiyyat İnstitutunda kamil bir əlyazma nüxsəsi vardır. Bü nüxsənin üzü şairin sağlığında 1841-ci ildə Məşədi Ocaqverdi oğlu Haqverdi Qarabağlı tərəfindən köçürülmüşdür.

M.Füzuli Əlyazmalar İnstitutunda Mirzə Haqverdinin xətti ilə köçürülmüş kitablar saxlanılır.

---

[10] "Ədəbiyyat" qəzeti, 12 iyun 1944-cü il

Mirzə Haqverdi Fatmanisə ilə yaşam qurmuşdu. Abbas, Ələkbər, Ələsgər, Qasım, Hüseyn, Səməd adlı oğlanları, Mina və Səkinə adlı qızları vardı.

Abbas 1834-cü ildə Təbrizli məhəlləsində doğulmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsə və qəza məktəbini bitirmişdi. Rus idarələrində işləmişdi. Göyçay qəzasının məhkəmə pristavı olmuşdu. Quberniya katibi, kollec qeydiyyatçısı çinləri almışdı.

Mirzə Abbas bəy Şuşa şəhərinin mədəni, ictimai həyatında mühüm rol oynayanlardan biridir. XX yüzilin önlərinə aid mətbuatda onun adı ziyalılar cərgəsində tez-tez çəkilir. Onun ictimai yaşamdakı iştirakına dair bir bəlgə var. Şuşa şəhər sakinləri Nəbiağayevlərin bəyliyini Qarabağın adlı-sanlı bəyləri 1868-ci il oktyabrın 23-də andlı məhkəmədə təsdiq etdilər. Həmin bəylər bunlardır: Hüseyn bəy Şərifbəyov, Məşədi Əli bəy Məşədi Məmmədşəfi bəy oğlu (Şəfibəyov-Ə.Ç.), Həsənəli ağa Xanqaradağski, Kəlbəli bəy Xələf bəy oğlu (Xələfbəyov-Ə. Ç.), Məmməd bəy Məmmədəli bəy oğlu, Abdin bəy Hümbətəli bəy oğlu (Şəfibəyov-Ə. Ç.), Əhməd bəy Həsənəli bəy oğlu, Paşa bəy Ağayev, Mərdan bəy Zeynal bəy oğlu, Əli bəy İbadullabəyov, quberniya katibi Abbas bəy Haqverdiyev, İbrahim bəy Əli bəy oğlu1.

Mirzə Abbas bəyin Qasım bəy adlı oğlu, Xurşud xanım adlı qızı vardı.

Qasım bəy 1866-cı ildə dünyaya göz açmışdı. Ailə təlim-tərbiyəsi, təhsili almışdı. Şuşa qəza idarəsində polis pristavı işləmişdi.

Mirzə Abbas bəyin qızı Xurşud xanım 1868-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. O, Dağıstanın Teymurxan-Şura şəhərində progimnaziyada təhsil almış, mədəni bir qadın olmuşdur.





Xurşud xanım dövrünün maarifpərvər ziyalılarının xeyirxah işlərinə rəğbət bəsləmişdir. O, Azərbaycan mədəniyyətinin inkişafında layiqli xidmətləri olmuş övladlar tərbiyə etmiş, N. Vəzirovun ədəbi irsini səliqə ilə qoruyub saxlamış, dramaturqun ilk oxucusu, ilk tənqidçisi olmuşdur. 1913-cü ilin sentyabr ayında Xurşud xanım ölümündən bir neçə gün əvvəl demişdi: «Cavanlığımın ən yaxşı illərini mən xalq müğənnisi Dərvişə (Nəcəf bəyə -Ə. Ç.) həsr etmişəm, onu əzizləmişəm, həyatını qorumuşam. Əgər mənim nəzarətim olmasaydı, onun əsərləri itib-batmışdı. Müvəffəqiyyətsiz əsərlərini belə göz bəbəyi kimi saxlamışam, bəzən də qadın psixologiyasının əlamətlərini ora əlavə etmişəm. Mən də ağır dəqiqələrdə Dərvişlə birlikdə vuruşmuşam və mübarizəni dəyanətlə davam etdirmişəm. Çox təəssüf ki, onun yaradıcılığının qırx illik yubileyini görmək mənə qismət olmayacaq».





Xurşud xanım 1913-cü ildə vəfat edib.

Xurşud xanım Nəcəf bəy Fətəli bəy oğlu Vəzirovla ailə qurmuşdu. Şamil bəy adlı oğlu, Sara xanım və Sürəyya xanım adlı qızları vardı.

Mirzə Haqverdinin ikinci oğlu Ələkbər 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-

müşərrəfi ziyarət etmişdi. Şuşa şəhərində və Ağcabədidə dükan işlədirdi.

Hacı Ələkbərin Yusif, Hüseyn, Zeynal adlı oğlanları, Züleyxa adlı qızı vardı.

Yusif 1870-ci ildə Şuşa şəhərində doğulmuşdu. Yusif yeniyetmə yaşında vəfat edib.

Hacı Ələkbərin ikinci oğlu Hüseyn 1872-ci ildə Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Hüseyn ana dilindən başqa, fars və ərəb dillərini mükəmməl bilirdi..



Həsən bəy Zərdabi saatını yalnız ona düzəltdirərmiş. Saatlarla söhbət edərmişlər. Nəvəsi Səadət Qarabağlının bildirdiyinə görə, onlar həm də qohum olublar.

Həm də saatsaz emalatxanası vardı. Məşədi Hüseyn Ağcabədidə vəfat edib.

Onun 6 övladı – 2 oğlu, 4 qızı olmuşdur. Zəhra, Ələkbər, Səriyyə, Əsurə, Talıb və Şəhla.

Hacı Ələkbərin üçüncü oğlu Zeynal 1883-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Zeynalın Əliheydər adlı oğlu, Rahilə, Sara, Fatma, Qənirə, Ulduzə adlı qızları vardı.

Əliheydər Zeynal oğlu 1931-ci ilin yanvar ayında Ağcəbədi rayonunda doğulub. Lakin o, anadan olandan bir neçə il sonra Ağdam rayonuna köçüblər... Orta təhsilini başa vurub. 1949-cü ildə Bakı şəhərinə gələrək Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub. 1954-cü ildə həmin fakültəni bitirərək hüquqşünas ixtisası alıb. Bir müddətdən sonra, yəni, 1956-cı ildə



Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində yeni təşkil olunan Bakı Elmi-Tədqiqat Kriminalistika laboratoriyasında baş ekspert vəzifəsinə işə qəbul olunub. Kriminalistika elminə dərindən yiyələnmək üçün əlavə kurs keçmək lazım idi. Bu məqsədlə onu və onunla bir yerdə işləyən Kəmalə xanım Sarıcaliniskayanı 1957-ci ildə Moskvada xüsusi təşkil olunmuş kriminalistika elmi üzrə kursa göndərdilər. Bir il sonra kursu bitirib, ekspert kimi fəaliyyət göstərməyə başladı. Bir müddətdən sonra respublikada Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertiza İnstitutu fəaliyyət göstərməyə başladı. O, ekspert işləyən zaman məhkəmə və prokurorluq orqanları tərəfindən cinayətkarların ifşa olunmasında yaxından iştirak edirdi.



Bir neçə il Mərdəkanda yerləşən Azərbaycan SSR Daxili İşlər Nazirliyinin Xüsusi Milis Məktəbində müəlllim işləyib. Sonra yenidən öz əvvəlki işinə, yəni, məhkəmə ekpertizası institutuna qayıdıb. Ə. Haqverdiyev ekspert işləyən zaman həm də Bakı Dövlət Universitetinin hüquq fakültəsində kriminalistika elmi üzrə seminar aparırdı. Müəllimliyə olan dərin həvəsi 1968-ildən bu

günə qədər onu Azərbaycan Dövlət İqtisad Universitetinin hüquq kafedrasına bağladı.

Müəllim işlədiyi müddət ərzində həmişə universitetin ictimai işində yaxından iştirak edib. Sovetlər dönəmində ictimai əsaslar üzrə respublika ali məhkəməsində xalq iclasçıları şurasının sədri seçilib. Ədalət mühakiməsinin həyata keçirilməsində yaxından iştirak edib.

Əliheydər Haqverdiyev 1956-cı ildə Firəngiz Mütəllim qızı Mütəllimova ilə ailə həyatı qurub. Niyazi və Azər adlı oğlanları olub.

Böyük oğlu Niyazi uzun illərdir ki, Moskvada yaşayır. Onun bir oğlu var.

Kiçik oğlu Azər Haqverdiyev 2009-cu ildə vəfat edib. Onun Nigar və Tamerlan adlı iki övladı var.



Qənirə Məşədi Zeynal qızı 1924-cü ildə Ağdam şəhərində doğulmuşdu.1943-cü ildə N. Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinə daxil olmuşdur. 1949-cu ildə pediatriya fakültəsini bitirərək uşaq həkimi kimi fəaliyyətə başlamışdır. Əvvəlcə Xaldanda uşaq-qadın məsləhətxanasında pediatr-həkim, 1951-ci ildə isə Ağdam şəhərindəki uşaq evində uşaq həkimi işləmişdir. 1953-1958-ci illərdə Qərvənd xəstəxanasının baş həkimi kimi fəaliyyət göstərmişdir. 1958-1960-ci illərdə isə Ağdam şəhər Uşaq Birləşmiş Xəstəxanasının pediatrı olmuşdur. 1962-ci ildə Bakıya köçərək burda fəaliyyətə başlamışdır. Bakıdakı 2, 5 və 13 nömrəli uşaq poliklinikalarında həkim-pediatr olmuşdur.



1951-ci ildə Hilal Allahverdi oğlu Əliyevlə ailə həyatı qurmuşdur. O, üç qız-(Pərivəş, Şəfəq, Roydə) dünyaya gətirmişdir. Onun Müjgən, Nigar, Nilufər, Əbülfəz, Səid və Jalə adlı altı nəvəsi var.

Qənirə Haqverdiyeva əmək sahəsindəki fəaliyyətinə görə 1980-ci ildə "Əmək veteranı" medalı ilə təltif olunmuşdur. 2004-cü ildə Bakıda vəfat etmişdir.

Məşədi Zeynalın beşinci qızı Ulduzə 1931-ci ildə Ağdam şəhərində anadan olub. İlk təhsilini də burda alıb. 1948-ci ildə orta təhsilini tamamlayaraq, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olub. 1953-cü ildə universiteti bitirərək jurnalist ixtisasına yiyələnib.

Elə həmin ildə öz xahişi ilə Ağdamda çıxan "Lenin yolu" qəzetinə təyinat alıb. İki il bu qəzetdə ədəbi işçi vəzifəsində çalışıb. Sonra isə "Azərbaycan gəncləri" qəzetinə dəyişilib. Bu qəzetdə işləyən Ulduzə xanım şəhərin mədəni-siyasi həyatında yaxından iştirak edərək qəzetdə maraqlı məqalələrlə çıxış etmişdir.

1956-cı ildə Hindistanın məşhur aktyoru Rac Kapur böyük müğənni Rəşid Behbudovun dəvəti ilə Bakıya gələrkən onu qarşılayanlar arasında Ulduzə Haqverdiyeva da vardı. Rac Kapuru və onunla gələn nümayəndə heyətini Azərbaycan gəncləri adından salamlamaq şərəfi ona nəsib olmuşdu.

Ulduzə xanım elə həmin ildə İdris Məhəmmədalı oğlu Məmmədovla ailə həyatı qurub. Həyat yoldaşı hüquq-mühafizə orqanlarında işlədiyi üçün onlar əvvəlcə Lənkərana, sonra Naxçıvanın Şərur rayonuna getmişlər. Ona görə də U. Haqverdiyeva müvəqqəti olaraq sevimli sənətindən uzaqlaşmalı olmuşdu.

Sonra ailə Füzuli şəhərinə köçmüş, doqquz il də orda yaşamışlar. O, burda çıxan "Araz" qəzetində çalışmışdır.

1969-cu ildə yenidən Bakıya gələn Ulduzə Haqverdiyeva əvvəlcə Azərbaycan Jurnalistlər İttifaqında məsləhətçi vəzifəsində fəaliyyət göstərmiş, sonra isə "Müxbir" jurnalına keçərək 20 il orda işləmişdir.

Mətbuatda çoxlu aktual, maraqlı yazıları dərc olunmuşdur.

1991-ci ildən təqaüddədir.

Ulduzə Haqverdiyevanın üç qızı - Səadət, Kəmalə, Sevinc və Rəşad, Orxan, Leyla, Abbas adlı dörd nəvəsi var. İki qızı hazırda Türkiyənin İstanbul şəhərində yaşayır və orda musiqi müəllimi kimi fəaliyyət göstərərək türk uşaqlarına və gənclərinə musiqinin sirlərini öyrədirlər.

Səadət İdris qızı Qarabağlı 1957-ci ildə Şərur rayonunda doğulmuşdur. 1977-ci ildə Şəki şəhər Orta İxtisas Musiqi məktəbinin fortepiano şöbəsini fərqlənmə diplomu ilə qurtarmış, 1984-cü ildə isə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir.

1979-cu ilin sentyabr ayından Üzeyir bəy Hacıbəyovun ev-muzeyində fonoteka müdiri kimi əmək fəaliyyətinə başlayıb, sonra muzey bələdçisi, kiçik elmi işçi, böyük elmi işçi, ekspozisiya və kütləvi işlər şöbəsinin müdiri, elmi katib və muzeyin direktoru vəzifələrində çalışıb. 2005-ci ilin fevral ayından müstəqil yaradıcılıqla məşğuldur.

Mətbuatda çıxan ilk yazısı 1978-ci ildə Cəlilabadda nəşr olunan «Taxılçı» qəzetində işıq üzü görüb. Üzeyirbəyşünas kimi ilk qələm təcrübəsi 1981-ci ildə «Ədəbiyyat və incəsənət» qəzetində dərc edilib. Bundan sonra respublikanın mərkəzi mətbuatında Üzeyir bəy Hacıbəyovun həyatı, yaradıcılığı və sair mövzularda müntəzəm olaraq 200-dən artıq yazısı dərc olunub, televiziya və radio kanallarında çıxışlar edib.



Səadət Qarabağlı respublikamızın müxtəlif şəhər və rayonlarında, kənd zəhmətkeşləri qarşısında, eləcə də İstanbul şəhərində mühazirələr oxumuş, konfranslar keçirmişdir. Bütün bunlar geniş ictimaiyyət tərəfindən maraqla qarşılanmış və yüksək qiymətləndirilmişdir.



Görkəmli bəstəkar Üzeyir bəy Hacıbəyovun yaradıcılıq irsinin nəşrində və təbliğində xidmətləri böyükdür.

Səadət Qarabağlı 1996-cı ildə nəşr olunan «Üzeyir Hacıbəyov ensiklopediyası»nın müəlliflərindən biridir. Üzeyir bəy Hacıbəyovun yorulmaz tədqiqatçısı kimi «Üzeyir bəy Hacıbəyovun publisistikasında musiqi məsələləri» adlı kitab yazmışdır. Kitabın birinci nəşri 1997-ci ildə "Bilik" cəmiyyətinin «Bayatı», ikinci nəşri isə 2004-cü ildə «Pedaqogika» nəşriyyatlarında olmuşdur. Bundan əlavə, Ü.Hacıbəyova həsr edilmiş şeirlərin bir qismini nəşrə hazırlamış, «Şöhrət tacı» adı altında mini-kitab (tərtibçilər Ramazan Xəlilov, Səadət Qarabağlı, redaktoru Vladimir Qafarov) halında işıq üzü görmüşdür.

Eləcə də dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəyova həsr olunmuş şeirlər və poemalar toplusunu «Üzeyirbaycan» (tərtibçi və ön sözün müəllifi Səadət Qarabağlı, Bakı, «Vektor» nəşrlər evi, 2006) adı altında, həmçinin Üzeyir bəy Hacıbəyovun «Aşıqsayağı» triosunu (Skripka, violonçel və fortepiano üçün, «Vektor» nəşrlər evi, 2006) və «Arazbarı» (partitura, tərtibçi və ön sözün müəllifi Səadət Qarabağlı, «Vektor» nəşrlər evi, Bakı, 2006) və «Üzeyir bəy Hacıbəyov və Molla Nəsrəddin» (tərtibçilər Səadət Qarabağlı və Tahir Aydınoğlu, Bakı, «Adiloğlu» nəşriyyatı, 2007) kitablarını nəşr etdirmişdir.

Səadət Qarabağlı 1985-ci ildə SSRİ Mədəniyyət Nazirliyinin «Kəndə mədəni hamilik əlaçısı» döş nişanı ilə təltif edilmiş, dəfələrlə Azərbaycan Mədəniyyət Nazirliyindən təşəkkür məktubları və mükafatlar almışdır.

Səadət Qarabağlı 2000-ci ildə «Üzeyir bəy Hacıbəyovun publisistikasında musiqi məsələləri» kitabına görə Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqının «Nurlu qələm ustası» fəxri mükafatına, 2001-ci ildə isə Azərbaycan-Finlandiya və digər ölkələr arasında mədəni və iqtisadi əlaqələrin möhkəmləndirilməsində göstərdiyi xidmətlərinə görə Azərbaycan-Finlandiya Assosiasiyasının «Gümüş arzu» mükafatına layiq görülmüşdür.

## Haqverdiyevlər soyu



















*Fatma xanım atası və oğlu ilə*





Səadət Qarabağlı Ramazan Xəlilov və Azad Mirzəcanlı ilə



Məşədi Hüseyn ailə üzvləri ilə





Adil Quliyev, Səadət Qarabağlı, Ramazan Xəlilov
və Mirzə İbrahimov



*Səadət Qarabağlı*



*Sara Məşədi Zeynal qızı*



*Ulduzə Haqverdiyeva bacısı qızı Elmira İbrahimova ilə birlikdə*



2008-ci ildə Azərbaycan Yazıçı Qadınlar Cəmiyyətinin «Tuti Bikə» mükafatını almışdır.

Səadət Qarabağlı 1985-ci ildə Faiq Məhəmməd oğlu Mirzəzadə ilə ailə qurmuşdur. Rəşad və Leyla adlı övladları var.

Hacı Ələkbər Haqverdi Qarabağinin ikinci övladı Məşədi Züleyxa xanımdir. Onun 3 oğlu və 1 qızı olubdur.

Hacı Ələkbər Haqverdi Qarabağinin ikinci övladı Məşədi Züleyxa xanımdır. O,1879-cu ildə Şuşada anadan olmuşdur. Züleyxa xanım çox ağıllı, zabitəli, zəhmli, sözü keçən bir xanım idi. Onun gözəl əl qabiliyyəti vardı. Nəfis xalçalar toxuyub, təkəlduz sənəti ilə məşğul olub. Eyni zamanda dadlı-ləzzətli xörəklər, şirniyyatlar bişirməyi bacarırdı.

Züleyxa xanım 1897-ci ildə Şuşalı Heydər Axundov ilə ailə həyatı qurmuşdur. Bu izdivacdan onların dörd övladı dünyaya gəlmişdir.

Bir ana kimi Züleyxa xanım savadlı, istedadlı, Vətənə layiqli övladlar böyütmüşdür. Onun 3 oğlu və 1 qızı olmuşdur.

Züleyxa xanım 1943-cü ildə Məşhəd şəhərində vəfat etmişdir.

Mahmud 1898-ci ildə Şuşada anadan olmuşdur. O, iqtisadçı idi. Bakıda çalişirdi. Gözəl qarmon çalmağı bacarırdı. Xalçaçı-rəssam, xalq rəssamı Lətif Kərimov dəfələrlə etiraf edib ki: "Mahmud kimi qarmon çalan ikinci bir ifaçı omrüm boyu eşitmədim".

Goyçək 1902-ci ildə Şuşada doğulmuşdur. Evdar qadın olub. Gözəl əl qabiliyyəti vardı. Tikiş, tikmə işlərini məharətlə bacarırdı. Göyçək xanım 1994-cü ildə Amerikanın Boston şəhərində vəfat etmişdir.

Rza 1907-ci ildə Şuşada anadan olmuşdur. O, şərqşünas idi. Ərəb, fars, rus, fransız dillərini gözəl bilirdi. Rza Axundov Azərbaycan Radiosunda İran verilişləri şöbəsinin müdiri vəzifəsində çalışmışdır. O, 1945-ci ildə İranın Məşəd şəhərində Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" operasını, "O olmasın, bu olsun", "Arşın mal alan" operettalarını müvəffəqiyyətlə tamaşaya qoymuşdur. O, 1930-cu ildə dayısı qızı

Rahilə Haqverdiyeva ilə ailə həyatı qurmuşdur. R. Axundov 1983-cü ildə Bakıda vəfat etmişdir.

Rüstəm 1914-cü ildə Şuşada anadan olmuşdur. İqtisadçı idi. 2001-ci ildə Tehranda vəfat etmişdir.

**Məşədi Zeynal Hacı Ələkbər oğlu Haqverdiyevin övladları**

Rahilə - 1916-cı ildə Şuşada anadan olmuşdur. Bibisi oğlu Rza Axundov ilə ailə həyatı qurmuşdur. Onların 4 övladı (Rayibə, Adil, Raqibə, Aydın) olmuşdur. O, 2003-ci ildə Bakıda vəfat etmişdir.

Sara - 1918-ci ildə Şuşada doğulmuşdur. Səhiyyə işçisi olmuşdur. 1934-cü ildə Qarabağda tanınmış cərrah Qurban İbrahimov ilə ailə qurmuşdur. Elmira və Elman adlı 2 övladı olmuşdur. O, 2005-ci ildə Bakıda vəfat etmişdir.

Fatma - 1922-ci ildə Ağcabədidə anadan olmuşdur. 1940-cü ildə hüquqşünas Bəbir Abdullayev ilə ailə qurmuşdur. 3 oğul (İntiqam, Ərəstün, Görüş) dunyaya gətirmişdir. 2006-cı ildə Bakıda vəfat etmişdir.

Mirzə Haqverdinin üçüncü oğlu Ələsgər 1839-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.





Mirzə Haqverdinin dördüncü oğlu Qasım 1844-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Mirzə Haqverdinin beşinci oğlu Hüseyn 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Mirzə Haqverdinin altıncı oğlu Səməd 1855-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Haqverdiyev Səməd Yunus oğlu (1921, Bakı-1991) - Mənzərəçi rəssam. Bakı Rəssamlıq Məktəbini bitirmişdir (1944). 1945-ci ildən respublikada açılmış bütün rəssamlıq sərgilərində daim çıxış etmiş, Azərbaycan təsviri sənətini Moskvada keçirilən Ümumittifaq sərgilərində və eyni zamanda xarici ölkələrdə dəfələrlə təmsil etmişdir.

Səməd Haqverdiyev Şuşa, Şamaxı, Qəbələ, İsmayıllı, Lənkəran, Zaqatala, Kəlbəcər, Abşeron rayonlarına tez-tez yaradıcılıq ezamiyyətinə gedir və öz mənzərə rəsmlərinə süjet axtarışlarına çıxırdı. O, öz əsərlərini naturadan çəkirdi. Rəssamın lirik mənzərə rəsmləri səmimiyyəti, əzəməti ilə doğma torpağın gözəlliyinə vurğunluğu ilə rəğbət qazanmışdır.

1967-ci ildə Oktyabr inqilabının 50 illiyinə həsr edilmiş Ümumittifaq rəssamlıq sərgisində “Şumlanmış torpaq”, “Doğma meydanlarda”, “Sülh meydanlarında” peyzajlar silsiləsi nümayiş etdirilmiş və onun şöhrətini daha da artırmışdır. Səməd Haqverdiyev 1972-ci ildə “SSRİ bizim vətənimizdir” sərgisində Azərbaycan təbiətinə həsr olunmuş yeni əsərlərlə iştirak eetmişdir. Eəssamın bir çox əsərləri Almaniya Demokratik Respublikası, Ərəbistan Ruminiya və s. ölkələrdə də nümayiş etdirilmişdir. O, öz doğma vətəni Şuşaya da bir neçə silsilə peyzaj həsr etmişdir. “Şuşada küçə”, “Üçmıx”, “Qızıl qaya”, “Daşaltı”, “Turşsu”..

* * *

Məşədi Ocaqverdinin ikinci oğlu Həsən 1817-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Həsən 1858-ci ildə vəfat edib.

Kərbəlayı Həsənin Mustafa, Muxtar, Şirin adlı oğlanları vardı.

Mustafa 1856-cı ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Həsənin ikinci oğlu Muxtar 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Həsənin üçüncü oğlu Şirin 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.





## Məşədi Murad uşağı

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Məşədi Muradlıdır. Bu soyun ulu babası Muraddır. Murad təxminən 1771-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşhədi Murad Şəkərbanu ilə ailə qurmuşdu. Paşa, Hüseynəli, Qasım, Əsəd adlı oğlanları vardı.

Paşa 1812-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. "Rastabazar"da dükan işlədirdi.

Paşa Balaxanımla ailə qurmuşdu. Rzaqulu, Məmmədbağır, Dadaş, Əbdül, Murad adlı oğlanları, Əzət adlı qızı vardı.

Rzaqulu 1834-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Ticarətlə məşğul idi.

Paşanın ikinci oğlu Məmmədbağır 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Paşanın üçüncü oğlu Dadaş 1842-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Paşanın dördüncü oğlu Əbdül 1844-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Paşanın beşinci oğlu Murad 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

***

Məşədi Muradın ikinci oğlu Hüseynəli 1817-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Hüseynəli Fatı ilə ailə qurmuşdu. Süleyman, Əbdül, Mahmud adlı oğlanları, Bəyim adlı qızı vardı.

Süleyman 1835-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu. Süleyman şair idi. "Faxir" təxəllüsü ilə qəlboynadan şeirlər yazırdı.

Tarixçi və təzkirəçi Mir Möhsün Nəvvab yazır: «Deyilənə görə, Qarabağ əhalisindəndir. Həyatı haqqında məlumat əldə edə bilmədim, Sonradan öyrəndim ki, Süleyman ibn Hüseynəli ibn Məşədi Muraddır. Ağa Əbdül Rəhzənin böyük qardaşıdır.

**Səhni-ruxunda tel-tel olub dam tellərin,**
**İstər məni qərz edə bədnam, tellərin.**
**Hurimisal nəslinə müştaqdır könül,**
**Etsə əgər bu xahişə əncam tellərin.**
**Aşüftəhal gər düşə zülfün o gərdənə,**
**Qoymaz ki, aşiqin ala bir kam tellərin.**
**Etdim üzari-müshəfə çün istixarə mən,**
**Xalü xət ilə ta nola fərcam tellərin.**
**Mişki-tatar, Maçinü hindü həbəş tamam,**
**Olmaz bərabəri o siyahfam tellərin.**
**Meyli-gül eyləməz, gözəlim, gülşən istəməz,**
**Mənzuri bülbülün ola gülfam tellərin.**
**Faxir çəkir baharü gülsitan həsrətin.**
**Soldu və saraldı gülşəni əyyam tellərin.**

Hüseynəlinin ikinci oğlu Əbdül 1844-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olurdu. Əbdül şair idi. "Rəhzən" və "Şahin" təxəllüsləri ilə qəlb ovsunlayan şeirlər yazırdı.

Tarixçi və təzkirəçi Mir Möhsün Nəvvab yazır: «Əbdül Məşədi Murad oğlu Hüseynəlinin oğlu, Şəkərbanunun nəvəsidir. Qarabağ əhlindəndir. Şuşada anadan olub, Hacı Yusifli məhəlləsindəndir. Yaşı təqribən qırx, qırx iki olar. Cüzi savadı var. Pərakəndə satiraları, cəfəng şeirləri və növhələri var. On il olar ki, Rusiya tərəfə gedib, o tərəflərdə ömür sürür. Aşağıdakı şeirlər onundur. Təxəllüsü "Rəhzən"dir. Ancaq deyirlər ki, indi dəyişib "Şahin" təxəllüsü götürüb.

**Salıb məni qəmi-eşqin bir elə hala, balam,**
**Göz ilə görməyəsən, gəlmənəm xəyala, balam.**



**Şikayəti-qəmi-hicranı birdəbir edərəm,**
**Yetişsə bir də əlim dəməni-vüsala, balam.**
**Qaşın şəbahəti tiği-Əliyyi-imrandır,**
**Yüzün Məhəmmədə bənzər, gözün hilala, balam.**
**Siyahpuş olub, gizlənibdi zülfdə dil,**
**Yəqin gəmində yatıb arizində xala, balam.**
**Tamam xəlq edər Kəbeyi-xülayə sücud,**
**Əyibdi qibləyə qaşın, məni şimala balam.**
**Yenə xummar gözün ox çəkib, kaman tutmuş,**
**Yəqin veribdir ona ləblərin piyala, balam.**
**Olur günah, edən əmr-davvərə, Rəhzən,**
**Sənə məhaldır üsyan gələ xəyalə, balam.**

Firudin bəy Köçərli Əbdül haqqında yazır: «Qarabağın xoştəb və əhli-zövq şüəralarından birisi də Əbdül ibn Hüseynəli ibn Məşhədi Muraddır. Amma mərhum Əbdül anasının adı ilə məşhur idi. Belə ki, cəmi Qarabağ əhli ona "Fatıoğlu Əbdül" deyərdi.

Təvəllüdü və həmçinin təlimü tərbiyəsi Şuşa qalasında olubdur. İyirmi il bundan əqdəm köçüb Petrovskiyə, orda alış-veriş ilə məşğul olurdu. Bir neçə sənə bundan irəli vəfat edibdir.

Əbdül artıq hazırcavab, xoşsöhbət və baməzə bir vücud idi. Ona binaən ürəfa və üdəbalar indində onun xatiri əziz və möhtərəm idi».

Əbdül Petrovskidə olarkən Qacar şahzadəsi Abbas mirzə Nəsrəddin şah oğlu ilə görüşmüşdü. O, şahzadəyə bir rübai həsr etmişdi.

Əbdül təxminən 1908-ci ildə vəfat edib.

Hüseynəlinin üçüncü oğlu Mahmud 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

***

Məşədi Muradın üçüncü oğlu Qasım 1822-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə

məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Qasım Tükəzlə ailə qurmuşdu. İsmayıl, Abdulla, Teymur adlı oğlanları vardı.

İsmayıl 1841-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı İsmayılın Dadaş adlı oğlu vardı.

Dadaş 1867-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Məşədi Qasımın ikinci oğlu Abdulla 1847-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Məşədi Qasımın üçüncü oğlu Teymur 1855-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

***

Məşədi Muradın dördüncü oğlu Əsəd 1830-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kəbəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı Əsəd II gildiya tacir idi.

Hacı Əsəd Cahanla ailə qurmuşdu. Mehdi, Zeynalabdin adlı oğlanları vardı.

Mehdi 1859-cu ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Əsədin ikinci oğlu Zeynalabdin 1871-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.



## Məşədi Rəsul uşağı

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Məşədi Rəsul uşağıdır. Bu soyun ulu babası Rəsul təxminən 1773-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Rəsulun Abbas adlı oğlu vardı.

Abbas 1796-cı Şuşa şəhərində doğulmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra mədrəsədə oxumuşdu. Məhəllələrinin dini işləri ilə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Molla Abbas Bəyimlə ailə qurmuşdu. Ağa, Zeynal, Mehdi, Əbdül, Dadaş, Nəsir adlı oğlanları vardı.

Ağa 1838-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. İbtidai təhsilini atasından almışdı. Ticarətlə məşğul idi.

Kərbəlayı Molla Abbasın ikinci oğlu Zeynal 1833-cü ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Məhəllələrinin dini işləri ilə məşğul idi.

Kərbəlayı Molla Abbasın üçüncü oğlu Mehdi 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Ticarətlə məşğul idi.

Kərbəlayı Molla Abbasın dördüncü oğlu Əbdül 1839-cu ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Ticarətlə məşğul idi.

Kərbəlayı Molla Abbasın beşinci oğlu Dadaş 1844-cü ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Kərbəlayı Molla Abbasın altıncı oğlu Nəsir 1855-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Ticarətlə məşğul idi.

## Məşədi Bədəl uşağı

Bu soyun ulu babası Məşədi Bədəldir. Bədəl Təbrizli məhəlləsində yaşamışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul olmuşdu. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Bədəlin Mehdiqulu adlı oğlu vardı.

Mehdiqulu 1809-cu ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Ticarətlə məşğul idi. Hacı Bəylər bəy Qasım bəy oğlu Sarıcalı-Cavanşir onu məhkəmə yolu ilə əlinə keçirib, təhkimli kəndliyə çevirdi. Təbrizli məhəlləsinin əhalisi azad icma idi. Onlar xan divanına, rus üsul-idarəsi dönəmində dövlətə vergi ödəyirdilər.

Mehdiqulu 1858-ci ildə vəfat etdi.

Mehdiqulu Pəri ilə ailə qurmuşdu. Allahverən, Ağa, Abbas, Şükür, Salah adlı oğlanları vardı.

Allahverən 1834-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Allahverənin İbrahim adlı oğlu vardı.

İbrahim 1872-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Mehdiqulunun ikinci oğlu Ağa 1831-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağanın Yusif, Dadaş, Yaqub adlı oğlanları vardı.

Yusif 1849-cu ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağanın ikinci oğlu Dadaş 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağanın üçüncü oğlu Yaqub 1867-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Mehdiqulunun üçüncü oğlu Abbas 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.



Mehdiqulunun dördüncü oğlu Şükür 1842-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Şükür 1856-cı ildə vəfat edib.

Mehdiqulunun beşinci oğlu Salah 1845-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Salahın Salman adlı oğlu vardı.

Salman 1870-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Məşədi Ələkbər uşağı

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Məşədi Ələkbər uşağıdır. Bu soyun ulu babası Ələkbər təxminən 1783-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Ələkbər Gülxanımla ailə qurmuşdu.Ələsgər, Məmməd, Əliqulu adlı oğlanları vardı.

Ələsgər 1842-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ələsgər 1842-ci ildə vəfat edib.

Ələsgər Hüsnü ilə ailə qurmuşdu. Mədinə, Bədircahan adlı qızları vardı.

Məşədi Ələkbərin ikinci oğlu Məmməd 1813-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məmməd Səkinə ilə ailə qurmuşdu. Ələkbər adlı oğlu vardı.

III Ələkbər 1854-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Ələkbərin üçüncü oğlu Əliqulu 1817-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əliqulunun Ələkbər, Hüseyn, Paşa, İskəndər adlı oğlanları vardı.

II Ələkbər 1844-cü ildə Şuşa şəhərində doğulmuşdu.

II Ələkbər 1853-cü ildə vəfat edib.

Əliqulunun ikinci oğlu Hüseyn 1851-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əliqulunun üçüncü oğlu Paşa 1853-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əliqulunun dördüncü oğlu İskəndər 1863-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Məşədi Məmmədcəfər uşağı

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Məşədi Məmmədcəfər uşağıdır. Bu soyun ulu babası Məmmədcəfər təxminən 1793-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Məmmədcəfərin Ağa adlı oğlu vardı.

Ağa 1828-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağanın Məmmədcəfər, Yusif, Fərəməz, Cahangir adlı oğlanları vardı.

Məmmədcəfər 1863-cü ildə dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağanın ikinci oğlu Yusif 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağanın üçüncü oğlu Fərəməz 1868-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağanın dördüncü oğlu Cahangir 1872-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.



## Məşədi Ağa uşağı

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Məşədi Ağa uşağıdır. Bu soyun ulu babası Ağa təxminən 1763-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Ağanın Abbas, Hüseynqulu adlı oğlanları vardı.

Abbas 1796-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi, torpağı tutya Kərbəlanı ziyarət etmişdi.

Kərbəlayı Abbasın Əbülhəsən adlı oğlu vardı.

Əbülhəsən 1842-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Məşədi Ağanın ikinci oğlu Hüseynqulu 1803-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Məşədi Dostuməli uşağı

Bu soyun ulu babası Məşədi Dostuməlidir. Dostuməli Təbrizli məhəlləsində yaşamışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul olmuşdu. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Dostuməlinin Fətəli, Tahir adlı oğlanları vardı.

Fətəli 1796-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kəbəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı Fətəli 1850-ci ildə vəfat edib.

Hacı Fətəli Şahımağa ilə ailə qurmuşdu. Əli, İbrahim, Əsəd, Həsən adlı oğlanları, Xanım, Mələk adlı qızları vardı.

Əli 1831-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Əlinin Aslan, Hacı adlı oğlanları vardı.

Aslan 1854-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul olmuşdu.

Məşədi Əlinin ikinci oğlu Hacı 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Fətəlinin ikinci oğlu İbrahim 1835-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Ağcabədi kəndində dükan işlədirdi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Mamayı məhəlləsindən Hacı İbrahim Səfərovun da Ağcabədi kəndində dükanları vardı. 1868-ci ildə onun dükanlarından birində oğurluq olmuşdu. Kəbirli murovuna şikayət edərkən murov onu ağaca bağlayıb döymüşdü. Həmin hadisəylə bağlı qəza rəisinə, hakimə şikayət ərizəsi yazmışdı. Hakimə yazdığı ərizəsində Kərbəlayı İbrahim Hacı Fətəli oğlunu və başqalarını şahid göstərmişdi[11].

Hacı Fətəlinin üçüncü oğlu Əsəd 1838-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əsədin Zülfüqar adlı oğlu vardı.

Zülfüqar 1873-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Fətəlinin dördüncü oğlu Həsən 1847-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

***

Məşədi Dostuməlinin ikinci oğlu Tahir 1806-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Tahir Gövhərlə ailə qurmuşdu. Varissiz vəfat etmişdi.

[11] ÜQİAAR, F.183, Op.1, D.13, L.18



## Məşədi Sadıq uşağı

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Məşədi Sadıq uşağıdır. Bu soyun ulu babası Sadıq təxminən 1762-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Sadığın Abış adlı oğlu vardı.

Abış 1786-cı ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Abış 1855-ci ildə vəfat edib.

Məşədi Abış Səkinə ilə ailə qurmuşdu. Sadıq, Mustafa, Cabbar adlı oğlanları, Şəhrəbanu, Sona, Əzət adlı qızları vardı.

Sadıq 1817-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Abışın ikinci oğlu Mustafa 1824-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Şəhərdə Ağa Mustafa kimi tanınırdı.

Ağa Mustafanın Nəsir, Səməd, Məmməd, Zülfüqar adlı oğlanları vardı.

Nəsir 1854-cü ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağa Mustafanın ikinci oğlu Səməd 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağa Mustafanın üçüncü oğlu Məmməd 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağa Mustafanın dördüncü oğlu Zülfüqar 1869-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Abışın üçüncü oğlu Cabbar 1833-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Cabbarın Əbdülhüseyn, Paşa adlı oğlanları vardı.

Əbdülhüseyn 1867-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Cabbarın ikinci oğlu Paşa 1870-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Məşədi Sadıq tayfası

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Məşədi Sadıq uşağıdır. Bu soyun ulu babası Sadıq təxminən 1777-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Sadığın Hüseyn adlı oğlu vardı.

Hüseyn 1806-cı ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Şəhərdə Ağa Hüseyn kimi tanınırdı.

Ağa Hüseynin Qasım, İsmayıl adlı oğlanları vardı.

Qasım 1826-cı ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Qasımın Əbdülhüseyn adlı oğlu vardı.

Əbdülhüseyn 1859-cu ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağa Hüseynin ikinci oğlu İsmayıl 1835-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanmda oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Məşədi Kərimli

Şuşa şəhərinin Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Məşədi Kərim uşağıdır. Bu soyun ulu babası Kərim təxminən 1801-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.



Məşədi Kərimin Baba adlı oğlu vardı.

Baba 1837-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Babanın Kərim, Fərrux, Cəmil, Əsəd adlı oğlanları vardı.

II Kərim 1859-cu ildə ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Babanın ikinci oğlu Fərrux 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Babanın üçüncü oğlu Cəmil 1869-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Babanın dördüncü oğlu Əsəd 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

***

Biz Məşədi Kərimin kiçik qardaşını da müəyyənləşdirə bilmişik. Bu, Təbrizli məhəlləsində yaşayan Kərbəlayı Cabbar idi. O, 1803-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Cabbarın Abbas, Qulu, Abutalıb, Muxtar, İmamqulu adlı oğlanları vardı.

Abbas 1838-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Cabbarın ikinci oğlu Qulu 1841-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanmda oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Cabbarın üçüncü oğlu İmamqulu 1842-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Cabbarın dördüncü oğlu Abutalıb 1845-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Cabbarın beşinci oğlu Muxtar 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Məşədi Nəcəfli

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Məşədi Nəcəf uşağıdır. Bu soyun ulu babası Nəcəf təxminən 1801-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Nəcəf Qızyetərlə ailə qurmuşdu. Hacı, Ağa, Abbas adlı oğlanları, Pərzad, Fatma adlı qızları vardı.

Hacı 1823-cü Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı 1852-ci ildə vəfat edib.

Hacının Süleyman, Salman adlı oğlanları vardı.

Süleyman 1849-cu ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacının ikinci oğlu Salman 1851-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Nəcəfin ikinci oğlu Ağa 1830-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Nəcəfin üçüncü oğlu Abbas 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Abbasın Məmməd adlı oğlu vardı.

## Məşədi Pənci uşağı

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Məşədi Pənci uşağıdır. Bu soyun ulu babası Pəncəli təxminən 1797-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi. Şəhərdə hamı onu Pənci kimi tanıyırdı.

Məşədi Pəncinin Abdulla adlı oğlu vardı.

Abdulla 1820-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Şəhərdə baqqal dükanı işlədirdi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Abdullanın Əsəd, Səməd, Əhməd, İbad, Səfi adlı oğlanları vardı.

Əsəd 1857-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Abdullanın ikinci oğlu Səməd 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Abdullanın üçüncü oğlu Əhməd 1863-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Abdullanın dördüncü oğlu İbad 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Abdullanın beşinci oğlu Səfi 1867-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Məşədi Cəfər uşağı

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Məşədi Cəfər uşağıdır. Bu soyun ulu babası Cəfər təxminən 1781-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Cəfərin Əliməmməd, Məmməd adlı oğlanları vardı.

Əlimәmmәd 1807-ci ildә Şuşa şәhәrindә doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarәtlә mәşğul idi.

Əlimәmmәd Fatma ilә ailә qurmuşdu. Övladları haqqında bilgi әldә edә bilmәmişik.

***

Mәşәdi Cәfәrin ikinci oğlu Mәmmәd 1809-cu ildә Şuşa şәhәrindә anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarәtlә mәşğul idi. Pak Xorasan torpağını, Mәşhәdi-müqәddәsi ziyarәt etmişdi.

Mәşәdi Mәmmәdin İmamqulu, Mütәllim, Hәsәnәli adlı oğlanları vardı.

İmamqulu 1843-cü ildә Şuşa şәhәrindә doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarәtlә mәşğul idi.

İmamqulunun Mәmmәdhәsәn adlı oğlu vardı.

Mәmmәdhәsәn 1871-ci ildә Şuşa şәhәrindә dünyaya gәlmişdi. Molla yanında oxumuşdu. Ticarәtlә mәşğul idi.

Mәşәdi Mәmmәdin ikinci oğlu Mütәllim 1844-cü ildә Şuşa şәhәrindә anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarәtlә mәşğul idi.

Mәşәdi Mәmmәdin üçüncü oğlu Hәsәnәli 1846-cı ildә Şuşa şәhәrindә anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarәtlә mәşğul idi.

## Ağacan uşağı (Əlәsgәrovlar, Şәmslәr)

Bu soyun ulu babası Ağacandır. Ağacan tәxminәn 1761-ci ildә Şuşa şәhәrindә anadan olmuşdu. Mәdrәsә tәhsili almışdı. Ticarәtlә mәşğul idi.

Ağacanın Əlәsgәr, Ağakişi adlı oğlanları vardı.



Əlәsgәr 1786-cı ildә Şuşa şәhәrindә doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarәtlә mәşğul idi. Pak Xorasan torpağını, Mәşhәdi-müqәddәsi ziyarәt etmişdi.

Mәşәdi Əlәsgәr şәhәrdә «Ceyran» ayaması ilә tanınırdı (Xarici görünüşünә görә).

Mәşәdi Əlәsgәrin törәmәsi Əlәsgәrov soyadını daşıyır.

Mәşәdi Əlәsgәrin Sadıq, Mustafa, Mehdiqulu, Mәmmәdqulu, Teymur, Hüseyn, Qasım adlı oğlanları vardı.

Sadıq 1828-ci ildә Şuşa şәhәrindә dünyaya gәlmişdi. Molla yanında oxumuşdu. Ticarәtlә mәşğul idi.

Mәşәdi Əlәsgәrin ikinci oğlu Mehdiqulu 1838-cı ildә Şuşa şәhәrindә anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarәtlә mәşğul idi.

Mehdiqulunun Aslan adlı oğlu vardı.

Aslan 1869-cu ildә Şuşa şәhәrindә doğulmuşdu.

Mәşәdi Əlәsgәrin üçüncü oğlu Mustafa 1840-cı ildә Şuşa şәhәrindә anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarәtlә mәşğul idi.

Mәşәdi Əlәsgәrin dördüncü oğlu Mәmmәdqulu 1841-ci ildә Şuşa şәhәrindә anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarәtlә mәşğul idi.

Mәmmәdqulunun Salman adlı oğlu vardı.

Salman 1868-ci ildә Şuşa şәhәrindә doğulmuşdu. Şәhәrdә «Ceyranoğlu Mәşәdi Salman» ayaması ilә tanınırdı. Pak Xorasan torpağını, Mәşhәdi-müqәddәsi ziyarәt etmişdi.



Salman Müsavat partiyası Şuşa şöbәsinin rәhbәri idi. Onun bu partiyadakı fәaliyyәtini tәdqiqatçı-jurnalist Vasif Quliyev incәlәyib. O yazır: “Seyid Cәfәrin Şuşa gizli Müsavat tәşkilatının rәhbәri Mәşәdi Salman Əlәsgәrovla vә onun müavini Adışirin Fәtәliyevlә salam-kәlamı vardı. Amma onların әksinqilabi fәaliyyәtlәrindәn xәbәri yox idi. Bu

adamların isə əsas işi öz təşkilatlarına mümkün qədər çox adam cəlb eləmək idi. Ona görə də onlar yaxından tanıdıqları, ünsiyyətdə olduqları adamları, ürək qızdırdıqları gəncləri təşkilata cəlb etməklə saylarını artırır, sıralarını möhkəmləndirirdilər. Hər ikisinin fikri dostları Seyid Cəfəri də Müsavata cəlb eləmək idi. Ona görə də bir gün Adışirin Məşədi Salmana dedi:

-Məşədi, biz Seyid Cəfərlə hər dəfə söhbət edərkən sən fikrini ona açıq demək istəyirsən, amma nədənsə çəkinirsən. Sən də, mən də hiss edirik ki, onun bizim işə marağı var. Biz isə çox vaxt Seyiddən bəzi şeyləri gizlədirik. Bilirsən, örtülü bazar dostluğu pozar. Biz fikrimizi açıqca deməliyik. Gəl bu dəfə görüşəndə ona bizim təşkilata daxil olmağı təklif edək.

Məşədi Salman dedi:

- Onda gəl belə bir iş görək. Sən onu elə günü bu gün axşam özünlə götür, gəl bizə. Elə bizdə də məsələni birdəfəlik həll edək, istəsə, təşkilata götürək, istəməsə də...

- Mənə elə gəlir ki, bu, elə onun ürəyincə olacaq. Yaxşı, axşam saat onda sizdəyik, - deyə Adışirin ondan ayrılıb, Seyid Cəfərin yeməkxanasına yollandı. Yeməkxana müdiri iş başında idi. Xoş-beşdən sonra Adışirin fikrini Seyid Cəfərə söylədi, ancaq əsas məsələni deməyi axşama saxladı.

Saat on radələrində Seyid Cəfər yeməkxananın qapısını bağlayıb, Adışirinlə Məşədi Salmanın evinə getdi. Ev yiyəsi çay stolu arxasında qonaqlarını gözləyirdi, guya, onların gələcəklərindən xəbəri yoxmuş kimi:

- Ay xoş gəlmisiniz, xoş gəlib, səfa gətirmisiniz! Balam, sizdən çıxmaz iş, siz hara, bura hara, deyəsən, yol azmısınlz? Gün hardan çıxdı belə? Buyurun, oturun! - deyə onlara əyləşməyi təklif elədi.

- Bəli, yol azmışıq, elə Seyidnən havamızı dəyişirdik, dedim ki, bir Məşədiyə baş çəkək, görək neyniyir, - deyə bic-bic Məşədi Salmana göz-qaş elədi.

Onlar xeyli söhbətdən sonra əsas mətləbə keçmək üçün körpü yaratmağa çalışırdılar. Məşədi Salman üzünü Seyid Cəfərə tutub:



- Seyid, heç yaşamalı dövran deyil. Hayıf deyildimi keçmiş zamanlar? Dərd yox, qəm yox, heç nəyin fikrini çəkmirdik. İndi isə həyat bizi burdan-ora, ordan-bura atır. Elə sənin özünü götürək. İnqilabdan qabaq çayçı işləyirdin, sonra təzə hökumət səni gah milis şöbəsində milis, gah qazamatda nəzarətçi vəzifəsində işlətdi. Heç nədən səni vəzifədən uzaqlaşdırdılar. Heç özün də bilmədin nəyə görə. Sonra həyat səni Laçına atdı. Orda da duruş gətirə bilmədin və yenə də qayıdıb gəldin Şuşaya. Bu isə yaşamaq deyil, sürünməkdir. Gəlin adam kimi yaşamaq üçün bir yol arayıb-axtaraq. Bu hökumətin axırına çıxmasaq, bizim kimilərinə gün-dirrik yoxdur, - sözünü təsdiqləmək üçün üzünü Adışirinə tərəf döndərdi.

Seyid Cəfər dinməzcə oturub, Məşədi Salmanı dinləyirdi, Nəhayət, o, belə bir sual verdi?

- Bu hökumətin axırına necə çıxmaq olar, Məşədi? Top-tüfəng onda, güc-qüvvə onda, ucu-bucağı da görünməyən nəhəng bir dövlətdir. Bu boyda dövlətə biz neyniyə bilərik?

- Çobanın könlü olsa, təkədən pendir tutar, Seyid, eşitməmisən bu atalar sözünü? Bizim də istəyimiz, qeyrətimiz olsa, sözü bir yerə qoysaq, dağı dağ üstə aşırarıq. Bir də ki, qaldı hökumətin axırına çıxmaq, bu, səndən, məndən, Adışirindən, minlərlə bizim kimilərindən asılıdır. Birləşib. əl-ələ verməli, hakimiyyətə qarşı üsyan qaldırmalıyıq. Səndən gizlətmirəm, Azərbaycanın hər yerində, o cümlədən, bax, bizim bu Şuşada da gizli əksinqilabi üsyançı təşkilat var? Üzvləri də hələlik kifayət qədərdir. Ancaq çalışırıq ki, sayımızı daha da artıraq, daha da güclənək. Sən də təşkilata girsən, lap yaxşı olar, nə qədər çox olsaq, qarşımıza qoyduğumuz məqsədə də tez çatarıq.

Söhbətə qarışan Adışirin də Məşədi Salmanın sözlərini təsdiqləyir, onun sözlərinə qüvvət verirdi:

- Seyid, bircə onu bilirəm ki, gec-tez, özü də lap yaxınlarda Sovet hakimiyyəti yıxılacaq, nəticədə şəxsi mülkiyyət bərpa olunacaq, ticarət azad olacaq və biz də adam kimi yaşayacağıq. Sağlıq olsun, o günlər o qədər də uzaqda deyil.

... Seyid Cəfər çoxları kimi mövcud hakimiyyətdən narazı olsa da, bunu heç kimin yanında biruzə vermirdi. Ancaq dostlarının indiki açıq-saçıq söhbətləri onu yerindən eləmişdi. Məşədi Salmanla Adışirin də artıq hiss eləmişdilər ki, Seyid Cəfərlə bu barədə o qədər də də çox danışmaq lazım deyil, çünki elə söhbətin əvvəllərindən onların fikirləri, baxışları üst-üstə düşür. Ona görə də Məşədi Salmanın "Müsavat" təşkilatının üzvü olmaq istəyirsənmi?" - sualına Seyid Cəfər "Əlbəttə, siz daş qoyan yerə mən baş qoyaram" - deyə cavab verdi və həmin gündən təşkilatın üzvü olduğunu bildirdi. Və beləliklə, 1927-ci ildən Seyid Cəfər Ağamirov Müsavatın Şuşa təşkilatına girdi.



Bir neçə gündən sonra Məşədi Salman Seyid Cəfəri dükanına dəvət elədi. Maddi kömək məqsədilə müntəzəm olaraq ona hər ay ya on, ya da iyirmi manat verəcəyini bildirib, otuz arşın bez və otuz manat da pul verdi.

Bütün göstəriş və tapşırıqları Məşədi Salman Ələsgərovdan və Adışirin Fətəliyevdən alan Seyid Cəfər Ağamirov gizli fəaliyyətə başladı. Məşədi Salman ona misdən düzəldilmiş iyirmi yeddi ədəd nişan verdi ki, onları gələcəkdə təşkilata cəlb edəcəyi üzvlərə paylasın".

Məşədi Salman Zinyətxanımla ailə qurmuşdu. Səttar, Hacı, Zahid, Ənvər adlı oğlanları, Kübra, Süreyya, Səmayə adlı qızları vardı.

Səttar - 16 yaşında rəhmətə gedib, subay olub.

Məşədi Salmanın ikinci oğlu Hacı Şuşa şəhərində anadan olmuşdu. APİ - (M.F. Axundov adına)-nın kimya-bilogiya fakültəsini bitirmişdi. Ağdamda müəllim kimi fəaliyyət göstərmişdi, müharibə iştirakçısı olmuşdu.



Məşədi Salmanın üçüncü oğlu Zahid Şuşa şəhərində anadan olmuşdur, həkimdir. Zahid ailəli idi. Yoldaşı Həlimə xanım göz həkimi idi, övladlları Namiq, Ofelya, Xuraman, Tamilla, Səmayə.

Məşədi Salmanın dördüncü oğlu Ənvər Şuşa şəhərində anadan olmuşdu. BDU-nun riyaziyyat fakültəsini bitirib, II Dünya Müharibəsinə getmişdi. Cəbhədən qayıtmayıb.



Tofiqə Hüseyn qızı Qurbanova ilə həyat qurub. İlham adlı oğlu, Çimnaz, İradə, Mətanət, Nəsibə, Gülşən, Rəsmiyə adlı qızları var.

İlham 1958-ci ildə Ağdam şəhərində doğulmuşdu. 1 №-li məktəbdə 8 il, Bakı kimya təmayüllü məktəbdə 2 il oxumuşdu. Ukraynanın Novoçerkassk şəhərində Politexnik instituta qəbul olmuşdu. 1-ci kursun sonunda istehsalat-sənaye təcrübəsi keçdiyi vaxt Don çayında boğulmuşdu. 19 yaşının içində idi.

Nəsibə (1961) ATU-ni bitirib, ailəlidir. Həyat yoldaşı Azadəliyev Pənah, oğlanları Elvin, Elnur. Hal-hazırda Almaniyada yaşayırlır. Uşaqlar orda universitetedə oxuyur.

Hacının böyük qızı Çimnaz Ağdam şəhərində dünyaya gəlib. APİ-ni bitirib. Həyat yoldaşı Mustafayev Rövşən (1949) "Azdövlətsutəzlayihə" institutunda baş mühəndis vəzifəsində çalışır. 3 övladı var: Anar, Günay və Vüsalə. Anar APU-ni, Günay isə APİ (Axundov adına) bitirib. Anarın 1, Günayın 2 oğlu var. Vüsalə subaydır, 1 №-li tibb məktəbini bitirib.

Hacının ikinci qızı İradə 12 noyabr 1956-ci ildə Ağdam şəhərində anadan olmuşdur. 1963-73-cü illərdə Ağdam 1 №-li məktəbdə təhsil almış, 1972-73-cü illərdə keçirilən Respublika riyaziyyat olimpiadasının qalibi olmuşdur. 1973-cü ildə mərhum prezidentimiz H. Əliyevin təşəbbüsü ilə SSRİ-nin şəhərlərinə göndərilən tələbələrin ilk dəstəsi ilə Ukraynanın Lvov şəhərinə -

U. Federov adına Ukrayna poliqrafiya İnstituna təhsil almağa getmiş, 1978-ci ildə təhsilini başa burub vətənə qayıtmışdır.



1978-ci ildən indiyə qədər bu sahədə (30 ildir) çalışır, "Yeni kitab" mətbəəsində sex ustası, baş mühəndis kimi çalışıb. Dövlət Nəşriyyat Komitəsində yeni texnika və texnologiya üzrə baş mühəndis, "Komnumist" (indiki Azərbaycan nəşriyyatında) "Texniki nəzarət şöbəsinin rəisi" (15 il) vəzifələrində çalışmışdır. Axırıncı 15 ildə istehsalat şöbəsinin rəisi vəzifəsini yerinə yetirir.

2005-ci ildən əsas işi ilə yanaşı BDU-nun "Kitabşünaslıq və nəşriyyat işi" kafedrasının dəvəti ilə "Poliqrafiyanın texnika və texnologiyası", "Nəşrin redaktor hazırlığı", "Redaktəetmə", "Texniki redaktə", "Kitabın bədii və texniki tərtibatı" kimi fənnləri tədris edir. Azərbaycandan başqa İran və Gürcüstan kimi dövlətlərdə də nəşr olunan 30-dan çox elmi məqalənin, "Kitabın bədii və texniki tərtibatı" fənni üzrə ali məktəb proqramının və eyni adlı dərsliyin müəllifidir. "Azərbaycan kitabının bədii və



texniki tərtibatı məsələləri" mövzusunda yazdığı dissertasiya tarixi Azərbaycan ərazisində yazı, əlifba meydana gələndən bu günə kimi Azərbaycan kitabının tərtibat problemlərini əhatə edir, hazırda dissertasiyaya yekun vurmaq ərəfəsindədir.

İradə Ələsgərova Məzahir Xəlil oğlu Əfəndiyevlə (Dövlət mühafizə xidmətində çalışır, polkovnikdir) 31 ildir ki həyat qurub. Zaur adlı oğlu, Nigar adlı qızı var.

Nigar Məzahir qızı Əfəndiyeva 1 №-li riyaziyyat litseyini, sonra Dövlət İqtisad Universitetini bitirib (2004-2008). 2008-ci ildən universitetin magistr pilləsinə qəbul olunub. Hazırda 2-ci kursdadır.

Zaur ADU-ni bitirib, hərbi borcunu yerinə yetirib, hazırda bizneslə məşğuldur.

"Nikoyl" bankda mühasib işləyir.

Hacının üçüncü qızı Mətanət 7 iyun 1960-cı ildə Ağdam şəhərində dünyaya gəlib. 1967-ci ildə Ağdam şəhər 1 №li orta məktəbinə daxil olmuş 1975-ci ilə qədər orada oxuyub. 1975-1977-ci illərdə Bakı şəhərində kimya-biologiya təmayüllü təhsilini davam etdirib. Ali məktəbə qəbul olmaq cəhdləri uğursuzluqla nəticələndikdən sonra Ağdam şəhərində xalça fabrikində toxucu işləmiş, sonra Bakı şəhərində "Azərdövlətsutəslayihə" institunda əvvəlcə "Tərtibat" şöbəsində, Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunun "hidromeliorasiya" fakültəsinə qəbul olunduqdan sonra 1979-cu ildən isə "Layihə" şöbəsində mühəndis təyin edilib və bu günə qədər də orada işləyir.

1988-ci ildə Elşən Rəhim oğlu Ruhi ilə ailə qurub. Şahlar adlı oğlu, Günel və Fidan adlı qızları var.

Günel Ruhi 1991-ci ildə anadan olub, 20 saylı orta məktəbi bitirib. Ali məktəbin qəbul imtahanlarınna hazırlaşır.

Mətanət Ruhinin ikinci qızı Fidan Ruhi 20 saylı məktəbin 1-ci sinfində oxuyur.

Məşədi Ələsgərin beşinci oğlu Teymur 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Ələsgərin altıncı oğlu Hüseyn 1860-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Ələsgərin yeddinci oğlu Qasım 1866-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

* * *

Ağacanın ikinci oğlu Ağakişi 1802-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Ağakişi 1847-ci ildə Təbrizə köçmüşdü.

Məşədi Ağakişi Nənəşlə ailə qurmuşdu. Ağacan adlı oğlu vardı.

II Ağacan Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Ağacan valideynləri ilə birlikdə Təbriz şəhərinə köçmüşdü.

Hacı Ağacanın Nəcəfqulu, Həsən adlı oğlanları vardı.

Nəcəfqulu Təbriz şəhərində dünyaya gəlmişdi. Mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə ünvanı daşıyırdı. Şair idi. Şəms Zakir təxəllüsü daşıyırdı. Təzkirəçi M. Müctəhidzadə «Riyazül-aşiqin» adlı təzkirəsində yazır: «Şəmsi-bürci-imamət və gülguni-qəbayi-ərseyi-şəhadət Həzrəti-Əli Abdulla əleyhsəllama özünü nökər hesab edən cənabın ismi-səmisi mərhum Hacı Molla Nəcəfqulu Qarabağidir ki, bədayət sinnində pədəri Kərbəlayıi-Ağakişiyi(əslində babasıdır - Ə.Ç.) -məğfurun hüzurunda vətəni-əslisindən qəti-əlaqə edib qürbət ixtiyar eylədi. Dərüssəltənəyi-Təbrizdə sakin olduqdan sonra Ətəbati-alidəracata şərəfyab olur və bədə müraciət edib həman şəhərdə rövzəxanlıq ilə məşğul olur. Bir müddətdən sonra beməzmuni:

**Hədise-qolsetan morqe-çəmənra dər fəğan avərd,**
**Qəribəm əz vətən hərfi məqundəm, məqundəm.**



Vətəni-məlufa rucu edib bir az məks etdikdən sonra Gərzənə şəhərinə azim olub bəd dübarə Təbrizə övdət buyurub həma məkanda hicrəti-nəbəviyyənin 1321 sənəsində şəmsi-əmri zəval edib məqribi-fənaya baş çəkiyor. Xülasə, sahibi-kəlamdır. Bürci-xatirindən tülu edən bu bir qəzəldir ki, izbar olundu.

**Həsrəti-ləli-ləbin könlüm edib qan**
**Qəmü ənduhla keçdi mənə dövran sənsiz.**
**Ey gözüm nuri, iraq olma gözümdən bir dəm,**
**Əşki-çeşmimlə tutar aləmi tufan sənsiz.**
**Laləzarü çəmənü bağə könül meyl etməz,**
**Dəf qılmaz qəmi-dil seyri-gülüstan sənsiz.**
**Oldu divanə könül sərv qədindən ayrı,**
**Tutmuşam Qeyssifət rahi-biyaban sənsiz.**
**Cənnətim gülşəni-ruyindi, ləbin abi-həyat,**
**Neylərəm qəsri-cinan, ey şəhi-xuban, sənsiz?**
**Könlümü etdi müsəxxər sipəhi-dərdi-fəraq,**
**Payimali-qəm olub bu dili-viran sənsiz.**
**Ruxsarına müştaqdı bu Şəmsiyi-zar,**
**Nə rəva həsrəti-ruyində verə can sənsiz?»**

Tarixçi və təzkirəçi Mir Möhsün Nəvvab şair Şəms haqqında yazır: «Cənab Axund Mirzə Nəcəfqulu Hacı Ağacanın oğlu, o da mərhum Məşədi Ağakişinin oğludur. Qarabağ vilayətinin əhalisindəndir və Şuşada anadan olub. Bir neçə il əvvəl bütün köç-külfətiylə bərabər Təbrizə köçübdür. Orda evlənib, oğul-uşaq sahibi olur. Sonradan- səkkiz il olar ki yenidən Qarabağa köçüb gəliblər. İndi Şuşadadır. Yaşı həştad (səksən), bəlkə də, bir-iki il artıq olar. Peşəsi rövzəxanlıqdır, ərəbcə, farsca savadı var. Hərdən şeir də deyir. Heyf ki, şeirləri pərakəndədir, divanı yoxdur. Aşağıdakı qeyd olunmuş şeirləri o özü gətirib (Məclisi) «Fəramuşan» da mənə təhvil verdi ki, təzkirəyə yazılsın, onlar da yazıldı. Təxəllüsü Şəms Zakirdir»1.

Mirzə Nəcəfqulu Şəmsin "Şirzad"adlı məhəbbət məzmunlu şeiri var.



İsmayıl Şəms babası haqqında yazırdı: "Ulu babam Kərbəlayı Ağakişi (Hacı Ağacan - Ə.Ç.) Qarabağın Şuşa şəhərində doğulub. Onun iki oğlu var idi. Böyüyü Mirzə Nəcəfqulu, kiçiyi Mirzə Həsən adlanırdı. Onların ikisi də ibtidai məktəbi Şuşada bitiriblər. Mirzə Nəcəfqulu dini elmləri oxumaq üçün Təbrizə getmiş, ordakı müctəhidlərin yanında təhsil alaraq, müctəhidlik məqamına yüksəlib. Təbriz ruhanilərdən olan Musəvilər ailəsindən evlənmişdir. Mirzə Həsən isə xoş xətti və inşası olduğu üçün Tehrana getmişdir. Onun bundan əlavə xoş səsi olmuş və Qarabağda çox məşhur olan xanəndə Qaryağdıya tay hesab etmişlər. Tehranda Nəsrəddin şah Qacar onun səsini və münşiliyini eşidib, öz dərbarında xidmətə götürüb. Beləliklə, Mirzə Həsən həm şahın nədimi, həm də xüsusi münşüsü kimi xidmət etməyə başlamışdır. Bir neçə müddətdən sonra şaha xəbər vermişlər ki, şahın bacısı Mirzə Həsənə ərə getmək istəyir. Şah qəzəblənmiş və ona məşhur "qəcər aşı" içirdib öldürmüşdür.

Mirzə Nəcəfqulu və onun anası bu xəbəri eşitdikdə artıq Təbrizdə qala bilməmiş və ailəsi ilə Qarabağa qayıtmışdır. Mirzə Nəcəfqulu Şuşadan Dağıstana dəvət edilmiş, Qroznıda şiələrin dini xadimi olmuşdur".

Mirzə Nəcəfqulunun törəmələri Şəms soyadını daşıyırlar.

Mirzə Nəcəfqulunun Qasım adlı oğlu vardı.

Qasım Şuşa şəhərində dünyaya gəlmişdi. İsmayıl Şəms atası haqqında yazırdı: "Mirzə Nəcəfqulunun oğlu Mirzə Qasım ibtidai müsəlman və rus məktəblərini bitirdikdən sonra Şuşada yaşayan bir diş həkimi yanında şəyird olub bu sənəti öyrənmişdir. Mirzə Nəcəfqulunun digər oğlu Mirzə Hüseyn də həmin həkimin yanında bu sənəti öyrənmişdir. İran məşrutə inqilabından əvvəl Qarabağda



vəba xəstəliyi yayıldığına görə Mirzə Nəcəfqulu təbrizli yoldaşı və iki oğlu ilə Təbrizə qayıdırlar. Mənim atam Mirzə Qasım Təbrizə gəldikdə onun 19 yaşı var imiş. Mirzə Nəcəfqulu Təbrizdə, "Xiyaban" məhəlləsində bir həyət almışdı. Atam və əmim orda diş həkimi işləməyə başlamışlar. Atamın dediyinə görə o zaman Təbrizdə diş həkimi yox imiş. Hələ məşrutə inqilabı başlamamış, Təbrizdə Məmmədəli mirzə vəliəhd idi. O, atamın və əmimin diş həkimi olduqlarını eşidib, onları dərbarda diş həkimi olmağa çağırmış, atama "Müsənnin Hüzur" və əmimə "Müsənnin Divan" ləqəblərini vermişdir. Bu zaman Təbrizdə məşrutə inqilabi başlamışdı. Atam Qafqazdan gəlmiş və rus vətəndaşı olmasına baxmayaraq, inqilabda gizlicə iştirak etməyə başlamışdır. O, inqilab rəhbərləri, o cümlədən, Siqətül-İslam, Mirzəli Davafüruş, Səttar xan, Bağır xan və sairlərlə yaxından tanış olmuş və inqilabda iştirak etmişdir. Atamın dediyinə görə, inqilab rəhbərləri bütün sənədləri bizim evdə saxlayırdılar".

Mirzə Qasımın İsmayıl adlı oğlu vardı.

İsmayıl Şəms Mirzə Qasım oğlu 1912-ci ildə Təbriz şəhərində dünyaya göz açmışdı. O, tərcümeyi-halında ulu babası Kərbəlayı Ağakişinın əslən Qarabağın Şuşa şəhərindən olduğunu və atası Mirzə Qasımın 19 yaşında olarkən babası Mirzə Nəcəfqulu ilə birlikdə Təbrizə köçdüyünü və "Xiyaban" məhəlləsində məskunlaşdığını yazır. İsmayıl Şəmsin atası peşə etibarı ilə həkim (diş həkimi) olmuş və bir müddət vəliəhd Məhəmmədəli mirzənin sarayında işləmişdi. İbtidai və orta təhsilini Təbrizdəki "Təməddün" və Firdovsi adına orta məktəbdə başa vuran İsmayıl Şəms ali təhsilini Tehran universitetində almışdı. Atası oğlunu həkim görmək arzusunda olsa da, o, hüquq ixtisasını seçmiş və universiteti bitirdikdən sonra gömrük idarəsində fəaliyyətə başlamışdı.

1941-ci ilin avqust ayında müttəfiq qoşunların İrana girməsi və Rza şah diktaturasının süquta uğraması ilə İsmayıl Şəmsin həyatında yeni dövr başlanır. Belə ki, həmin mərhələdə İranda, ilk növbədə isə Güney Azərbaycanında xalq hərəkatı geniş vüsət götürdü. İsmayıl Şəms bu zaman Tehrandan Təbrizə qayıdaraq öz

həmməsləkləri ilə birlikdə Güney Azərbaycanının Tehranın iqtisadi-siyasi və mədəni asılılığından qurtarması yönündə fəaliyyət göstərən "Azərbaycan cəmiyyəti"nin təşkilində və "Azərbaycan" adlı milli ruhlu qəzetin nəşrində fəal iştirak edir. İsmayıl Şəms sonralar bu barədə öz xatirələrində yazırdı: "Sovet qoşunları Təbrizi aldıqdan 13 gün sonra fürsətdən istifadə edərək bir neçə həmfikir yoldaşlarımla "Azərbaycan cəmiyyəti"ni təşkil edərək məşrutə zamanı atamın dostu olmuş Əliqulu Səfərin nəşr etdiyi "Azərbaycan" qəzetini həmin forma və quruluşda-atamın vəsiyyətinə əməl edərək cəmiyyətin orqanı kimi nəşr etməyə başladım".

Qeyd edək ki, "Azərbaycan cəmiyyəti" qısa müddətdə (cəmi 6 ay) fəaliyyət göstərsə də, milli oyanışda, xalqın istək və arzularına uyğun siyasi, iqtisadi, mədəni tələblər irəli sürməkdə, ən başlıcası, xalqı milli mücadiləyə səfərbər etməkdə önəmli rol oynadı. "Azərbaycan cəmiyyəti"nin fəalliyətini özü üçün ciddi təhlükə sayan Tehran hökuməti bütün təxribat vasitələrindən istifadə edib cəmiyyətin və onun orqanı olan "Azərbaycan" qəzetinin qapadılmasına nail oldu. Bundan sonra cəmiyyətin yaradıcılarının təqibi başlandı. Seyid Ziyanın başçılıq etdiyi icma tərəfindən terror olunmaq təhlükəsi qarşısında qalan İsmayıl Şəms gizli fəaliyyətə keçməyə, hətta bir müddət Təbrizi tərk etməyə məcbur olur.

O, 1940-cı illərin əvvəllərində Tehranda "Ajir" qəzetini nəşr edən böyük öndər Seyid Cəfər Pişəvəri və onunla həmfikir olan azərbaycançı insanlarla tanış olur. İstedadlı jurnalist olan İsmayıl Şəms "Ajir" qəzetinin çapında Kərim Kəşavərz, Firudin İbrahimi ilə birlikdə Pişəvərinin yaxın köməkçilərindən olur.

İsmayıl Şəmsin təşkilatçılıq bacarığı və siyasi jurnalistikadakı istedadı "21 Azər" inqilabı və Azərbaycan Milli Hökuməti dövründə özünü daha qabarıq şəkildə göstərdi. O, Azərbaycan Milli Hökumətini qorumaq üçün əldə silah fədailər sırasında olmuş və bir müddət Azərbaycan Demokratik Firqəsinin orqanı olan "Azərbaycan", sonra isə Azərbaycan Milli Məclisinin orqanı olan "Azad millət" qəzetlərinin redaktoru olmuşdur. Bununla yanaşı, İsmayıl Şəms ali təhsilli hüquqşünas kimi Azərbaycan Ali Məhkəməsinin və "Müsadirə Komissiyası"-nın üzvü kimi fəaliyyət göstərmişdir. Konstitusiya Komissiyasında o, Firudun İbrahimi ilə bərabər komissiya sədri Pişəvərinin müavinlərindən biri olmuşdur. İsmayıl Şəms Azərbaycan Milli Konqresinin və Azərbaycan Milli Məclisinin iştirakçısı olmaqdan əlavə, Azərbaycan Demokratik Firqəsi Mərkəzi Komitəsinin, Təftiş Komissiyasının üzvü kimi fəxri vəzifələrdə çalışmış, Təbriz partiya təşkilatlarından birinin sədri olmuşdur.

İsmayıl Şəms 1945-46-cı illərdə "Azərbaycan", "Azad Millət" qəzetlərində çap etdirdiyi məqalələri ilə oxucuların dərin rəğbətini qazanmışdı. Bütün bunlarla yanaşı, İsmayıl Şəms ədəbi yaradıcılıq və tərcümə ilə də məşğul olub.

Bir sözlə, İsmayıl Şəmsin 1941-1946-cı illərdə Güney Azərbaycanındakı çoxşaxəli siyasi, elmi və bədii fəaliyyəti onun həyat salnaməsinin dəyərli səhifələrini təşkil edir.

Azərbaycan Milli Hökumətinin süqutundan sonra bir müddət Təbrizdə, sonra isə Tehranda gizli yaşamağa məcbur olan İsmayıl Şəms 1948-ci ildə vətəni həmişəlik tərk edib, Sovet İttifaqına pənah gətirir və siyasi xadim kimi sovet qanunları əsasında siyasi sığınacaq istəyir. Lakin ona siyasi sığınacaq əvəzinə əvvəl Türkmənistanda, sonra isə Tacikistanda "şübhəli şəxs" kimi zindan sığınacağı verilir.

İsmayıl Şəms 85 illik yubileyi münasibəti ilə verdiyi müsahibədə bu barədə deyirdi: "Bizi sərhədçilərin post zindanına apardılar. Bir gecə qaldıqdan sonra başqa posta və daha sonra Aşqabada aparıb təhlükəsizlik idarəsinin zindanına saldılar. Müstəntiq bir nəfər türkmən idi. O mənə dedi ki, biz sənin haqqında İrandan, Moskvadan və Bakıdan arayış almışıq, tezliklə azad olacaqsan. Lakin iki aydan sonra həmin müstəntiqi Mirzoyan adlı bir erməni əvəz etdi. O, məni casusluqda suçladı... Mən ona "sən özün casussan" dedikdə o mənim üzümü, gözümü al qana qərq etdirdi və kameraya göndərdi. İki il orda saxlanıldım... O məni hər gün saat 9-da yanıma çağırır, saat 12-də kameraya göndərirdi. Axşamlar yenə də saat 12-də çağırtdırır, saat 3-dək

sorğu-suala tuturdu. Erməni müstəntiq dəfələrlə məni karserə göndərdi... Karser bir nəfərlik, yeri beton, su buraxılmış otaq idi. Oturmaq və yatmaq üçün heç bir şey yox idi. Fəqərə sümüyümdə ağrılar başlandı, "spandulos" xəstəliyinə tutuldum... Həmin müstəntiq bir gün mənə dedi: "Mən Şuşadakı erməni-müsəlman davasından qaçmış ermənilərdənəm. Sənin atan-baban Şuşadan olduğuna görə səndən intiqam alıram".

İsmayıl Şəms öz xatirələrində məşəqqətli, əzab-əziyyətli zindan günlərini təsvir etdikdən sonra yazır: "Bir gün məni düşərgənin rəisi, polkovnik yanına apartdırdı. O mənə dedi: - Moskvadan göstəriş almışıq ki, səndən üzr istəyib, Tacikistana göndərək.

Məni hamama göndərib, paltar verdilər. Sabahı gün bir zabitin müşayiəti ilə Tacikistana yola salındım... Toxuculuq fabrikinin yataqxanasında yaşayış yeri verdilər. Vətəndən uzaqda – Tacikistanda beş il yaşayıb, orda redaktor, tərcüməçi, müəllim işlədim. Yalnız beş ildən sonra-1954-cü ildə Moskvanın "mərhəməti ilə" sürgündən azad olunub, Bakıya öz məslək dostlarımın yanına gələ bildim".

O, Bakıya gəldikdən sonra, ilk növbədə, köhnə stajla doğma firqənin mühacirət dövrü həyatında fəal iştirak edir.

İsmayıl Şəms uzun müddət nəşriyyat işində çalışır, 1960-cı ildən yatağa düşənədək isə Bakı Dövlət Universitetində ərəb dilini tədris edir və ərəb dili üzrə kadr hazırlanması sahəsində yorulmadan çalışır.

İsmayıl Şəms respublikamızda ərəb və fars dilində olan bir sıra ədəbi abidələrin mahir tərcüməçisi kimi tanınır. O, Bakıda yaşadığı dövrdə elmi-pedaqoji fəaliyyətlə yanaşı, "Özbək ədəbiyyatı antologiyası"nı, macar yazıçısı Moir Yokainin "Sarı gül" romanını, M. Qorkinin əsərlərinin II cildini, Sədi Şirazinin "Gülüstan"ını, Hüseyn Cavidin əsərlərinin dördüncü cildində "Fars məktubları"nı, Məhəmmədəli Tərbiyətin "Daneşməndan-e Azərbaycan" təzkirəsini, Zərdüştün "Avesta"sının birinci cildi olan "Qatlar kitabı"nı dilimizdə çap etdirmişdir. Bundan əlavə, İsmayıl



Şəms "Ərəb dili və qrammatikası" kimi qiymətli bir dərs vəsaitinin müəllifidir.

Güneydəki milli demokratik hərakatın fəal iştirakçısı və rəhbərlərindən biri olan, elmimizə və təhsilimizə layiqli töhfələr vermiş İsmayıl Şəms 2008-ci il yanvarın 19-da Bakıda "Albalılıq" adlanan yerdə kasıb, yarıqaranlıq, rütubətli, heç bir kommunal xidməti olmayan bir komada kimsəsiz bir şəraitdə dünyasını dəyişdi.

İsmayılın Almaz adlı qızı vardı.

## Ağababa uşağı

Bu soyun ulu babası Ağababadır. Ağababa Təbrizli məhəlləsində yaşamışdı. Ticarətlə məşğul olmuşdu.

Ağababanın Bağır adlı oğlu vardı.

Bağır 1766-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Bağır Ballı ilə ailə qurmuşdu. Mirzə, Məmməd, Səfər adlı oğlanları vardı.

Mirzə 1812-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Şəhər bazarında keşikçi işləmişdi.

Mirzə 1850-ci ildə vəfat edib.

Mirzənin Abbas adlı oğlu vardı.

Abbas 1836-cı ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olmuşdu.

Bağırın ikinci oğlu Məmməd 1823-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olmuşdu.

Məmmədin Ağababa, Əsəd, Kərim, Rəhim adlı oğlanları vardı.

II Ağababa 1845-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul olmuşdu.

Məmmədin ikinci oğlu Əsəd 1847-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olmuşdu.

Məmmədin üçüncü oğlu Kərim 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olmuşdu.

Məmmədin dördüncü oğlu Rəhim 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olmuşdu.

Bağırın üçüncü oğlu Cəfər 1825-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olmuşdu.

**Ağababalı tayfası**

Bu soyun ulu babası Ağababadır. Ağababa Təbrizli məhəlləsində yaşamışdı. Ticarətlə məşğul olmuşdu.

Ağababanın Xudaverdi adlı oğlu vardı.

Xudaverdi 1786-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Xudaverdi Mürəssə ilə ailə qurmuşdu. Məmməd adlı oğlu, Minə, Balaxanım adlı qızları vardı.

Məmməd 1806-cı ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olmuşdu. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Məmməd Pəri ilə ailə qurmuşdu.Əbdürrəhim adlı oğlu vardı.

Əbdürrəhim 1837-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olmuşdu.



**Ağababalılar**

Bu soyun ulu babası Ağababadır. Ağababa Təbrizli məhəlləsində yaşamışdı. Ticarətlə məşğul olmuşdu.

Ağababanın İsmayıl adlı oğlu vardı.

İsmayıl 1786-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı İsmayılın Məmməd, Əbdürrəhim, Əhməd, Mahmud adlı oğlanları vardı.

Məmməd 1826-cı ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olmuşdu.

Məmmədin İbrahim, Ağa adlı oğlanları vardı.

İbrahim 1854-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olmuşdu.

Məmmədin ikinci oğlu Ağa 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı İsmayılın ikinci oğlu Əbdürrəhim 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı İsmayılın üçüncü oğlu Əhməd 1840-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı İsmayılın dördüncü oğlu Mahmud 1844-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

**Abdulla uşağı**

Bu soyun ulu babası Abdulladır. Abdulla Təbrizli məhəlləsində yaşamışdı. Ticarətlə məşğul olmuşdu.

Abdullanın Ələsgər adlı oğlu vardı.

Ələsgər 1755-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olmuşdu. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Ələsgər 1852-ci ildə vəfat edib.

Məşədi Ələsgərin Hüseyn, Həsən, Sadıq adlı oğlanları vardı.

Hüseyn 1807-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Hüseyn 1854-cü ildə vəfat edib.

Kərbəlayı Hüseynin Qulu adlı oğlu vardı.

Qulu 1844-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Ələsgərin ikinci oğlu Həsən 1808-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Sərrac dükanı açmış, yəhər düzəltməklə məşğul olmuşdu.

Həsənin İsmayıl, Məhərrəm, Ələkbər adlı oğlanları vardı.

İsmayıl 1845-ci ildə Şuşa şəhərində doğulmuşdu. Kiçik ticarətlə məşğul idi.

Həsənin ikinci oğlu Məhərrəm 1852-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Kiçik ticarətlə məşğul idi.

Məhərrəmin Müseyib adlı oğlu vardı.

Müseyib 1872-ci ildə Şuşa şəhərində doğulmuşdu. Kiçik ticarətlə məşğul idi.

Həsənin üçüncü oğlu Ələkbər 1854-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Kiçik ticarətlə məşğul idi.

Məşədi Ələsgərin üçüncü oğlu Sadıq 1826-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Kiçik ticarətlə məşğul idi.

Allahverdilər (Hacıyevlər)

Bu soyun ulu babası Allahverdidir. Allahverdi Təbrizli məhəlləsində yaşamışdı. Ticarətlə məşğul olmuşdu.

Allahverdinin İbrahim adlı oğlu vardı.

İbrahim 1780-ci ildə Təbrizli məhəlləsində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul olmuşdu. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı İbrahimin törəməsi Hacıyev soyadını daşıyırdı.



Hacı İbrahimin Allahverdi, Məmiş, Əhməd, Məmmədəli adlı oğlanları, Səkinə, Gövhər adlı qızları vardı.

Allahverdi 1815-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi.

Allahverdi 1858-ci ildə vəfat edib.

Allahverdi Xeyrənsə ilə ailə qurmuşdu. Əbdüləli, Məmmədbağır, Əbdülhəmid adlı oğlanları vardı.

Əbdüləli 1853-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi.

Allahverdinin ikinci oğlu Məmmədbağır 1855-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məmmədbağır Sitarə xanım Mirzə Ələkbər qızı ilə yaşam qurmuşdu. Rəsul adlı oğlu vardı.

Rəsul 1898-ci ilin yanvar ayının 29-da Mamayı məhəlləsində doğulmuşdu. 1910-cu ildən 1913-cü ilədək Şuşa şəhər məktəbində oxumuşdu. Elə həmin ildə Yelizavetpol (Gəncə) şəhər məktəbinin nəzdində pedaqoji kurs keçmişdi. Quberniya məktəb idarəsinin əmri ilə Ağcabədi ikisinifli məktəbinə müəllim təyin olunmuşdu. 1914-cü ilin iyulun birinədək bu məktəbdə dərs demişdi. 1914-cü ilin sentyabrın 1-dən ikisinifli Zəngilan məktəbinə dəyişilmişdi. 1916-cı il iyulun 15-də baş idarəyə ərizə ilə müraciət etmişdi ki, Şuşa şəhərinə yaxın bir yerə dəyişilmək istəyir. Ərizəsinə müsbət cavab almışdı.

Allahverdinin üçüncü oğlu Əbdülhəmid 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu.

* * *

Hacı İbrahimin ikinci oğlu Məmiş 1817-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məmişin Nəcəfqulu, Mövsüm adlı oğlanları vardı.

Nəcəfqulu 1857-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məmişin ikinci oğlu Mövsüm 1865-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi.

* * *

Hacı İbrahimin üçüncü oğlu Əhməd 1823-cü ildə Şuşa şəhərində dünyaya boy göstərmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əhməd itkin düşmüşdü.

* * *

Hacı İbrahimin dördüncü oğlu Məmmədəli 1833-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

## Allahverdi uşağı

Bu soyun ulu babası Allahverdidir. Allahverdi Təbrizli məhəllləsində yaşamışdı. Ticarətlə məşğul idi.

Allahverdinin Məmmədəli adlı oğlu vardı.

Məmmədəli 1803-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Məmmədəli Pəri ilə ailə qurmuşdu. Həsənəli, Kəlbəli, Cabbar adlı oğlanları, Xeyrənsə, Bəyim, Qızyetər adlı qızları varı.

Həsənəli 1827-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Həsənəlinin Məmmədəli, Həbib, Abbasqulu adlı oğlanları vardı.

II Məmmədəli 1866-cı Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.



Həsənəlinin ikinci oğlu Həbib 1869-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Həsənəlinin üçüncü oğlu Abbasqulu 1872-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Məmmədəlinin ikinci oğlu Kəlbəli 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kəlbəlinin Mahmud, Teymur, Əmir, Cavad adlı oğlanları vardı.

Mahmud 1863-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kəlbəlinin ikinci oğlu Teymur 1866-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kəlbəlinin üçüncü oğlu Əmir 1868-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kəlbəlinin dördüncü oğlu Cavad 1870-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Məmmədəlinin üçüncü oğlu Cabbar 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Ağahüseyn uşağı (Hüseynovlar)

Şuşa şəhərinin Təbrizli məhəlləsinin ünlü sakinlərindən biri də Ağahüseyn idi. Ağahüseyn Təbriz şəhərində anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili görmüşdü. Şair idi. "Arif" təxəllüsü ilə incə təbli şeirlər yazırdı. İbrahimxəlil xan Sarıcalı-Cavanşirin Təbrizə yürüşünü şeirlərində pisləmişdi. Ağahüseyn Arif bu yürüşlə bağlı yazırdı:

**Vurhavur, zülmi-Cavanşirə dəxi qalmadı tab,**
**Dağılıb hər biri bir guşədə pünhan oldu...**

Ağahüseyn sonra İbrahimxəlil xan Cavanşirə pənahlandı. Köçüb Şuşa şəhərində məskunlaşdı.

Ağahüseyn Arif Şuşada yaradıcılığını davam etdirdi. Divan bağladı. Şairin şeirlərindən bir güldəstə.

**Səba, qəmxarım ol, qəmxarıma dərdi-dil izhar et,**
**Xəbərdar olmayan qəmxarımı qəmdən xəbərdar et.**
**Yetişcək sayəvəş torpağa düş, qəmxarıma söylə,**
**Qəmi-hicrində hali-zarimi izhari-qəmxar et.**
**Ki, ey peymanşikən, mehri-vəfası olmayan dilbər,**
**Təqafül eyləmə bir ləhzə, əxmi-kuyi-dildar et.**
**Əlindən öp, ona şərh eylə əhvali-pərişanı,**
**Ayağına düşüb öz başın üçün yarə izhar et.**
**Ki, gəlmiş aşiqi-biçarə yanından səba söylər,**
**Ki, ey qəmxar, xəbi nazdan cananı bidar et.**
**Əcəl verməz aman, can nəqdini almaq dilər səndən,**
**Bu fərdi naleyi-fəryad ilə hər ləhzə təkrar et.**
**Ki, həsrət getdi Arif, görmədi yarın bu dünyada,**
**Rəqibi, barmi-ilahi, mən kimi məhrumi-didar et.**
**Ağahüseyn Arif 1813-cü ildə vəfat edib.**

Ağahüseyn Bədirlə ailə qurmuşdu. Əbdürrəzzaq, Baba, Əzim, Həzrətqulu adlı oğlanları, Səkinə adlı qızı vardı.

Əbdürrəzzaq 1788-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsə təhsili almışdı. Şərbafçılıqla məşğul idi.

Əbdürrəzağın Əli, Əbdürrəhim, Süleyman adlı oğlanları vardı.

Əli 1828-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Ticarətlə məşğul idi.II gildiya tacir ünvanı almışdı. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Əli Balaxanımla ailə qurmuşdu. Nəcəfqulu, Məmmədəli, Rəhim, Firudin, İsmayıl adlı oğlanları vardı.

Nəcəfqulu 1846-cı ildə Şuşa şəhərində dünyaya göz açmışdı.

Nəcəfqulu 1853-cü ildə vəfat edib.

Kərbəlayı Əlinin ikinci oğlu Məmmədəli 1849-cu ildə Şuşa şəhərində dünyaya pənah gətirmişdi. Ticarətlə məşğul idi.

Kərbəlayı Əlinin üçüncü oğlu Rəhim 1850-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.



Kərbəlayı Əlinin dördüncü oğlu Firudin 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Kərbəlayı Əlinin beşinci oğlu İsmayıl 1860-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Əbdürrəzzağın ikinci oğlu Əbdürrəhim 1847-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Əbdürrəhimin Cəlal, Əyyub adlı oğlanları vardı.

Hüseynov Cəlal Əbdürrəhim oğlu (1894, Şuşa - 1922, Bakı) - inqilabçı. Şuşa Real Məktəbini bitirmiş (1913), ərəb, fars və rus dillərini mükəmməl öyrənmişdir. Savadlı olduğuna görə gəncliyində "Mirzə" ünvanı qazanmış bir müddət dövlət idarələrində qulluq etmişdir. 1916-cı ildən gizli inqilabi fəaliyyətə başlamış, xalq arasında güclü təbliğat işləri aparmışdır. O, kütlələr içərisində gizlu ədəbiyyat və intibahnamlər yayır, əhali qarşısında çıxış edir, camaatı çar hökümətinə qarşı mübarizəyə səsləyirdi. Mirzə Cəlal Hüseynov 1917-ci ildə Şuşada əsgər deputatları Sovet və əsgər komitəsi yaradılarkən realnı məktəbin yuxarı sinif şagirdlərindən ən ləyaqətlilərini komitəyə cəlb etməkdə fəal iştirak edirdi.

Bir neçə aydan sonra Bakıya gizli surətdə göndərilən gənc inqilabçı "Hümmət" partiyasının tapşırığı ilə Abşeron kəndlərində təbliğat-təşviqat işləri aparır, fəhlə və kəndliləri çar-üsul-idarələsinə qarşı qaldırırdı. Daha sonra isə o, geniş kütləvi siyasi iş aparmaq üçün bir neçə bolşeviklə birlikdə Şuşaya göndərildi. O, Qarabağda və Müsavat hökümətinin əsas bazalarından olan Xan kəndindəki hərbi hissələr içərisində təbliğat aparır kəndləri gəzib-dolaşaraq əhalini erməni daşnaqlarına qarşı mübarizəyə səsləyirdi.

1918-ci ildə Xankəndindəki müsavat polkunda silahlı üsyan hazırlanması üçün bir qrup gənclə birlikdə Mirzə Cəlal Hüseynova tapşırıldı. Gizli şəraitdə iş aparmaq üçün molla qiyafəsində polka gələn gənc inqilabçı "Qırmızı molla" ləqəbi ilə tanındı. 1920-ci ildə Qarabağ daşnak tör-töküntülərindən təmizlənəndən sonra

müxtəlif kəndlərdə inqilab komitələri təşkil etmək işini ona tapşırdılar. Lakin iyun ayının 8-də bir qrup inqilabçı ilə həbs edilən. Mirzə Cəlal Hüseynov Şuşa qazamatına salındı və ölüm cəzasına məhkum edildi. Hökm yerinə yetirilməmişdən bir neçə gün əvvəl məşhir inqilabçı Məşədi Abbas Rzayev öz dəstəsi ilə həbsxanaya hücum edərək məhbusları azad etdi.

Mirzə Cəlal Hüseynov həbsdən qurtulandan sonra Qarabağın kənd və nahiyələrində qayda-qanun yaradır, yeni qəbul edilmiş Sovet qanunlarını həyata keçirir, inqilabi komitələr və partiya özəklərinin təşkilində fəal iştirak edirdi. Çox çəkmədən o, Ağdam nahiyyə inqilab komitəsinin üzvü seçildi və az sonra bu komitəyə özü rəhbərlik etməyə başladı.

1920-ci ilin payızında Mirzə Cəlal Hüseynov Qarabağda yenicə yaradılmış Azərbaycan diviziyasının üçüncü atıcı polkunda əvvəlcə komissar müavini, sonra komissar vəzifəsinə təyin olundu. Bir müddətdən sonra onun daxil olduğu atıcı polku İranda kök salmış ingilis müdaxiləçilərinə qarşı mübarizəyə göndərildi və ingilis donanmasının darmadağın edilməsində xüsusilə fərqləndi. Mirzə Cəlal İranda olarkən şiddətli xəstəliyə tutuldu və təcili olaraq Bakıya gətirildi, lakin həyatı xilas oluna bilmədi.



Əbdürrəhimin ikinci oğlu Əyyub Şuşa şəhərində anadan olmuşdu.

Əyyubun Rəhim adlı oğlu var.

Hüseynov Rəhim Əyyub oğlu (09.IX.1924, Şuşa) - Astrofizika üzrə Azərbaycanda ilk fizika-riyaziyyat elmləri doktoru (1971), professor (1976), Beynəlxalq Astranomiya İttifaqının üzvü (1964), Azərbaycan milli Elmlər Akademiyasının müxbir üzvü (2001). 1940-cı ildə riyaziyyat fakültəsinə daxil olmuş, lakin Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq təhsilini yarımçıq qoyub, bir müddət Ağdam rayonunun Ağdamkənd natamam orta



məktəbində müəllim işləmişdir. Lakin sonralar təhsilini davam etdirmiş, əvvəlcə oxuduğu universitetin fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmiş (1946), universitetin aspiranturasına daxil olmuşdur (1953). O, Azərbaycan SSR Elmlər Akademiyasının və S. M. Kirov adına Azərbaycan Dövlət Universiteti ilə birgə elmi ekspedisiyasının iştirakçısı olmuş, Günəş atmosferinin bəzi radioptik xüsusiyyətləri" adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. Gənc alimin elmi fəaliyyəti, əsasən günəş fiizikası və planetar dumanlığında, günəş atmosferinin radiooptik xüsusiyyətləri ilə bağlı idi.

**Təhsili, elmi dərəcə və elmi adlari**

1941 - 1946 Azərbaycan Dövlət Universiteti, Fizika-riyaziyyat fakültəsinin tələbəsi, Bakı, Azərbaycan

1946 - 1949 Azərbaycan Dövlət Universiteti, Astrofizika ixtisası üzrə aspirant, Bakı, Azərbaycan

1946 - Ali təhsil, fizika, fizika müəllimi, Azərbaycan Dövlət Universiteti, Bakı, Azərbaycan

1953 - Astrofizika ixtisası üzrə fizika-riyaziyyat elmləri namizədi, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan

1954 -Astrofizika ixtisası üzrə dosent, molekulyar fizika və optika kafedras, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan

1971 -Astrofizika ixtisası üzrə fizika-riyaziyyat elmləri doktoru, Şamaxi Astrofizika Rəsədxanası

1976 - Astrofizika ixtisası üzrə professor, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan

**Əmək fəaliyyəti**

1941-1946 Tələbə, Azərbaycan Dövlət Universiteti, Bakı, Azərbaycan

1946-1949 Aspirant, Azərbaycan Dövlət Universiteti,

1949-1951 Baş laborant (Astronomiya laboratoriyası), Azərbaycan Dövlət Universiteti, Bakı, Azərbaycan

1951-1953 Astronomiya üzrə müəllim, Molekulyar fizika və optika kafedrası, Azərbaycan Dövlət Universiteti, Bakı, Azərbaycan

1953-1954 Astrofizika ixtisası üzrə baş müəllim, Azərbaycan Dövlət Universiteti, Bakı, Azərbaycan

1954-1961 Astrofizika ixtisası üzrə dosent, Molekulyar fizika və optika kafedrası, Azərbaycan Dövlət Universiteti, Bakı, Azərbaycan

1961-1975 Azərbaycan Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanası, Elmi İşlər üzrə direktor müavini və Günəş fizikası şöbəsinin müdiri, Şamaxı, Azərbaycan

1975-1992 Azərbaycan Dövlət Universiteti, Astrofizika kafedrasının müdiri, Bakı, Azərbaycan

1992-ci ildən indiyə qədər Bakı Dövlət Universiteti, Astrofizika kafedrasının professoru, Bakı, Azərbaycan

**Kadr hazirliği**

| | |
|---|---|
| Elmlər doktoru | 1 |
| Elmlər namizədi | 5 |

**Elmi istiqamət**

Astrofizika və radioastronomiya. Günəşin radiooptik şüalanma xüsusiyyətləri və relyativist elektronların Günəşin məhəlli maqnit sahələrində şüalanması. Günəşin alışmalarının ilk mərhələsinə güclü nöqtəvi partlayış nəzəriyyəsinin tətbiqi. Planetar dumanlıqların əsas parametrlərinin təyini üsulları.

**Beynalxalq seminar, məktəb və konfranslar**

1. 1957-1975 illərində SSRİ EA Rəyasət Heyyətinin Astronomiya Şurasının Moskva, Bakı, Şamaxı Astrofizika Rəsədxanası, Kiyevdə keçirdiyi Elmi Konfranslar

2. Yerin süni peyklərinin buraxılması ərəfəsində 1957-ci ilin may-iyun aylarında Aşqabadda Astronomiya Şurasının təşkil etdiyi məktəb.

3. Yerin süni peyklərinin 1957-1960-cı illördəki müşahidələrin nəticələrinə həsr olunmuş xüsüsi konfrans-seminar(Moskva)

4. Yerin süni peykləri və Beynalxalq Geofizika ilinə həsr olunmuş konfrans, Moskva 1959

5. International Regional Conference on Astronomy and Astrophysics 2001, Baku



6. International Conference "N.Tusi and Modern Astronomy" , Pirguli

7. Mejqosudarstvennaə Konferenüiə "İssledovaniə Solneçnoy Sistemı ", Baku

8. Beynalxalq Astronomoya İttifaqının ABŞ-da (1961) və İngiltərədə XI (1961), XIV (1970) keçirilən qurultayları

Seçilmiş elmi əsərləri

1. Nekotorıe nablödaemıe svedeniə v radioizluçenii Solnüa i ix interpretaüii. Teoretiçeskaə zavisimostğ mejdu vısotoy nad fotosferoy i otnositelğnoy intensivnostğö radiovspleskov. Trudı sektora astrofiziki AN Azerbaydjana, t.I, 1959

2. O vozmojnosti primeneniə zadaçi o silğnom toçeçnom vzrıve k solneçnım vspışkam. Astronomiçeskiy jurnal AN SSSR, t.38, vıp.5, 1961

3. O vozmojnosti primeneniə teorii «svetəheqosə» glektrona k mexanizmu qeneraüii qamma- izluçeniə xromosfernıx vspışek. Astronomiçeskiy jurnal AN SSSR, t.40, vıp.3, 1963

4. On the Allers admixture radiation effect during the compression process in the Solar Corona and generation of Coronal formations. Solar Phicics, D.Reidal Publishing Company-Dordrecht-Holland/Boston U.S.A, V.28, N2, 1973.

5. On same results of Calcutions of the Chromosphere initial phase model according to the strong gasodynamik explosion theory. Solar physics, V.31,N2, 1973

**Dərslik və monoqrafiyalar**

1. Dinamiçeskie proüessı v solneçnıx vspışkax. Monoqrafiə. İzdanie ANA, 1975 2. Rusca-azərbaycanca-ingiliscə Astronomiya Terminlər Lüğəti

Həmmüəlliflər: Baba Babayev, Qabil Əhmədov, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı -1989

3. Astronomiya. Ali məktəblər üçün dərslik, Azərbaycan Təhsil Nazirliyi tərəfindən tövsiyyə edilmişdir, "Maarif" nəşriyyatı, Bakı-1997

4. Astronomiya. 11-ci siniflər üçün dərslik, "Maarif Nəşriyyatı", Bakı, 2004

Rəhim Hüseynovun Fərhəng adlı oglu vardı.

Fərhəng Hüseynov (15 VII. 1949-2010)-skripkaçı, bəstəkar, professor, Azərbaycan respublikasının əməkdar artisti.

Fərhəng Rəhim oglu Bülbül adına orta ixtisas musiqi məktəbini bitirmişdi. Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdu. Fərəc Qarayevin sinifini oxumuşdu. Qara Qarayevin məsləhəti ilə III kursdan Moskva Konservatoriyasına dəyişilmiş 1975-ci ildə bu təhsil ocağını tamamlamışdı. O, skripka ifaçılığı ilə yanaşı Moskvada bəstəkarlıq sinfində oxumuşdu. Bakıya qayıtdıqdan sonra Qara Qarayevin sinfində bir daha bəstəkarlıq kursunu daha yüksək səviyyədə keçdi. Əsərləri konsertlərə ayaq açdı, bəstəkarlar ittifaqına üzv oldu.

1991-ci ildə UNESKO və Yaponiyada «Asaxi» televiziyasının keçirdiyi müsabiqəyə əsər təqdim etmişdi. «Zamana səyahət» adlanan 5 bölümlü simfonik orkestr üçün konsert kimi də yozula bilər. Lap öncədən təqdim olunmuş 278 əsərdən 10-u seçilmişdi ki, onlar arasında F. Hüseynovun əsərinin də adı var idi. O, Yaponiyadan məktub almışdı. Məktubda deyilirdi ki, əgər əsəri II turda nəzərdə tutulan «beşliyə» düşsə, o, mükafatlanacaq və ölkənin qonağı sayılacaq. Fərhəng Hüseynov Yaponiyaya yollandı. II turdan sonra qaliblər sırasına düşdü. Daha doğrusu, II yerə çıxdı, I yeri isə 2 yapon bəstəkarı bölüşdürmüşdü. Müsabiqənin mövzü başlığı «Böyük ipək yolu» və onun tarixi ilə bağlı idi. «Böyük ipək yolu» Adriatika sahillərindən Yaponiyanın Naqasaki limanınadək uzanırdı. Əsərimin hər bölümünün başlığı varıydı: «Dəşti-Qıpçaq», «Savaş», «Böyük səfirlik» (Rum qeysərinin Türk xaqanlığına göndərdiyi səfirlik nəzərdə tutulurdu) və i.a.

Daha sonralar yaponlar F. Hüseynova opera yazmağı təklif etdilər. Tanınmış yapon yazıçısı Xatsuraqava Xosyunun romanı əsasında hazır libretto aldı və işə başladı. Burada bir yapon gəmi kapitanının başına gələn gerçək əhvalatdan söhbət gedirdi. Kapitanın gəmisi Aleut adaları yaxınlığında fırtınaya düşür və batır. Onun özünü rus dənizçiləri xilas edirlər, Oxotska gətirirlər. Sonra kapitan Irkutska, oradan isə Peterburqa gəlir, II Yekaterina ilə görüşür və vətəninə qayıtmağa icazə alır. O dövrdə isə Yaponiya bağlı ölkə idi. Kapitanı ömürlük həbsə salırlar və o, intihar edir.

Musiqi materialına gəldikdə, ona çoxlu videokassetlər və audiokassetlər verilmişdi ki, yapon incəsənətinin bütün kəsimləri, - «qaqaku», No teatrı, milli musiqi alətləri ifaçılığı və i.a. burada təmsil olunmuşdular. Rus musiqisindən, rusların dəsti-xəttindən də faydalanmışam.Nəhayət, Azərbaycan musiqisinin əks-sədaları da eşidilir. Məsələn, II Yekaterinanın ariyası rus, italyan və Azərbaycan musiqi materialından quraşdırılıb. Və hamı hamımıqla, onu tanımadan belə, dinlədikdə, əsərin Azərbaycanlı bəstəkar tərəfində yazıldığını önə çəkirlər.

Bundan başqa, bir əsərim solistlər, xor və orkestr üçün oratoriyadır. Başlığı da belədir: «Qoy dünyada sülh olsun» («Mem pis»). Bu əsərdə ingilis şairlərinin şerləri ilə yanaşı, ayrı-ayrı dillərdə sülh duası oxunur. Həmin əsərə görə F. Hüseynov BMT-nin xüsusi mükafatını almışam. Lakin yalnız partiturasına görə, çünki əsərin ifası çox böyük pul məbləği tələb edir, orkestr, xor və solistlər heyəti çox genişdir, hətta elektronika da var ...

Adanada, universitetdə simli alətlər kafedrasının müdiri olmuşdu. Bəstəkar və skripkaçı kimi Fərhəng Hüseynov dünyanın bir çox ölkələrində tanınıb. Qəribədi, burda əsər yazmaş asandı, ifa etdirmək çətin. Qürbətdə isə əksinə. Əlbəttə, axı o, buranın yox, Türkiyənin musiqi təhsilində ciddi reforma edib və arasıkəsilməz musiqi təhsili sistemini yaradıb, lap bizdəki kimi. İstedadlı tələbələri də var, onların bioqrafiyasında ilk müəllimlərinin azərbaycanlı olduğu həmişəlik qeyd olunub.

**Əsərləri**

Simfonik orkestr üçün "Zaman üzrə səyahət" (1990); "Kiçik şahzadə" Operası /A.Sent-Ekzüperinin əsəri əsasında/ (1990); Orqan üçün "Mərasimlər" (1991); "Kodayu" Operası /libretto - Eyko Aoki/ (1993); Solistlər, xor və simfonik orkestr üçün "Qoy dünyada sülh olsun!" (1995); "Kiçik kantata" (1996); 4 Romans (1997); Skripka və piano üçün Sonata (1997); Soprano və simli kvartet üçün "Stabat Mater" /"Ümumdünya insan hüquqları

Deklarasiyası"nın 50 illiyinə həsr olunmuş Respublika müsabiqəsinin mükafatına layiq görülüb/ (1998); Simfonik orkestr üçün "Quarani kapriççiosu" (2000); 2 saylı Simli kvartet (2000). "Böyük İpək Yolu" Beynəlxalq müsabiqənin laureatı (Yaponiya,1991) "Sülh naminə" Beynəlxalq müsabiqənin laureatı (ABŞ, 1995) "Xose Asunsyon Flores" ad. I Beynəlxalq müsabiqənin laureatı (Argentina, 2000)

Filmoqrafiya

Mənim Arzularım Haradadır (1983)

Polad Adalar (1985)

Abseron Qalaları (1989)

Əbdürrəzzağın üçüncü oğlu Süleyman 1843-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Əbdürrəzzağın üçüncü oğlu Süleyman 1843-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

* * *

Ağahüseynin ikinci oğlu Baba 1790-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Babanın Nəcəfqulu adlı oğlu vardı.

Nəcəfqulu 1838-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Nəcəfqulunun Teymur adlı oğlu vardı.

Teymur 1861-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi.

* * *

Ağahüseynin üçüncü oğlu Əzim 1797-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Əzim Bəyimlə yaşam qurmuşdu.



* * *

Ağahüseynin dördüncü oğlu Həzrətqulu 1805-ci ildə Şuşa şəhərində doğulmuşdu.

## Ağaməmməd uşağı

Bu soyun ulu babası Ağaməmməddir. Ağaməmməd Təbrizli məhəlləsində yaşamışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul olmuşdu.

Ağaməmmədin Ələsgər, Baba, Məmmədbağır adlı oğlanları vardı.

Ələsgər 1772-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul olmuşdu. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Ələsgər 1850-ci ildə vəfat etmişdi.

Məşədi Ələsgər Pərixanla ailə qurmuşdu. Ağaməmməd adlı oğlu vardı.

II Ağaməmməd 1816-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

II Ağaməmməd Mələklə ailə qurmuşdu.Sadıq, Həkim, Zeynal, Fərrux adlı oğlanları vardı.

Sadıq 1836-cı ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağaməmmədin ikinci oğlu Həkim 1837-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Həkimin Süleyman, Dadaş, Məmməd, Salman adlı oğlanları vardı.

Süleyman 1863-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Həkimin ikinci oğlu Dadaş 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Həkimin üçüncü oğlu Məmməd 1867-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Həkimin dördüncü oğlu Salman 1872-ci ildə Şuşa şəhərində anadan olmuşdu.

Salman körpə yaşında dünyasını dəyişmişdi.

Ağaməmmədin üçüncü oğlu Zeynal 1855-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağaməmmədin dördüncü oğlu Fərrux 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

* * *

Məşədi Ələsgərin ikinci oğlu Baba 1774-cü ildə ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Baba 1850-ci ildə vəfat edib.

Hacı Baba Minə ilə ailə qurmuşdu.Mehdiqulu, Qulu, Nəsir, Əsgər, Hüseynəli, Abdulla, Aslan adlı oğlanları vardı.

Mehdiqulu 1840-cı ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Hacı Babanın ikinci oğlu Qulu 1842-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını və Məkkəyi-müəzzəzi ziyarət etmişdi.

Hacı Babanın üçüncü oğlu Nəsir 1850-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Babanın dördüncü oğlu Əsgər 1854-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Babanın beşinci oğlu Hüseynəli 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.



Hacı Babanın altıncı oğlu Abdulla 1857-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı Babanın yeddinci oğlu Aslan 1863-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

* * *

Məşədi Ələsgərin üçüncü oğlu Məmmədbağır 1827-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi.

Məşədi Məmmədbağırın Şükür, Məmmədqulu adlı oğlanları vardı.

Şükür 1854-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Məmmədbağırın ikinci oğlu Məmmədqulu 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Ağaməmmədli tayfası

Bu soyun ulu babası Ağaməmməddir. Ağaməmməd Təbrizli məhəlləsində yaşamışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul olmuşdu.

Ağaməmmədin Ağababa adlı oğlu vardı.

Ağababa 1758-ci Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Ağababa 1850-ci ildə vəfat edib.

Kərbəlayı Ağababa Cəvahirlə ailə qurmuşdu. Rəhim, Əbdül, Əsəd adlı oğlanları, Xanım, Gövhər adlı qızları vardı.

Rəhim 1808-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Rəhim Nənəxanımla ailə qurmuşdu. Kərim adlı oğlu vardı.

Kərim 1840-cı ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərimin Müseyib adlı oğlu vardı.

Müseyib 1871-ci ildə dünyaya göz açmışdı.

Kərbəlayı Ağababanın ikinci oğlu Əbdül 1829-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Kərbəlayı Ağababanın üçüncü oğlu Əsəd 1833-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Əliməhəmməd uşağı

Təbrizli məhəlləsinin tanınmış soylarından biri də Əliməhəmməd uşağıdır.

Bu soyun ulu babası Əliməhəmməddir. Əliməhəmməd Təbriz şəhərində anadan olmuşdu. Şuşa şəhərinə köçürülmüşdü.

Əliməhəmmədin Həzrətqulu adlı oğlu vardı.

Həzrətqulu 1782-ci ildə Şuşa şəhərində doğulmuşdu. Mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kəbəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı Həzrətqulu 1847-ci ildə vəfat edib.

Hacı Həzrətqulunun Əli, Məmməd, İbrahim adlı oğlanları vardı.

Əli 1804-cü ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Mədrəsədə oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kəbəyi-müşərrəfi ziyarət etmişdi.

Hacı Əli Əzizlə həyat qurmuşdu. Abdulla, Şükür, Əsəd adlı oğlanları, Bacıxanım adlı qızı vardı.

Abdulla 1835-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.



Abdullanın Fərəc adlı oğlu vardı.

Fərəc 1854-cü ildə Şuşa şəhərində doğulmuşdu. Ticarətlə məşğul idi.

Hacı Əlinin ikinci oğlu Şükür 1837-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdı. Ticarətlə məşğul idi.

Hacı Əlinin üçüncü oğlu Əsəd 1850-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

* * *

Hacı Həzrətqulunun ikinci oğlu Məmməd 1811-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi.

Məmməd 1850-ci ildə vəfat edib.

Məmməd Gövhərlə ailə qurmuşdu. Xırda adlı qızı vardı.

* * *

Hacı Həzrətqulunun üçüncü oğlu İbrahim 1820-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Ticarətlə məşğul idi. Müqəddəs Kəbəyi-müəzzəmi ziyarət etmişdi.

Hacı İbrahim 1862-ci ildə vəfat edib.

Hacı İbrahimin Həsən, Əbdülkərim, Əhməd, Əzim adlı oğlanları vardı.

Həsən 1843-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı İbrahimin ikinci oğlu Əbdülkərim 1844-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

Hacı İbrahimin üçüncü oğlu Əhməd 1850-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hacı İbrahimin dördüncü oğlu Əzim 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ticarətlə məşğul idi.

## Əlinağı uşağı

Bu soyun ulu babası Əlinağıdır. Əlinağı Təbrizli məhəlləsində yaşamışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul olmuşdu.

Əlinağı Güllü ilə ailə qurmuşdu. Qurban adlı oğlu vardı.

Qurban 1796-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Öncə papaqçı, sonra sərrac işləmişdi. Pak Xorasan torpağını, Məşhədi-müqəddəsi ziyarət etmişdi. Onun törəmələri 1848-ci ilin məlumatına görə Gəlmələr məhəlləsinə daşınmışdılar.

Məşədi Qurban Anaxanımla həyat qurmuşdu. Əlinağı, Sadıq, Səlim adlı oğlanları, Balaxanım, Məstan, Tükəzban adlı qızları vardı.

II Əlinağı 1846-cı ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Qurbanın ikinci oğlu Sadıq 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Qurbanın üçüncü oğlu Səlim 1856-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Əhməd uşağı

Bu soyun ulu babası Əhməddir. Əhməd Təbrizli məhəlləsində yaşamışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul olmuşdu.

Əhmədin İbrahim adlı oğlu vardı.

İbrahim 1794-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. O, şəhərdə "Qaraqulaq İbrahim" kimi tanınırdı.

İbrahimin Əhməd, Məmməd, Kərim adlı oğlanları vardı.



II Əhməd 1824-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu.Ticarətlə məşğul idi.

İbrahimin ikinci oğlu Məmməd 1827-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

İbrahimin üçüncü oğlu Kərim 1829-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Bağır uşağı

Bu soyun ulu babası Bağırdır. Bağır Təbrizli məhəlləsində yaşamışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul olmuşdu.

Bağırın Abdin, Həsən, Əli adlı oğlanları vardı.

Abdin 1780-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Abdin Cahanla ailə qurmuşdu. Nəcəf, Baba adlı oğlanları, Ayna adlı qızı vardı.

Nəcəf 1835-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu.Ticarətlə məşğul idi.

Abdinin ikinci oğlu Baba 1843-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

* * *

Bağırın ikinci oğlu Həsən 1795-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Həsən Tükəzbanla ailə qurmuşdu. Əbdül, Fərəc, Nəsir adlı oğlanları vardı.

Əbdül 1833-cü ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əbdül 1873-cü ildə vəfat edib.

Əbdülün İbrahim, Zülfüqar, Ələsgər, Hüseyn, Ağalar, Zülfüqar (II) adlı oğlanları vardı.

İbrahim 1856-cı ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əbdülün ikinci oğlu Zülfüqar 1860-cı ildə Şuşa şəhərində anadan olmuşdu.

Zülfüqar 1870-ci ildə dünyasını dəyişib.

Əbdülün üçüncü oğlu Ələsgər 1861-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əbdülün dördüncü oğlu Hüseyn 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əbdülün beşinci oğlu Ağalar 1868-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əbdülün yeddinci oğlu Zülfüqar 1871-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Ölmüş qardaşının adını daşıyırdı.Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Həsənin ikinci oğlu Fərəc 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Fərəcin törəmələri Fərəcov soyadını daşıyırlır.

Fərəcin Fərhad, Cavad, Salman adlı oğlanları vardı.

Fərhad 1857-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Fərəcin ikinci oğlu Cavad 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Cavadın Xosrov adında oğlu var.

Fərəcov Xosrov Cavad oğlu (1922, Şuşa - 1995, Bakı) - tarzən, dirijor, bəstəkar, pedaqoq, mahir musiqi təşkilatçısı. On beş yaşından başlayaraq el şənliklərində, konsert salonlarında, kənd zəhmətkeşləri qarşısında çıxış etmiş, az vaxtda Qarabağda bir tarzən kimi məşhurlaşmışdı. 1947-ci ildə M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində ifa etdiyi "Şur" muğamını dinləyən Üzeyir bəy Hacıbəyov səhnəyə çıxaraq gənc tarzənin çalğısına yüksək qiymət vermiş və onu təbrik etmişdir.

Gənc musiqiçi Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının tar şöbəsini bitirdikdən sonra təyinatla Ağdam Orta İxtisas Musiqi Məktəbinə göndərilmiş, burda pedaqoji fəaliyyətlə yanaşı, on beş ildən artıq bu musiqi müəssisəsinin direktoru olmuşdur.



İstedadlı tarzən "Şur" adlı ansambl da yaratmışdı (1952-1977). Dərnək halında təşkil edilən bu kollektiv əvvəlcə səkkiz musiqiçidən ibarət olmuş, sonralar tərkibi genişləndirilmişdir. Əsasən, kənd klublarında, mədəniyyət evlərində, kolxoz tarlalarında konsert verən ansamblın səsi-sorağı çox çəkmədən ölkə miqyasında eşidilməyə başlamışdı. 1954-1957-ci illərdə kollektivin üzvləri bədii özfəaliyyət baxışlarında, festivallarda uğurla çıxış etmiş, üst-üstə 47 qızıl medal almışdı. "Şur" ansamblı Azərbaycanın demək olar ki, bütün şəhər və rayonlarında, Gürcüstanda, Orta Asiya respublikalarında, Moskvada 800-ə qədər konsert vermişdir.

Xosrov Fərəcov İslam Abdullayev, Seyid Şuşinski, Xan Şuşinski, Əbülfət Əliyev kimi xanəndələri tarda müşayiət etmişdir. Milli koloritə, yüksək ifaçılıq məharətinə və zəngin repertuara malik olan ustad tarzən bir çox mahnıların da müəllifidir. O, Ə. Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrının səhnəsində tamaşaya qoyulan bir çox əsərlərə musiqi bəstələmişdir.

"Əməkdə igidliyə görə" medalı ilə təltif edilmişdir.

Fərəcin üçüncü oğlu Salman 1870-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Məşədi Həsənin üçüncü oğlu Nəsir 1844-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

* * *

Bağırın üçüncü oğlu Əli 1800-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Əlinin Səlim adlı oğlu vardı.

Səlim 1858-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

**Bədəl uşağı (Bədəllilər)**

Bu soyun ulu babası Bədəldir. Bədəl Təbrizli məhəlləsində yaşamışdı. Molla yanında oxumuşdu. Ticarətlə məşğul olmuşdu.

Bədəlin Hacı, Ağaməmməd adlı oğlanları vardı.

Hacı 1776-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Hacı Hürü ilə ailə qurmuşdu. Gülməmməd adlı oğlu, İmmi, Qızxanım adlı qızları vardı.

Gülməmməd 1822-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

* * *

Bədəlin ikinci oğlu Ağaməmməd 1802-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Ağaməmmədin Hüseyn, Allahverdi adlı oğlanları, Anaxanım, Zeynəb adlı qızları vardı.

Hüseyn 1827-ci ildə Şuşa şəhərində doğulmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

Hüseyn 1857-ci ildə vəfat edib.

Ağaməmmədin ikinci oğlu Allahverdi 1831-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Ticarətlə məşğul idi.

## Qasım uşağı

